# Xalq qəzeti

Xalqın qəzeti!

№ 142 (30258) 11 iyul 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır   Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti   veb-sayt: www.xalqqazeti.az


## Günün xəbəri

Azərbaycanın energetika sektorunda daha bir mühüm hadisə baş verdi. "TotalEnergies" şirkəti və onun tərəfdaşı SOCAR Xəzər dənizində, Bakıdan, təxminən, 100 kilometr cənub-şərqdə yerləşən "Abşeron" qaz-kondensat yatağının işlənməsinin birinci mərhələsi üzrə hasilata başlandığını elan etdi.

## Azərbaycan Müqəddəs Taxt-Tacla uğurlu əməkdaşlıq edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolini qəbul edib.**

Prezident İlham Əliyev münasibətlərimizin dərinləşdirilməsində qarşılıqlı səfərlərin önəmini qeyd edərək, özünün 2020-ci ildə Vatikana səfərini və Pietro Parolin ilə görüşünü, həmçinin Roma Papası Fransiskin ölkəmizə səfərini məmnunluqla xatırladı.

Dövlətimizin başçısı kardinal Pietro Parolinin səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyinə əminliyi vurğuladı.

Azərbaycan Prezidenti ilə görüşdən məmnunluğunu ifadə edən kardinal Pietro Parolin Roma Papası Fransiskin salamlarını və ən xoş arzularını, həmçinin ölkəmizdə katolik icmaya göstərilən diqqətə görə təşəkkürünü dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara və xoş sözlərə görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papasına çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Azərbaycanın Müqəddəs Taxt-Tacda səfirliyinin açılmasını qeyd etdi.

Kardinal Pietro Parolin səfirliyin açılmasına görə təşəkkürünü bildirdi, ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini çatdırdı.

Söhbət zamanı Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi.

Kardinal Pietro Parolin ölkəmizdə dini abidələrin bərpası istiqamətində görülən işləri vurğuladı, katolik kilsəsində aparılan bərpa işlərinə görə Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirdi.

*AZƏRTAC*

## Prezidentin Mətbuat Xidmətinin məlumatı

**İyulun 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Dövlətimizin başçısı Şavkat Mirziyoyevi Özbəkistanda keçirilən növbədənkənar prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb. Prezident İlham Əliyev bu qələbəni Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistanda həyata keçirilən siyasətə xalqın verdiyi dəstək kimi qiymətləndirib və Özbəkistanın qarşıdakı illərdə də Şavkat Mirziyoyevin liderliyi ilə hərtərəfli inkişaf yolunu davam etdirəcəyinə əminliyini ifadə edib.

Özbəkistan Prezidenti təbriklərə və göstərilən diqqətə görə minnətdarlığını bildirib.

Telefon söhbəti zamanı prezidentlər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, dövlət başçıları və digər səviyyələrdə qarşılıqlı səfərlərin və təmasların əhəmiyyətini qeyd edib, əməkdaşlığımızın daha da genişləndirilməsi ilə bağlı əldə edilmiş razılaşmaların və qəbul olunan qərarların yüksək səviyyədə icra olunmasından məmnunluqlarını bildiriblər.

Dövlət başçıları ikitərəfli münasibətlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyev Şavkat Mirziyoyevi Azərbaycana dövlət səfərinə dəvət edib. Dəvət minnətdarlıqla qəbul olunub.

## Dünya bir daha əmin oldu ki, Azərbaycan tək deyil



Səhifə ⇨ 3

## "Abşeron" yatağında qaz hasilatına başlanıldı



Səhifə ⇨ 7

## Sosial siyasətin hədəfi imkansız və ehtiyacı olan insanlardır



Səhifə ⇨ 9

## İnşaat sektoru respublikada 3-cü böyük məşğulluq sahəsidir



Səhifə ⇨ 7

## Şavkat Mirziyoyev yenidən Özbəkistan prezidenti seçildi



Səhifə ⇨ 10

## Natali Luazo ermənilər üçün "qaz buraxır" ki...

## ...Tovio Klaar da "boğulsun"

**Mövzumuz Qarabağın erməni əhalisi üçün qaz nəqli barədədir. Məlumdur ki, Ermənistandan Xankəndiyə qazın verilməsi ilə dayandırılması bir oldu. İndi bölgənin separatçı rejimi, eləcə də İrəvandakı ayrı-ayrı siyasilər məsələ ətrafında ajiotaj yaradırlar.**

Humanitar fəlakət və sair bu kimi ağlaşmalarını yenə də bir-birinə calamaqdadırlar. Yeri gəlmişkən, bu "prosesə" xaricdən də dəstək var. Söhbət Avropa Parlamentinin fransalı deputatı Natali Luazonun qopardığı qara-qışqırıqdan gedir. Qeyd edək ki, xanım Luazo bu istiqamətdə xeyli püxtələşmiş kadrdır. O, əvvəllər də Azərbaycan-Ermənistan münasibətləri, o cümlədən Qarabağ kontekstində aşkar ermənipərəstlik nümayiş etdirib. İndi də özünü ermənilərə "qaz buraxmaqda" sınamaq qərarına gəlib.

Xanım Luazonun "məqsədini" reallaşdırmaq üçün "qazı" o qədər çox olub ki, Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstandakı böhran üzrə xüsusi nümayəndəsi Toivo Klaarı ittiham etmək qərarına gəlib. O, cənab Klaara nə deyib, bu barədə söz açacağıq. Hələlik Klaarın avropalı parlamentarini özündən çıxaran fikirlərinə diqqət yetirək.

*(ardı 3-cü səhifədə)*

## Haylar yenə Kremldən imdad diləyirlər



Səhifə ⇨ 4

## Kasetli bombalar Rusiya–Ukrayna müharibəsinin axarına necə təsir göstərəcək?



Səhifə ⇨ 10

## "Sahar TV"nin teoloji-ideoloji zəhəri




Səhifə ⇨ 6

## "İrəvan hansısa güzəştlər qoparmağa çalışır"

Səhifə ⇨ 4

## Ağırlıqqaldıranlarımızın Avropa uğuru



Səhifə ⇨ 11

# Özbəkistan Respublikasının Prezidenti Zati-aliləri cənab Şavkat Mirziyoyevə

**Hörmətli Şavkat Miromonoviç!**

Özbəkistan Respublikasının Prezidenti vəzifəsinə keçirilən növbədənkənar seçkilərdə qazandığınız parlaq qələbə münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Seçicilərin nəticələri milli iradənin ifadəsi, Özbəkistan vətəndaşlarının Sizin şəxsinizə olan sonsuz etimadının, inamının və hörmətinin, ölkənizin hərtərəfli inkişafı, rifahı və tərəqqisi naminə yürütdüyünüz siyasi xəttə geniş xalq dəstəyinin bariz təzahürüdür.

Biz ortaq tarixi-mədəni köklər, qardaşlıq kimi möhkəm təməllər üzərində qurulmuş Azərbaycan–Özbəkistan münasibətlərinin hərtərəfli inkişafına böyük əhəmiyyət veririk. Xalqlarımızın iradə və məramından qaynaqlanan, qarşılıqlı inam və dəstəyə əsaslanan dövlətlərarası əlaqələrimizin bugünkü səviyyəsi, tərəfdaşlığımızın yüksələn xəttə inkişaf etməsi xüsusi məmnunluq doğurur.

Sevindirici haldır ki, son dövrdə ikitərəfli münasibətlərimiz keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, qarşılıqlı faydalı əməkdaşlığımızın inkişafında yeni istiqamətlər müəyyən edilmişdir. Əminəm ki, birgə səylərimizlə qardaş ölkələr və etibarlı tərəfdaşlar olan Azərbaycan ilə Özbəkistan arasında ənənəvi dostluq münasibətlərinin inkişafına, çoxşaxəli əməkdaşlığın genişlənməsinə, strateji tərəfdaşlığın daha da dərinləşməsinə nail olacağıq.

Hörmətli Şavkat Miromonoviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Özbəkistan Respublikasının və xalqının əmin-amanlığı və firavanlığı naminə məsul dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2023-cü il**

# M.M.Seyidovun Azərbaycan Respublikası ədliyyə nazirinin müavini - Penitensiar xidmətin rəisi təyin edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mirsaleh Miradil oğlu Seyidov Azərbaycan Respublikası ədliyyə nazirinin müavini – Penitensiar xidmətin rəisi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2023-cü il**

# "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in icrası ilə bağlı səlahiyyətli orqanların (qurumların) müəyyən edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının 2023-cü il 16 iyun tarixli 921-VIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in 12-ci maddəsinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

**1.** 2021-ci il mayın 28-də Minsk şəhərində imzalanmış "Saxta əmtəə nişanlarının və coğrafi göstəricilərin istifadəsinin qabaqlanması və qarşısının alınması üzrə MDB iştirakçısı dövlətlərinin əməkdaşlığı haqqında Saziş"in Azərbaycan Respublikası tərəfindən həyata keçirilməsi üzrə səlahiyyətli orqanlar (qurumlar) qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi müəyyən edilsinlər.

**2.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Sazişin Azərbaycan Respublikası tərəfindən həyata keçirilməsi üzrə səlahiyyətli orqanların (qurumların) müəyyən edildiyi barədə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2023-cü il**

# C.Ə.Həsənovun Azərbaycan Respublikası ədliyyə nazirinin müavini – Penitensiar xidmətin rəisi vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Əkbər oğlu Həsənov Azərbaycan Respublikası ədliyyə nazirinin müavini – Penitensiar xidmətin rəisi vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2023-cü il**

# M.B.Babanlının Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Mustafa Baba oğlu Babanlı Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 10 iyul 2023-cü il**

# Müqəddəs Taxt-Tacın dövlət katibi Heydər Əliyev Mərkəzində olub

**Azərbaycanda səfərdə olan Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin iyulun 10-da Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət edib.**



Pietro Parolin Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək əziz xatirəsini ehtiramla anıb.

Müqəddəs Taxt-Tacın dövlət katibi, həmçinin ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan vətəndaşlarımızın məzarlarını ziyarət edib, "Əbədi məşəl" abidəsi önünə gül dəstəsi qoyub.

Qonaq daha sonra Heydər Əliyev Mərkəzində olub. Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov qonağa Mərkəzin fəaliyyət istiqamətləri və burada nümayiş olunan sərgilər barədə məlumat verib.



Mərkəzdə, həmçinin Azərbaycanın mədəniyyət naziri Adil Kərimli ilə Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolinin görüşü olub.

Görüşdə Azərbaycan və Müqəddəs Taxt-Tac arasındakı mövcud əlaqələr, mədəniyyət sahəsindəki layihələr, o cümlədən muzeylər və kitabxanalar arasındakı əməkdaşlıq məsələləri müzakirə edilib.

Görüş zamanı Müqəddəs Taxt-Tacın dövlət katibi 2023-cü ildə Bakıda keçiriləcək Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna dəvət olunub.

Qeyd edək ki, Pietro Parolin Bakıda Tereza Ananın Mərhəmət bacıları sığınacağında və Müqəddəs Məryəm Katolik Kilsəsində də olub.

İyulun 11-dək davam edəcək səfər çərçivəsində Müqəddəs Taxt-Tacın dövlət katibi, həmçinin dini icmaların nümayəndələri ilə görüşlər keçirəcək.

Qarşılıqlı hörmətə əsaslanan Azərbaycan–Müqəddəs Taxt-Tac əlaqələri böyük inkişaf yolu keçib və hazırda Azərbaycanla Müqəddəs Taxt-Tac arasındakı siyasi dialoq yüksək səviyyədədir.

Müqəddəs Taxt-Tac ilə Heydər Əliyev Fondu arasında da səmərəli əməkdaşlıq əlaqələri qurulub. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Fond tərəfindən Vatikanda bəşəri əhəmiyyət daşıyan bir sıra tarixi abidələrin bərpası mədəni irsin qorunmasına mühüm töhfədir. Həmin layihələr dünya mədəni, tarixi və dini irsinin qorunması ilə yanaşı, mədəniyyətlər və dinlərarası əlaqələrin inkişafında Azərbaycanın rolunu bir daha təsdiqləyir.

# Türkiyənin Ali Məhkəməsinin sədri və Baş prokuroru Naxçıvanda səfərdədir





**Baş prokuror Kamran Əliyevin dəvəti ilə Türkiyə Ali Məhkəməsinin sədri Mehmet Akarca və Ali Məhkəmənin Baş prokuroru Bekir Şahinin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında işgüzar səfərdədir.**



Nümayəndə heyəti öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsini, türk xalqının böyük öndəri Mustafa Kamal Atatürkün büstünü ziyarət edərək əziz xatirələrini ehtiramla yad ediblər.

Qonaqlar Heydər Əliyev Muzeyində ümummilli liderin həyat və fəaliyyətinə aid fotoşəkil və eksponatlarla tanış olublar. Tədbir iştirakçıları Naxçıvan şəhərindəki Şəhidlər xiyabanını və 1918-1920-ci illərdə erməni daşnakları ilə mübarizədə Naxçıvanın köməyinə gələn qardaş Türkiyə ordusunun bu torpaqlarda şəhid olmuş əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edərək tər güllər qoyublar.

Səfər çərçivəsində Türkiyədən olan nümayəndə heyəti ilə Baş prokuror Kamran Əliyev və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli arasında görüş keçirilib. Görüş zamanı Naxçıvanda aparılan kompleks islahatlar, yenidənqurma işləri barədə ətraflı müzakirə aparılıb.

Sonra "Azərbaycan və Türkiyə prokurorluqlarının sərhədyanı əməkdaşlığı" mövzusunda konfrans keçirilib.

Baş prokuror Kamran Əliyev ölkələrimizin prokurorluq, ədliyyə və məhkəmə orqanları arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğulayıb.

Baş prokuror bildirib ki, hazırda Ermənistan Arazdəyəndə 70 milyon dollarlıq iri metallurgiya zavodu inşa edir. Onun inşası və zəhərli maddələrin Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayına tökülməsi böyük cinayətdir. Zavod fəaliyyətə başlayarsa, geniş zolaqda ətraf mühitin, ekosistemin pozulmasına, havanın zəhərli tullantılarla çirklənməsinə səbəb olacaq. Ermənistan yenə beynəlxalq hüquq norma və prinsiplərini, xüsusilə də BMT-nin Avropa İqtisadi Komissiyasının Transsərhəd kontekstdə ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiyasının (Espo Konvensiyası) müddəalarını kobud surətdə pozur.

Azərbaycan Prezidentinin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli çıxışında konfransın əhəmiyyətindən bəhs edib.

Həmçinin, Türkiyə Respublikası Ali Məhkəməsinin sədri Mehmet Akarca və Ali Məhkəmənin Baş prokuroru Bekir Şahin, o cümlədən, digər qonaqlar çıxışlar ediblər.

***Səbuhi HƏSƏNOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***

# Azərbaycanda terror aktı törətməyi planlaşdıran xarici ölkə vətəndaşı saxlanılmışdır

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) ölkəmizin milli təhlükəsizliyinə və dövlət maraqlarına qarşı yönələn terror-təxribat və kəşfiyyat-pozuculuq fəaliyyəti ilə mübarizə istiqamətində əməliyyat-istintaq tədbirlərini davam etdirir.**

Aparılan araşdırmalarla Əfqanıstan İslam Respublikasının vətəndaşı, 1990-cı il təvəllüdlü Favzan Musa Xanın (Fawzan Mosa Khan) digər şəxslərlə qabaqcadan əlbir olaraq Azərbaycan Respublikası ərazisində ictimai sabitliyi pozmaq, əhali arasında vahimə yaratmaq, dövlət hakimiyyət orqanları və beynəlxalq təşkilatlar tərəfindən qərar qəbul edilməsinə təsir göstərmək məqsədilə partlayış, yanğın və ya digər bu kimi hadisələrə müşayiət olunacaq, insanların həlak olması, onların sağlamlığına zərər yetirilməsi, əhəmiyyətli əmlak ziyanının vurulması və başqa ictimai təhlükəli halların baş verməsi ilə nəticələnəcək terror aktları törətməyi planlaşdırması müəyyən edilmişdir.

Məlum olmuşdur ki, adıçəkilən əcnəbi qeyd olunan cinayət əməllərini törətmək niyyəti ilə xarici ölkədən Azərbaycana gəlmiş, Bakı şəhərində yaşadığı müddətdə üçüncü dövlətin ölkəmizdəki səfirliyinin yerləşdiyi ərazinin koordinatlarını müəyyənləşdirmək və terror aktını planlaşdırmaq məqsədilə səfirliyin binasının ətrafında müşahidə aparmış, terror aktında iştirak edə biləcək şəxsləri müəyyənləşdirərək bu fəaliyyətə cəlb olunması, odlu silah və partlayıcı maddələrin əldə edilməsi, bu məqsədlərlə maliyyə dəstəyinin alınması üçün digər şəxslərlə əlaqəyə girib sövdələşmişdir.

Fakta bağlı Fəvzan Musa Xan DTX-nin İstintaq Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 28, 214.2.1 və 28, 214.2.3-cü (qabaqcadan əlbir olan bir qrup şəxs halında odlu silah və silah qismində istifadə olunan predmetlərdən istifadə etməklə terrorçuluq hərəkətlərinin törədilməsinə hazırlıq) maddələri ilə başlanılmış cinayət işi üzrə cinayət başında saxlanılaraq təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb olunmuş və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilmişdir.

Hazırda terror aktını planlaşdıran şəxslərin dairəsinin tam müəyyən olunması istiqamətində DTX tərəfindən kompleks istintaq-əməliyyat və beynəlxalq hüquqi prosedur tədbirləri həyata keçirilir.

***"Xalq qəzeti"***

# Dünya bir daha əmin oldu ki, Azərbaycan tək deyil

## Türkiyə, Pakistan və İsrail dövlət başçılarının Bakı səfərləri çox mətləblərdən xəbər verir

**Bu gün dünyada gedən ictimai-siyasi proseslər, ədalətli-ədalətsiz müharibələrin davam etməsi, mövcud münaqişələrin həllinə münasibətdə ikili standartın fəsadları, yeni münaqişə ocaqlarının yaradılması vəziyyəti daha da mürəkkəbləşdirir. Politoloq və konfliktoloqlar açıq şəkildə narahatlıq ifadə edirlər ki, hegemonluq etmək istəyənlərin hikkələri planetimizi ağır qarşıdurmalara doğru aparır. Ona görə də hər bir dövlət özünün təhlükəsiz sabahı üçün lazım olan addımları atır, daha mükəmməl variantlar üzərində işləyir.**



*Prezident Rəcəb Tayyib Ərdoğanın çox açıq, qətiyyətli bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil. Azərbaycanın yanında Türkiyə kimi dünya miqyasında böyük bir güc olan dövlət var, qardaş ölkə var. Bu dəstək bizi ruhlandırır, bizə əlavə güc verir və eyni zamanda, bölgədə sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynayır."*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Biz məmnunuq ki, Azərbaycanın bu istiqamətdə atdığı addımlar öz müsbət nəticələrini verməkdədir. Bizim xarici siyasətimiz ona görə birmənalı şəkildə uğurlar qazanır ki, dövlətimiz işğalçılıq, ilhaqçılıq, separatizm, terrorçuluq, təxribatçılıq, haqsızlıq, ədalətsiz mövqe tutmaq kimi bəd əməllərdən uzaqdır. Ona görə də dövlətimizin nüfuzu, liderimizin reytinqi gündən-günə artır. Yüksək nüfuzlu ölkələrin dostları isə həmişə çox olur. Geridə qalan ay yarımda Bakıda səfərdə olmuş onlarca xarici ölkə siyasətçilərinin hamısı bəyan etmişdir ki, Azərbaycan bizim sınanmış müttəfiqimiz, sədaqətli dostumuzdur. Bu qısa yazıda həmin çoxsaylı siyasətçilərin üçünün Bakı səfəri zamanı müzakirə edilən məsələlərdən söz açmaq istəyirik.

### Türkiyə hər zaman Azərbaycanın yanındadır

Bu il iyunun 13-də dövlət başçımızın Bakıda dost və qardaş ölkənin rəhbəri – Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə mətbuat konfransında əmin olduğunu bildirdi ki, bu seçkilərdən sonra Türkiyə–Azərbaycan qardaşlıq əlaqələri qarşısında yeni imkanlar, yeni üfüqlər açılır: "İki gündən sonra biz Şuşa Bəyannaməsinin ikinci ildönümünü qeyd edəcəyik. Şuşa Bəyannaməsi tarixi anlaşmadır. Bu anlaşma nəticəsində Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. Əslində, faktiki olaraq, biz uzun illər müttəfiqlər kimi fəaliyyət göstərirdik, ancaq Şuşa Bəyannaməsi bunu rəsmi sənədə çevirdi. Bu sənədin Şuşada imzalanması, təbii ki, rəmzi xarakter daşıyır. Çünki Şuşa Qarabağın tacıdır və Şuşanın işğaldan azad olunması İkinci Qarabağ müharibəsinə son nöqtəni qoymuşdur. Fürsətdən istifadə edərək, Azərbaycan xalqı adından Sizə və qardaş Türkiyəyə İkinci Qarabağ savaşı dönəmində bizə göstərdiyiniz qardaşlıq dəstəyinə, mənəvi və siyasi dəstəyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm".

Prezident Rəcəb Tayyib Ərdoğanın bəyanatında da müdafiə məsələləri gündəlikdəki əsas istiqamətlərdən biri idi. Qardaş ölkənin lideri xatırlatmışdı ki, bizim müdafiə sənayesi sahəsində atılacaq addımlarımız da böyük əhəmiyyət kəsb edir: "Bu sahədə atacağımız addımlarla birlikdə bu işin müdafiə sənayesi hissəsi ilə yanaşı, təhsil məsələsində də üzərimizə düşən vəzifələr var. Bu vəzifələri bu günə qədər necə yerinə yetirmişiksə, bundan sonra da eyni qaydada həyata keçirməkdə davam edəcəyik".

Ancaq cənab Ərdoğanın həmin mətbuat konfransında səsləndirdiyi başqa bir məqam da var idi ki, onu dünya azərbaycanlıları heç zaman unuda bilməyəcək: "Şuşa Bəyannaməsinin müddəalarını da, İnşallah, bundan sonra da uğurla həyata keçirməyi davam etdirməkdə qərarlıyıq və bu məsələdə güzəştə getməyəcəyik". Doğrudan da Azərbaycan tək deyil və qardaş ölkənin dövlət başçısı bir daha xəbərdarlıq edir ki, biz Azərbaycanla müttəfiqlik zəminində üzərimizə götürdüyümüz öhdəlikləri heç kəsə, heç bir güzəşt etmədən yerinə yetirəcəyik.

### Şahbaz Şərif: Mən dövlət bayrağımızı Bakının küçələrində də gördüm

Azərbaycanın haqq işini, ərazi bütövlüyünü və ədalətli mövqeyini təkcə 44 günlük İkinci Qarabağ müharibəsində deyil, ümumiyyətlə, daim dəstəkləyən ölkələrdən biri də Pakistan İslam Respublikasıdır. Bu ölkənin rəsmiləri daim, heç kəsdən çəkinmədən, qətiyyətli şəkildə bəyan ediblər ki, İslamabad istənilən anda, istənilən məsələdə Bakıya kömək etməyə hazırdır. Əslində, bu fikirlər Azərbaycanla təhdid dilində danışmaq istəyənlərə ünvanlanmış xəbərdarlıq kimi qəbul edilmədir.

Bu il iyunun 15-də – Azərbaycan xalqının Qurtuluş günü Bakıda, Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə mətbuata bəyanatla çıxış edən Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif xatırlatmışdır ki, Pakistan hər zaman Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir: "Biz Qarabağ üzərində Azərbaycanın hüququnu hər zaman birmənalı dəstəkləmişik. Sizin Ordunuz çox cəsarətlə döyüşərək, Qarabağı azad etmişdir, ölkənizin ərazi bütövlüyünü bərpa etmişdir. Pakistan Azərbaycanı hər zaman dəstəkləmişdir. Bu, bizim qardaş olaraq vəzifəmiz, borcumuz idi və biz bunu həyata keçirdik".

Azərbaycan əhalisi dost ölkənin Baş nazirinin Ermənistanla münasibətlər barədə səsləndirdiyi fikirləri müasir tariximizin dəyərli səhifələrindən biri kimi qəbul edir: "Məmnunam ki, Ermənistanla sülh sazişi üzərində artıq danışıqlar gedir. Bildiyiniz kimi, Pakistan Ermənistanla diplomatik münasibətlər qurmayan bir neçə ölkədən biridir və bu, bizim mənəvi öhdəliyimizdir. Siz yalnız Ermənistanla sülh sazişini imzalayandan sonra bizə bir mesaj versəniz, bu məsələyə yenidən baxa bilərik. Bu məsələdə də biz birmənalı olaraq Azərbaycanı dəstəkləyirik". Eşq olsun! – deməkdən başqa bir söz tapmaq olmur.

Ancaq dövlət başçımızın sözü həmişə var. Azərbaycan Prezidenti pakistanlı qonağa xatırlatmışdır ki, bu, qardaş mövqeyidir, buna görə biz minnətdarıq: "Azərbaycan xalqı çox gözəl bilir ki, 44 günlük müharibə dövründə kim bizimlə bir yerdə idi. Bu, Türkiyə və Pakistan idi. Hər iki ölkə müharibə zamanı ciddi siyasi dəstək nümayiş etdirdi".

Dövlət başçımız əlavə etmişdir ki, Azərbaycanla Pakistan arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq, birgə hərbi təlimlərin sayının artırılması məsələsi müzakirə edilir və buna ehtiyac var: "Çünki dünyada vəziyyət dəyişir, qeyri-sabitlik nöqtələri artır, ona görə də güclü hərbi potensial müstəqilliyin və ərazi bütövlüyünün qarantıdır".

### İsrail Azərbaycanın təhlükəsizliyinə xüsusi töhfələr verir

Zaman sübut edib ki, nəinki birbaşa hərb meydanlarında, hətta gündəlik həyatda, mülki məsələlərdə də müasir texniki vasitələrsiz keçinmək mümkün deyil. Hətta indi kiber müharibələr, kiber müdaxilələr və kiber təhlükəsizlik kimi anlayışlar dövlətlərin gündəlik həyatında ən çox müzakirə olunan məsələlərdən birinə çevrilib. Azərbaycanın bu sahədəki tələbatının ödənilməsinə yaxından kömək edən ölkələrdən biri də İsrail Dövlətidir. İllərin təcrübəsi sübut edib ki, heç bir dövlət Azərbaycan – İsrail münasibətlərinin inkişaf etməsinə mane ola bilmir.

Bu il mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsrail Dövlətinin Prezidenti İshak Hersoq Bakıda mətbuata bəyanatlarla çıxış edərkən dövlət başçımız xatırlatmışdır ki, bu yaxınlarda əməkdaşlığa başladığımız sahələrdən biri kibertəhlükəsizlik sahəsidir. Bu sahədə fəal təmasların başlanılmasına çox şadıq: "Bu gün artıq sirr deyil ki, kibertəhlükəsizlik hər bir ölkənin milli təhlükəsizliyinin mühüm hissəsidir. Əlbəttə ki, bu sahədə İsrail şirkətlərinin böyük təcrübəsi bizim üçün faydalı olacaq. Həmçinin gənc nəslin təlimi və tədrisi də məqsədlərimizə nail olmaq və özümüzü təhlükədən qorumaq üçün mühüm amil olacaq".

Dövlət başçımız təhdidlərdən danışarkən, həmçinin müdafiə sənayesi sahəsində uzunmüddətli əməkdaşlığı məmnuniyyətlə qeyd etmək istədiyini bildirib: "Azərbaycanın uzun illərdir ki, bu sahədə İsrailin müasir avadanlığına çıxışı var, bu da bizə müdafiə qabiliyyətimizi müasirləşdirməyə kömək edir və dövlətçiliyimizi, əsas dəyərlərimizi, milli maraqlarımızı və ərazi bütövlüyümüzü müdafiə etməyə imkan yaradır".

Sonda bir daha xatırladaq ki, ötən ay Türkiyə, Pakistan və İsrailin dövlət başçıları növbəti dəfə bəyan etdilər ki, Azərbaycan beynəlxalq aləmdə tək deyil.

**İttifaq MİRZƏBƏYLİ,**
**"Xalq qəzeti"**

# Natali Luazo ermənilər üçün "qaz buraxır" ki...

**(əvvəli 1-ci səhifədə)**

Ancaq əvvəlcə haşiyə çıxaq ki, T.Klaar son vaxtlar çalışdığı sahədə, bir növ, var-gəl etməklə məşğuldur. Adam özünü təmizlik işi görərkən dağıtdığı hörümçək yuvasının şəklini çəkib sosial şəbəkə hesabında paylaşan evdar xanımlar kimi aparmaqdadır. Bakıya və İrəvana səfərlərini, eləcə də bölgə ilə bağlı hər hansı durumu "Twitter" hesabında elə göstərir ki, sanki nəyisə həll edəndir, yaxud hansısa məsələnin həlli ondan asılıdır. Halbuki, farmazonluq edir. İndi də Ermənistandan Xankəndiyə qaz nəqlinin bərpasında Klaara aid heç nə yoxdur. Adam sevinib və sevincini bölüşüb: "Bu səhər Xankəndi/Stepanakert şəhərinə qazın verilişinin bərpa olunduğunu oxumaq xoş oldu".

"Əminsiniz, Toivo Klaar? Siz əminsiniz ki, Dağlıq Qarabağa qaz nəqli stabildir və hələ də davam edir? Laçın dəhlizi tam blokadada olduğu halda, oxumaq xoşdurmu? Xankəndi adı işlədilməlidirmi? Avropa Parlamenti xəbərləri oxumaq yox, hərəkətə keçməyinizi istəyir. Onlar blokadaya düşmüş mülki şəxsləri dəstəklədilər və bu dəhşətli vəziyyətə görə məsuliyyət daşıyanları sevindirmək üçün hərəkət etmədilər". Bu fikirlərin müəllifi olan ermənilərin "nənəsi" Luazonun Klaarı, necə deyərlər, ağ yuyub qara sərdiyi aşkardır. Əlbəttə, bunu özünəxas həyasızlıqla edib.

Sən demə, Luazonu Klaarın Xankəndini öz adı ilə yazması qıcıqlandırıb. Əlbəttə, qoca ləçərin əsəbləşib ağzına gələni danışmasında təəccüblü heç nə yoxdur. Əsl məsələ T.Klaarın yaratmaq istədiyi balansdadır. Guya, "Xankəndi/Stepanakert" yazmaqla tərəfsizlik edir. Təkcə xüsusi nümayəndə yox, bölgədə sülh yaratmaq üçün səy göstərdiklərini, iş gördüklərini bildirən, bunu Azərbaycanın və Ermənistanın ictimai rəyinə sırımaq istəyənlər anlamırlar ki, belə balans yaratmaq yekun nəticədə erməni avantürizminə qol-qanad verir, ümumən, erməni siyasi dairələrinin və iqtidarının illüziyalara qapılmalarına, reallıq hissini itirmələrinə gətirib çıxarır.

Əlqərəz, Klaar Xankəndiyə qaz verilməsinin bərpasını "əsl Bakı–Stepanakert/Xankəndi dialoqu" ilə əlaqələndirib. Onun məntiqini anlamaq həm çətindir, həm asan. Asandır ona görə ki, adam beynəlxalq hüququ saymazdan gəlir. Nəzərə almır ki, Azərbaycan ərazisində Stepanakert adlı şəhər yoxdur. İkincisi, Klaar Azərbaycanın gündəmində Qarabağ ermənilərinin reinteqrasiyası məsələsinin olduğunu unudur. Yəni, onun dialoq məntiqi yersizdir. Həm də o səbəbdən yersizdir ki, nəzəri baxımdan dialoq iki tərəf arasında aparılır. Bakı Qarabağ ermənilərini tərəf yox, vətəndaş kimi görür. Əlbəttə, onlar da özlərini vətəndaş sayırlarsa...



Digər tərəfdən, ölkəmiz Qarabağın hay əhalisinin uzun müddət mərkəzi hakimiyyətdən kənarda qaldığını, separatçılara görə bölgəyə vətəndaş sahibliyindən uzaq düşdüyünü, fikirlərinin nəzərə alınmadığını, real problemləri gördükləri halda, həmin problemlərin həllinə yaxın buraxılmadığını düşünür və bu əhalinin köməyi, təklif və təşəbbüsləri ilə ərazinin dirçəldilməsi imkanlarını öyrənmək istəyir. Əslində, reinteqrasiya Qarabağ erməniləri üçün insan olaraq yaşamaq şansıdır, dəyərdir. Klaar və qeyri-klaarlar bilməlidirlər ki, bu, ölkəmizin şans şkalası üzrə irəli sürdüyü ən böyük göstəricidir.

Ancaq Aİ-nin Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə nümayəndəsinin söylədiklərinə başqa rakursdan da baxaq. Əslində, onun Xankəndiyə qaz nəqlinin bərpası ilə, hətta qəbuledilməz olduğu halda belə, irəli sürdüyü dialoq məntiqi arasında paralellər aparmasında da müsbət məqam var. Klaar fikrini belə ifadə etməklə göstərmək istəyir ki, Qarabağ ermənilərinin bölgədə yaşamaları sosial təminatdan keçir. Deməli, qaz varsa, həyat var. Müvafiq olaraq, qaz yoxdursa, həyat da yoxdur. Həyatı təmin edən, daha doğrusu, etməli olan isə Azərbaycandır, Ermənistan yox.

Klaarın günün məyusluqla bitdiyini bildirməsi müsbət haldır. Çünki əvvəldə də vurğuladığımız kimi, Xankəndiyə qaz verilişinin ömrü cəmi bir gün çəkdi. Ancaq nə separatçılar, nə də Qarabağ erməniləri bundan nəticə çıxarmadılar. Əvəzində toy-bayram etməyə, məsələni Bakının, guya, geri çəkilməsi xüsusunda tirajlamağa başladılar. Klaarın məyusluq ifadəsi fonunda dialoqdan söz açması isə o deməkdir ki, Qarabağ erməniləri yaşamaq istəyirlərsə, Bakının prinsipləri ilə ayaqlaşmalıdırlar. Görünür, fransalı parlamentari xanım Luazo da Aİ təmsilçisinin bu subliminal mesajını anladığından, ona əsəbləşib.

Ancaq o da görünür ki, məsələnin mahiyyətini Luazodan başqa kimsə dərk etmək istəmir. Yəni, söhbət Qarabağ erməniləri və bölgənin separatçı rejimindən gedir. Onlar anlamırlar ki, Azərbaycan heç bir halda Ermənistanın Qarabağ bölgəsini qazla və digər sosial məsələlərlə davamlı təminatına icazə verə bilməz. Bir halda ki, Qarabağa qaz axınının krantı, ölkəmizin əlindədir, deməli, bundan siyasi təzyiq vasitəsi kimi yararlanmaq da mümkündür. Axı, separatçı rejim və havadarları həlelik Bakının Xankəndiyə qaz təchizatının reallaşdırmasını, habelə digər zəruri ehtiyacların qarşılanmasını əngəlləyirlər. Özlərinin sarsaq məntiqlərinə söykənib bölgənin, guya, blokadada olduğunu bildirirlər. Bir halda ki, blokada vay-şüvəni onsuz da gündəmdədir, o zaman daha yaxşısı odur ki, separatçı rejimə əsl blokadanın necə olduğu göstərilsin.

Bəli, bir halda ki, Azərbaycanın adını onsuz da bədnam göstərirlər, deməli, ölkəmizin bu ada uyğun hərəkət etməsində problem yoxdur. Belə görünür, Bakı əlini bala batırıb Qarabağ ermənilərinin ağzına dürtsə də, separatçı rejim bunu zəhər kimi qarşılayacaq. O zaman gerçək zəhəri dadmaları daha doğru deyilmi? Dadsınlar və məcbur olub düz yola gəlsinlər, yaxud da bölgədən rədd olub getsinlər. Necə ola bilər ki, Bakı Qarabağın təminatına şərait yaratsın, separatçılar isə bundan yararlanıb təxribatlar törətsinlər? Halbuki bunu edir və Qarabağın sadə ermənilərinin həyatlarını düşünməyəcək qədər azğınlaşırlar.

Deməli, Azərbaycan Qarabağ ermənilərinə başa salmalıdır ki, onların insan kimi yaşamalarına maneçilik törədən kimlərdir. Məlumdur ki, Bakının yurisdiksiyasının qəbulu problemlərin aradan qalxmasıdır. İndiki halda ölkəmizin suverenliyinə təhdid var və onun qarşısı mümkün vasitələrlə alınmalıdır. Təhdid müharibədir, müharibədə isə bütün rıçaqlardan istifadə keçərlidir. O cümlədən, qaz nəqlini dayandırmaq da...

Bəli, Qarabağ erməniləri vəziyyəti tam dərk etməlidirlər. Bilməlidirlər ki, hazırkı durumda onlar separatçıların əlində alətə çevriliblər. İkincilər birincilərin yaşam hüquqları üzərində manipulyasiya edir ki, avantürizmlərini sürdürsünlər. 1988-ci ildə də erməni millətçiləri eyni qaydada davranmışdılar. O zaman sadə ermənilər buna qarşı səslərini çıxarsaydılar, özlərini kütlə kimi aparmasaydılar, nə Azərbaycan torpaqlarının işğalı yaşanardı, nə müharibə, nə də hazırkı durum.

İndi ədalətin təntənə anı yetişib. Qarabağ ermənilərinin şansı var ki, o anın tərkib hissəsi olub tarixə çevrilsinlər. Separatçılar isə cidd-cəhdlə onları özlərinin avantürizminin bir hissəsinə çevirmək niyyəti güdürlər. Bu, baş tutmasa, erməni xəstə təfəkküründəki saxta niskil ssenarisi işə düşə bilər. Soyqırımı, etnik təmizləmə kimi məsələlərin ortaya atılması isə "ermənilərsiz Qarabağ" formulunu reallaşdırmaq niyyətindən irəli gəlir. Erməni avantürizminə görə, əgər Qarabağda Azərbaycanın yurisdiksiyası bərpa olunacaqsa, o zaman bölgədə erməni qalmamalıdır. Onları fiziki cəhətdən məhv etmək isə haqqında söz açdığımız niskili yaratmaq üçündür. Məhz buna görə də etnik təmizləmə və soyqırımı məsələlərindən söz açırlar. Gerçəkliyə doğru addım atmaq istəyənlər isə Avropa Parlamentinin fransalı üzvü N. Luazo kimi ermənipərəstlər tərəfindən süngü ilə qarşılanır.

**Ə.CAHANGİROĞLU,**
**"Xalq qəzeti"**

# Haylar yenə Kremldən imdad diləyirlər

## *Bu məqsədlə Rusiyadakı erməni diasporu Prezident Putinə müraciət edib*

**İyulun 4-də Moskvada Azərbaycanın daxili işlərinə kobud müdaxilə kimi qiymətləndiriləcək hadisə baş verib. Həmin gün Erməni Apostol Kilsəsinin Rusiya və Novo-Naxiçevan (?) yeparxiyasının şəhərdəki məbəd kompleksində erməni diaspor təşkilatlarının rəhbərləri və nümayəndələrinin, həmçinin erməni əsilli Rusiya Federasiyası vətəndaşlarının yığıncağı keçirilib. Yığıncağa Erməni Apostol Kilsəsinin yeparxiyasının rəhbəri, arxiyepiskop Ezras sədrlik edib.**

İclas iştirakçıları Laçın–Xankəndi yolunun girişində iyunun 15-də Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçusunun yaralanması ilə nəticələnmiş hücumdan sonra, bu təxribatın səbəblərinin araşdırılması, sərhəd nəzarət-buraxılış məntəqəsinin və oradan keçidin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan tərəfindən həyata keçirilən müvafiq tədbirləri öz xislətlərinə uyğun şəkildə şərh ediblər. Hadisənin məsuliyyətini Azərbaycanın üzərinə qoymağa çalışan haylar Qarabağda yaranmış "kritik vəziyyəti" pisləyiblər. Onlar bölgədə humanitar böhranın (?) hər ötən gün daha da ağırlaşdığını, Ermənistandan Qarabağa qazın və elektrik enerjisi verilişinin kəsilməsinin (?) beynəlxalq hüquq baxımından müharibənin bir forması olduğunu bildiriblər.

Həmçinin qeyd olunub ki, iyunun 28-də Rusiya sülhməramlılarının məsuliyyət zonasında artilleriya və pilotsuz uçuş aparatlarının tətbiqi ilə baş vermiş və 4 Qarabağ hərbçisinin ölümü ilə nəticələnən "təcavüz aktı" Azərbaycanın Qarabağ məsələsini hərbi yolla həll etmək niyyətini bir daha təsdiqləyib. Bu şərtlər daxilində iclas iştirakçıları Vladimir Putinə müraciət etmək qərarına gəliblər. Müraciətdə Rusiya Prezidenti Qarabağ ermənilərini müdafiə etməyə, həmçinin Qarabağın blokadasının (?) aradan qaldırılması üçün səy göstərməyə və bölgə əhalisinin təhlükəsizliyinin və azad sosial-iqtisadi fəaliyyətinin təmin edilməsi üçün tədbirlər görməyə çağırılıb. Müraciəti imzalayanlar Putini əmin ediblər ki, onlar bu məsələlərin həlli üçün əllərindən gələni etməyə hazırdırlar (?).

Qeyd olunub ki, faşizmə qarşı Böyük Vətən müharibəsində kiçik "Qarabağ xalqı" (?) özünü qəhrəmancasına aparıb, on minlərlə oğul və qızını döyüş meydanlarına göndərib, sovetlər ölkəsinə 34 Sovet İttifaqı Qəhrəmanı, 7 nəfər "Şöhrət" ordeninin tam kavalerini, minlərlə zabit, onlarca general və 5 marşal verib. Bildirilib ki, "neonasistlər" (?) bu gün "qəhrəman xalqı" aclığa, soyuqla, yoxsulluqla məhv etməyə çalışır, bütün ağlagələn və ağlasığmaz insan haqlarını tapdalayır, onları öz vətənlərini tərk etməyə məcbur etməyə, torpaqlarına sahib çıxmağa, "Artsaxın minillik xristian sivilizasiyasını məhv etməyə" çalışırlar. "Biz, bu müraciəti imzalayan Rusiya vətəndaşları Sizdən xahiş edirik ki, 2020-ci ilin noyabrında Rusiyanın könüllü olaraq qəbul etdiyi öhdəliklərə uyğun olaraq tarixi vətənimizi, Qarabağ ermənilərini qoruyasınız", – müraciət bu sözlərlə bitir. Müraciəti 42 diaspor təşkilatı və 22 erməni əsilli Rusiya vətəndaşı imzalayıb.



***

Ermənilərin bütün tarixinin miflər üzərində qurulduğu heç kim üçün sirr deyil. Bəlkə də dünyada özünün keçmişini bu qədər bəzəyən, nağıllar, əfsanələr uyduran, hər yerdə özünün izini axtaran başqa bir xalq yoxdur. "Dənizdən-dənizə böyük Ermənistan" xülyası ilə yaşayan, hətta Nuh peyğəmbəri də əz qala erməni çıxaran, onun gəmisinin Ağrı dağına yan alması ilə əsatirlər düzüb-qoşan hayların bu davranışı artıq bizi təəccübləndirmir. Buna baxmayaraq, onların yalanlarını cavabsız buraxmaq bu yalanları qəbul etmək demək olardı. Odur ki, gəlin, ermənilərin V.Putinə müraciətindəki yalanlara cavab verək.

Əvvəla, qeyd etmək lazımdır ki, Azərbaycan elə ermənilərin V.Putinə müraciətdə haqqında bəhs etdikləri sərhəd nəzarət-buraxılış məntəqəsini beynəlxalq hüquqa uyğun olaraq öz ərazisində yaradıb. Bu məntəqədən erməni əsilli Azərbaycan vətəndaşlarının Qarabağ iqtisadi rayonuna və Ermənistana giriş-çıxışı normal məcrada baş tutub. İyunun 15-də baş verən hadisədən sonra bu təxribatın səbəblərinin araşdırılması, sərhəd nəzarət-buraxılış məntəqəsinin və oradan keçidin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan tərəfindən müvafiq tədbirlər həyata keçirilir. Bu tədbirlərin blokada kimi qələmə verilməsi əsassızdır. Üstəlik, ermənilər beynəlxalq hüquqdan danışırlarsa, beynəlxalq hüquqa görə, Qarabağın dağlıq hissəsi də, aranı da Azərbaycanın ərazisidir. Bütün dünya Azərbaycanın Qarabağ üzərində suverenliyini tanıyır. Hətta, Ermənistanın baş naziri Nikol Paşinyan da may ayında Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazidə suverenliyini tanıdığını, bura Qarabağın da daxil olduğunu bildirib. Belə olan təqdirdə ermənilərin beynəlxalq hüquqdan danışması riyakarlıqdır.

Ermənilərin digər yalanı iyunun 28-də baş verən hadisələrə bağlıdır. Məsələ ondadır ki, rəsmi İrəvan Qarabağda ordusunun olmadığını iddia edir. Ancaq həmin gün məhv edilən yaraqlılardan ikisi Ermənistan vətəndaşı idi və onların meyitləri Laçın yolundakı sərhəd nəzarət-buraxılış məntəqəsindən keçirilməklə Beynəlxalq Qırmızı Xaç Komitəsinin avtomobilləri ilə İrəvana aparıldılar. Bununla bağlı internetdə videogörüntülər də var. Məlumata görə, onlar İrəvanda döyüşlərdə həlak olanların dəfn edildikləri Yerablur qəbiristanlığında torpağa gömülüblər.

***

Müraciət müəllifləri yalançı olduqları qədər hiyləgərdirlər. Onların Prezident V.Putin, bütün Rusiya xalqı və iqtidarı üçün həssas olan Böyük Vətən müharibəsi, faşizm-nasizm və neonasizm mövzusunda sui-istifadə etməyə çalışmaları bu hiyləgərliyin göstəricisi sayıla bilər. Bu məsələdə də onlar yalan danışıblar. Böyük Vətən müharibəsində Azərbaycan vətəndaşı olan 23 erməni əsilli şəxs Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Onlar təkcə Qarabağda yaşamayıblar. Bakıda, Gəncədə, Şamaxıda və digər bölgələrimizdə yaşayıblar. Üstəlik, onlar Azərbaycanın siyahısı ilə bu ada layiq görülüblər. Yəni, beynəlmiləl Sovet İttifaqında onların erməni kimliyi əsas məsələ deyildi. Qarabağdan 5 nəfərin marşal rütbəsinə layiq görülməsi iddiası isə nonsensdir. Azərbaycanda yaşayan ermənilərdən 3 nəfər marşal, 1 nəfər isə admiral rütbəsinə layiq görülüb. Onlardan biri də şəxsiyyəti ilə bağlı ziddiyyətli məlumatlar mövcud olan aviasiya marşalı Sergey Xudyakovdur (Armenak Xanferyants). Bu həmin Xudyakovdur ki, Mancuriyadan Moskvaya göndərilən bir təyyarə qızılın oğurlanmasında ittiham olunaraq 1945-ci ilin dekabrın 14-də Çitada həbs edilib. O, Moskvaya aparılıb dövlətə xəyanətdə ittiham olunub. Məhkəmə 1950-ci ilin aprelin 18-də Xudyakovu əmlakı müsadirə olunmaqla edam cəzasına məhkum edib və elə həmin gün güllələnib. İndi ermənilər V.Putini aldatmağa cəhd edə bilərlər, ancaq əminik ki, Rusiya Prezidenti köməkçilərindən bu barədə məlumat istəsə, həqiqətlər ona çatdırılacaq.

Neonasizm mövzusu da ruslar üçün çox həssasdır. Ancaq Rusiya rəhbərliyi onu da çox yaxşı bilir ki, müharibə illərində nasistlərə əlaltılıq edən Qaregin Njdeyə İrəvanın mərkəzində qranitdən heykəl məhz "qədim və sivil xalq" tərəfindən ucaldılıb.

Qarabağın "qədim erməni torpağı" olması iddiasına gəldikdə isə yalnız bir faktı qeyd etmək lazımdır. Ermənilərin Qarabağa köçürülməsini sübut edən tarixi mənbələrdən biri "Marağa–150" abidəsidir. Tərtər rayonunun Şıxarx qəsəbəsindəki "Marağa–150" abidəsi 1978-ci ildə ermənilərin özləri tərəfindən İran Marağasından Qarabağa köçürülmələrinin 150 illiyi ilə əlaqədar inşa edilib. XX əsrin sonlarında Ermənistanın torpaqlarımıza qarşı növbəti ərazi iddiaları başlayanda "Marağa–150" abidəsi ermənilər tərəfindən qəsdən dağıdılıb. Çünki bu abidə ermənilərin əzəli Azərbaycan torpağı olan Qarabağa köçürülməsinin sübutu idi. Bu baxımdan əminik ki, ermənilərin yalanlarla dolu daha bir müraciəti havada qalacaq. Qarabağla bağlı bütün məsələlər, burada baş verən hər şey Azərbaycanın daxili işidir və ona qarışmaq yolverilməzdir. Qarabağdakı, Ermənistandakı, Rusiyadakı, eləcə də dünyanın digər yerlərindəki bütün ermənilər bunu birdəfəlik yadda saxlamalıdırlar.

**Səxavət HƏMİD,**
**"Xalq qəzeti"**

### Ekspert rəyi

**Aydın QULİYEV,**
**politoloq**



– Azərbaycan 44 günlük Vətən müharibəsində dünya erməniçiliyinə, erməni separatizminə və lobbiçiliyinə elə zərbə vurub ki, onlar bu gün güclü hesab etdikləri dövlətlərin paytaxtlarında hər qapıya baş vurub ölkəmizin qələbəsinin təsirindən çıxmağa çalışırlar. Bugünlərdə Rusiyadakı erməni diaspor təşkilatlarının Vladimir Putinə etdiyi, başdan ayağa böhtan və iftiradan ibarət olan bəyanatına bu nöqteyi-nəzərdən yanaşmaq lazımdır. Eləcə də ABŞ-dakı erməni təşkilatları Prezident Co Baydenə müraciət ediblər. Ermənilərin bu iki dövlət başçısına ünvanladıqları müraciətlər mahiyyətcə və məzmunca oxşardır və sanki bir yerdə hazırlanıb. Sadəcə olaraq, sözlər və bəzi cümlələr fərqlidir. Hər iki halda Azərbaycanın 44 günlük müharibədə Ermənistana vurduğu zərbələrin təsirini zəiflətmək cəhdindən, ölkəmizin müharibədən sonra yaratdığı yeni reallıqların inkarından söhbət gedir. Bu müraciətlərdə söhbət erməni xalqının mənafeyindən getmir, təcavüzkar erməniçilik ideologiyasının maraqları çərçivəsində müəyyən hədəflərə nail olmaqdan gedir. Rusiyada və ABŞ-da erməni diasporu, erməni xalqının adından danışmaq istəyən dini konfessiyalar eyni yoldadırlar. Məqsədləri Azərbaycana böhtan atmaq və müharibədə uduzaraq bu gün Cənubi Qafqazda və dünyada ifşa olunmuş sifətlərini yenidən bərpa etmək, itirdikləri mövqeləri geri qaytarmaqdır. Ancaq bunların heç bir perspektivi yoxdur.

# "İrəvan hansısa güzəştlər qoparmağa çalışır"

## *Rusiyalı hərbi ekspert hesab edir ki, bu ənənə sülh danışıqlarının bütün raundlarında özünü göstərir*

**Caliber.Az saytı rusiyalı hərbi ekspert Aleksandr Xramçixindən Qarabağla bağlı sülh danışıqlarının dinamikası, nizamlama prosesində Moskva, Brüssel və Vaşinqton amilləri, son vaxtlar ermənilərin güclənən müharibə ritorikası ətrafında fikirlərini öyrənib. Müsahibənin icmalını oxuculara təqdim edirik.**



Azərbaycan–Ermənistan münasibətlərinin nizamlanmasına dair Moskvada, Brüsseldə və Vaşinqtonda aparılan son danışıqların nəticələrinə toxunan tanınmış hərbi ekspert Ermənistanın Qarabağı təhvil verməyə hazırlaşdığının aşkar göründüyünə diqqəti çəkir. Hazırda İrəvanın sadəcə olaraq, özü üçün hansısa minimal güzəştləri əldə etməyə çalışdığını söyləyən A.Xramçixinin qənaətinə görə, Ermənistan hakimiyyəti belə cəhdləri danışıqların aparıldığı hər üç platformada həyata keçirməyə çalışır və bu ənənə sülh dialoqunun istər Rusiya, istər Avropa, istərsə də Amerika raundunda müşahidə edilir.

"Sülh danışıqları əsas vasitəçilərin moderatorluğu altında aparılan zaman tərəfdaşlar, öz maraqlarına uyğun olaraq davranışlar sərgiləyirlər. Bütün hallarda Qərb bundan ötrü səy göstərəcək, Rusiya isə Ermənistanın özündən artığına çalışmayacaq. Yəni, əgər İrəvan Qarabağı təhvil verməyi qərarlaşdırıbsa, Moskva niyə görə buna mane olmalıdır?", – deyən hərbi ekspert konkret müddət barədə proqnoz verməkdən yayınsa da, güman edir ki, bu, mütləq şəkildə baş verəcək.

İrəvanın hələlik sülh dialoqunu məqsədyönlü şəkildə ləngitməyə çalışdığının şahidi olduğumuzu nəzərə çatdıran rusiyalı mütəxəssis Paşinyanın bir tərəfdən Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu açıq etiraf etdiyini, digər tərəfdən isə Bakını "Laçın yolunun blokadası" kimi mifik cinayətdə ittiham etdiyini deyir. Ekspert Ermənistan baş nazirinin bu barədə heç danışmamasının qəribə görünməsinə də eyham vurur.

O, müsahibəsində Ermənistanın İran və Hindistandan silah-sursat almasının daxili auditoriyaya hesablanması barədə suala belə aydınlıq gətirib: "Mənə elə gəlir ki, burada söhbət çoxlu və müasir silahların satın alınmasından getmir. Aydın məsələdir ki, 2020-ci ildə İkinci Qarabağ müharibəsindən sonra İrəvan iqtidarı kimi ordusu da çox acınacaqlı vəziyyətdədir. Onun düşdüyü məhz hərbi durumunu nəzərə alaraq deyirəm ki, yaranmış boşluğu müxtəlif silahları almaqla doldurmağa çalışır. Amma hazırda Ermənistanın hansısa revanş planlarından, müharibə istəyindən danışmağa dəyməz. Bu mövzuda söhbət sayıqlamadan başqa bir şey deyil".

Ermənistana Rusiya Federasiyasından da silah verilməsi ehtimalını istisna etməyən A.Xramçixin bunun nə dərəcədə real olduğunu belə açıqlayıb: "Çox güman ki, bu, reallığa yaxındır. Amma bundan ötrü müəyyən şərait və hansısa şərtlər uyğun gəlməlidir. Bu halda niyə də olmasın? Görünür, bu da Moskvanın İrəvana təsir imkanlarına hesablanacaq. Hərçənd, mən Rusiya və Ermənistan arasında qarşılıqlı münasibətlərin hazırkı durumunun təfsilatını bilmirəm. Bütün bunlar pərdə arxasında baş verir. Fikrimcə, Paşinyan hakimiyyətə gələndən sonra ikitərəfli münasibətlərdə müəyyən soyuqluq hökm sürür".

Rusiya–Ukrayna münaqişəsinə də toxunan hərbi ekspert hazırda bu müharibənin sonunun görünmədiyini, hələ uzun müddət davam edə biləcəyini də açıqlayıb. A.Xramçixin Birləşmiş Ştatların "Qoca qitə"nin özündən asılılığını daha da gücləndirməkdən ötrü Avropada yeni müharibə ocağını yaratmağa çalışdığı barədə fərziyyələrə belə aydınlıq gətirib:

"Avropanın ABŞ-dan asılılığı, mənim fikrimcə, artıq yüz faizlik həddi də keçib. İndi Vaşinqtona tükənməkdə olan imkanlarını yeni hansısa müharibə ilə sınağa çəkmək qətiyyən lazım deyil. Yaranmış mövcud durumda Avropanın özünü Birləşmiş Ştatların tamamilə vassalına çevirməsi ona kifayət edir".

Rusiyalı hərbi ekspertin həm də Ermənistanın revanşist qüvvələrinə xitabən dediyi sözlər Bakı üçün də əhəmiyyətlidir. Azərbaycanda İrəvanın Üçüncü Qarabağ savaşına girməyə cürət edəcəyinə inananlar azdır. Çünki Hayastanın həm siyasi, həm də hərbi rəhbərliyinin hazırkı durumu bunun tamamilə əksini diktə edir...

**Hazırladı:**
**İ.HƏSƏNQALA,**
**"Xalq qəzeti"**

# Kreml Azərbaycan rəhbərliyinin idmanın siyasiləşdirilməməsi ilə bağlı mövqeyini yüksək qiymətləndirir

**Moskva idmanın siyasiləşdirilməsinin yolverilməz olduğunu dəfələrlə bəyan edib və Azərbaycan rəhbərliyinin oxşar mövqeyini yüksək qiymətləndirir.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib.



"Biz Azərbaycan rəhbərliyinin mövqeyini yüksək qiymətləndiririk, bunu bölüşürük. Biz idmanın siyasiləşdirilməsinin yolverilməz olduğunu dəfələrlə bəyan etmişik", - deyə Kremlin sözçüsü bildirib.

Qeyd edək ki, Qoşulmama Hərəkatının Bakıda keçirilən nazirlər iclasında Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə hərəkata üzv ölkələrin 2024-cü ildə Parisdə keçiriləcək Olimpiya və Paraolimpiya oyunlarının siyasi neytrallıq şəraitində keçirilməsini gözlədikləri barədə Bəyannamə qəbul olunub.

# ABŞ Azərbaycan və Ermənistan arasında danışıqların davam etdirilməsini dəstəkləyir

**ABŞ Azərbaycan və Ermənistan arasında danışıqların davam etdirilməsini dəstəkləyir. Bunu ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller brifinqdə deyib.**



"Biz razılaşmanın əldə olunmasının mümkünlüyünə hələ də inanırıq və gələcək danışıqları səbirsizliklə gözləyirik", – deyə Metyu Miller bildirib.

Danışıqların davam etdirilməsi üçün qarşıdakı aylarda Vaşinqtonun mövqeyinin nədən ibarət olacaq sualına isə Miller "bu barədə heç nə deyə bilmərəm" cavabını verib.

# Ulu öndərin Üzeyir bəy dühasına sonsuz məhəbbəti



**Azərbaycan mədəniyyətinin yorulmaz himayədarı olan ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə bu sahənin inkişafını mühüm vəzifə saymış və diqqətdə saxlamışdır. Ulu öndərin bu barədə söylədiyi qanadlı fikirlər mədəniyyət sahəsində çalışan hər kəsin ürəyindən xəbər verir: “Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir”.**

Xalqın böyük sərvəti olan mənəvi dəyərləri yeni nəslə və bütün cəmiyyətə daha dərindən və əzmlə aşılamaq amalı Azərbaycan dövlətçiliyində prioritet hesab edilən məsələdir. Biz o nəsillərik ki, Heydər Əliyevlə eyni bir epoxada yaşamaq xoşbəxtliyi qismətimizə düşüb və ümummilli liderin mədəniyyətimizə, incəsənətimizə göstərdiyi böyük qayğının canlı şahidi olmuşuq. Həqiqətən də, mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyev qayğısından gen-bol bəhrələnməsin. Musiqimiz də, teatrımız da, kino sənətimiz də, heykəltaraşlıq və rəssamlığımız da, xalçaçılığımz da ulu öndərin çox dəyərli ideyalarından bəhrələnib.

Zəngin milli mədəni irsimizə böyük məhəbbət bəsləyən və onun təbliğini vacib sayan Heydər Əliyevin mədəniyyətimizin qızıl sütunu, Şərqdə ilk operanın müəllifi kimi tanınan dahi bəstəkar, musiqişünas, publisist, dramaturq, filosof, pedaqoq, alim, akademik, ictimai xadim Üzeyir bəy Hacıbəyliyə xüsusi sevgisi və rəğbəti vardı.

Ulu öndər dahi bəstəkarın şəxsiyyətinə çox yüksək qiymət verib: “Üzeyir Hacıbəyov fövqəladə fitri istedadı, böyük fədakarlığı, mükəmməl təhsili, elmi, vətənpərvərliyi, ictimai-siyasi fəaliyyəti ilə xalqımızın böyük şəxsiyyətlərindən biri olmuş, dünya korifeylərinin ön sırasında duran, Azərbaycanı təmsil edən görkəmli şəxsiyyət olmuşdur”.

Ümummilli lider mədəniyyət və incəsənətlə, mətbuatla bağlı çıxışlarında, bir qayda olaraq, Ü.Hacıbəylinin adını çəkər, ondan sitatlar gətirərdi. Hətta, ulu öndər tərəfindən 18 iyun 2001-ci il tarixli “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” imzalanmış fərmanda da ana dilinin qorunmasında, tədrisində, inkişafında xüsusi xidmətləri olan qabaqcıl maarifçilər, ziyalılar arasında Üzeyir bəy Hacıbəylinin adı iki dəfə çəkilmişdir. Fərmanın preambula hissəsində deyilir: “Ana dilinin taleyinə heç bir ziyalının laqeyd qalmadığı bu dövrdə Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Üzeyir Hacıbəyov, Ömər Faiq Nemanzadə kimi görkəmli söz ustaları Azərbaycan dilinin saflığı və onun yad ünsürlərdən qorunması uğrunda fədakarcasına mübarizə aparırdılar”.

Fenomenal yaddaşı sayəsində Azərbaycan mədəniyyəti və incəsənəti tarixini dərindən bilən, onun inkişafına çalışan böyük dövlət xadimi Heydər Əliyev keçən əsrin 70-ci illərindən başlayaraq Bakıda, həmçinin digər şəhərlərdə görkəmli sənətkarların, dahi şəxsiyyətlərin ev-muzeylərinin açılması barədə göstərişlər vermişdir.

Böyük Üzeyir bəyin ev-muzeyinin açılması da məhz həmin dövrə təsadüf etmişdir. Bu məbədin yaranması ümummilli liderin adı ilə bağlıdır. Doğrudur, bəstəkar vəfat etdikdən üç ay sonra Azərbaycan hökuməti Üzeyir bəy Hacıbəylinin adının əbədiləşdirilməsi ilə əlaqədar, 16 fevral 1949-cu ildə xüsusi qərar qəbul etmişdir. Orada bir çox dəyərli müddəalarla yanaşı, böyük sənətkarın Şuşada və Bakıda ev-muzeylərinin yaradılmasına da yer ayrılmışdır. 1959-cu ildə Şuşada Ü.Hacıbəylinin ev-muzeyi açılmışdır. Bakıda isə bu məsələ düz 26 il həyata keçməmiş qalmışdı. Bəzi ixtiyar sahibi olan məmurlar deyirdilər ki, “ölülər gözləyərlər, bu məsələlər çox da vacib deyildir” və s. Ona görə də Ü.Hacıbəylinin ev-muzeyi təşkil olunmurdu.

Nəhayət, böyük öndər Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə bu məsələ reallaşdı. Onun tapşırığı və yaxından köməyi sayəsində 1949-cu il qərarının bu maddəsinin yerinə yetirilməsi baş tutdu. 20 noyabr 1975-ci ildə Bakıda Üzeyir bəyin 27 il (1915-1942) yaşadığı evini muzeyə çevirmək mümkün oldu. Bu barədə Heydər Əliyev 1995-ci ilin sentyabrında dahi sənətkar Üzeyir bəy Hacıbəylinin anadan olmasının 110 illik yubileyindəki çox dəyərli məruzəsində belə demişdir: “1975-ci ildə biz Üzeyir Hacıbəyovun 90 illik yubileyini hazırladıq, təntənə ilə həm Azərbaycanda, o vaxt imkan dairəsində Sovet İttifaqının həm paytaxtında, başqa respublikalarda, dünyada qeyd edə bildik. Azərbaycanda, Bakıda mədəniyyət xadimlərindən ilk dəfə Üzeyir Hacıbəyovun yaşadığı ev onun ev-muzeyinə çevrildi.

1975-ci ildə, 20 il bundan əvvəl Üzeyir Hacıbəyovun ev-muzeyi açıldı. Biz hamımız çox məmnunuq ki, bu ev-muzeyi 20 ildir Azərbaycan xalqının, mədəniyyətinin inkişafına, yüksəlməsinə xidmət edir. Yaranan gündən indiyədək bu muzeyə Üzeyir Hacıbəyovun yaxın silahdaşı Ramazan Xəlilov rəhbərlik edir, böyük xidmətlərinə görə mən onun Azərbaycanın yüksək ordeni – “Şöhrət” ordeni ilə təltif olunması haqqında fərman imzaladım.

Ramazan Xəlilov çox xoşbəxt adamdır. 95 yaşı var, bu gün də fəaliyyətdədir. O, Üzeyir Hacıbəyovla çiyin-çiyinə gedib, bizim üçün onun nişanəsidir. Ona görə də o, bizim üçün əzizdir və xoşbəxtlik də ondan ibarətdir ki, o, bu gün də yaşayır. Güman edirəm ki, biz onun 100 illiyini də qeyd edəcəyik”.

1975-ci ildə böyük dövlət xadimi Heydər Əliyev özü şəxsən muzeyin açılışında iştirak etmiş və demişdir ki, muzey Üzeyir Hacıbəyov kimi dahi sənətkar üçün çox darısqaldır, onu qonşu evlərin hesabına genişləndirmək lazımdır. Ulu öndərin uzaqgörənliklə söylədiyi bu fikirlər 1985-ci ildə dahi bəstəkarın 100 illik yubileyində gerçəkləşdi. Heydər Əliyev tərəfindən direktor təyin edilmiş, Üzeyir bəyin qohumu Ramazan Xəlilovun yorulmaz səyi nəticəsində muzeyə bitişik binalardan on ailəyə təzə evlər verildi və onlar oradan köçürülməklə əvvəlki mənzilləri muzeyə əlavə olundu.

Yeri gəlmişkən onu da deyək ki, sonuncu dəfə 1985-ci ildə əsaslı təmir olunmuş muzeyə 2005-ci ilə qədər əl vurulmadı. 2004-cü ilin payızında mən muzeyin direktoru vəzifəsində çalışdığım zaman, Heydər Əliyev ənənələrini layiqincə davam etdirən möhtərəm Prezidentimiz İlham Əliyevə televiziya vasitəsilə müraciət etdim. Təklifim cavabsız qalmadı. Az sonra – 28 fevral 2005-ci ildə dövlətimizin başçısı İlham Əliyev Üzeyir bəy Hacıbəylinin ev-muzeyinin əsaslı təmir edilməsi ilə bağlı xüsusi sərəncam imzaladı. Ömrünün 25 ildən çoxunu bu muzeydə çalışmış bir ziyalı kimi sevinirəm ki, cənab İlham Əliyev tərəfindən həmin sərəncam imzalandı. Vaxtilə Heydər Əliyevin yaxından köməkliyi ilə təşkil edilmiş Üzeyir Hacıbəylinin ev-muzeyi məhz İlham Əliyevin sayəsində əsaslı təmir olundu.



Ümummilli lider Heydər Əliyev Üzeyir bəy Hacıbəyli fenomenini qiymətləndirə bilən əsl dövlət xadimi idi. O, mədəniyyətlə, incəsənətlə, hətta ədəbiyyat və publisistika ilə bağlı çıxışlarında dahi Üzeyir bəyi xatırlayır, ona istinad edir, bütün sahələrdə onun dahi olduğunu dönə-dönə vurğulayırdı.

Böyük öndərin Ü.Hacıbəylinin anadan olmasının 110 illik yubileyinə həsr edilmiş tədbirdə dahi sənətkar haqqında söylədiyi məruzəsi bu gün də yaddaşlarda yaşayır. Bənzərsiz natiqlik məharəti olan Heydər Əliyev həmin məruzəsində Üzeyir bəyin həyat və fəaliyyətini o qədər gözəl təhlil etdi ki, tanınmış musiqişünas alimlər belə heyranlıqlarını gizlətmədilər. O, dahi sənətkarın həm publisistikasından, həm dramaturgiyasından, həm pedaqoji fəaliyyətindən, həm alimlik məharətindən, həm Azərbaycan ictimai-siyasi həyatındakı xidmətlərindən, həm də ictimai xadim kimi gördüyü işlərdən dolğun məlumat verərək, hər kəsi valeh etdi.

Heydər Əliyev məruzədə Ü.Hacıbəylinin opera, operetta və digər musiqi əsərlərindən ətraflı bəhs edərək, onun üç hakimiyyət – çar Rusiyası dövrü, Azərbaycan Xalq Cümhuriyyəti dövrü və Azərbaycanda sovet hakimiyyəti dövründə yaşadığını, amma bütün bunlara baxmayaraq, milli ruhunun heç bir təsirə məruz qalmadığını qeyd etmiş, bəstəkarın böyük vətənpərvər olduğunu xüsusi vurğulamışdır: “Üzeyir Hacıbəyovun yaradıcılığı həmişə insanları vətənpərvərliyə dəvət edir. Biz bu gün də Üzeyir bəy Hacıbəyovun xatirəsini yad ediriksə, onun yaradıcılığını bir daha yüksək qiymətləndiririksə, bu yaradıcılığın ən yüksək nöqtəsi olan vətənpərvərlik hisslərini özümüzdə daha da artırmalıyıq, daha da inkişaf etdirməliyik. Özümüzü bu hissiyyatlarla gələcəyə hazırlamalıyıq ”.

Ümummilli liderimiz Heydər Əliyev, həmçinin 1995-ci ildə, Üzeyir bəy Hacıbəylinin anadan olmasının 110 illik yubileyi günlərində “Üzeyir Musiqi Günü”nün təsis edilməsi haqqında xüsusi fərman imzalamışdır. Fərmanda deyilir: “Dahi Azərbaycan bəstəkarı, Azərbaycan milli operasının banisi, böyük musiqişünas-alim, publisist və pedaqoq Üzeyir Hacıbəyovun Azərbaycan musiqi sənətinin inkişafında misilsiz xidmətlərini nəzərə alaraq, böyük sənətkara xalq ehtiramını və məhəbbətini təcəssüm etdirmək məqsədilə qərara alıram:

1. Hər il sentyabr ayının 18-də Üzeyir Musiqi Günü keçirilsin; 2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə tapşırılsın ki, hər il sentyabr ayının 18-də Üzeyir Musiqi Gününün keçirilməsini təmin etsin”.

Bir neçə kəlmə də Qarabağın erməni işğalı altında olduğu 30 il ərzində Şuşada eksponatları talan edilmiş, binası isə dağıdılmış Üzeyir Hacıbəylinin ev-muzeyi barədə danışmaq istərdim. Şuşa işğaldan azad edildikdən sonra digər mədəniyyət abidələr kimi, həmin muzeydə də Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir işlərinə başlanıb. 2021-ci il sentyabrın 18-də uzun illərdən sonra ilk dəfə Milli Musiqi Günü çərçivəsində Şuşada görkəmli bəstəkara həsr olunmuş növbəti Beynəlxalq Musiqi Festivalının konserti gerçəkləşib. Bəstəkar övladının ölməz musiqiləri üçün çox darıxmış azad Şuşada Azərbaycan professional musiqisinin banisinin əsərləri yenidən səsləndirilib. Şuşanın dağlarından Üzeyir musiqisinin sədaları hər tərəfə yayılıb.

İnanırıq ki, ulu öndərin hər zaman yüksək dəyər verdiyi milli musiqi irsimizə böyük qədirbilənlik, Üzeyir Hacıbəyli sənətinə sonsuz məhəbbət sayəsində dahi bəstəkarın ecazkar musiqisi daim eşidiləcək və dinləyicilərə zövq verəcək.

**Səadət QARABAĞLI,**
**üzeyirbəyşünas**

# Ümummilli liderin hakimiyyətə qayıdışından sonra ölkəmiz tam müstəqil oldu





**ADA Universitetində “Ümummilli lider Heydər Əliyev və Azərbaycanın xarici siyasəti” mövzusunda konfrans keçirildi.**

Tədbirin açılışında ADA Universitetinin rektoru Hafiz Paşayev iştirakçıları salamlayıb, konfransın işinə uğurlar arzulayıb.

Xarici işlər naziri Ceyhun Bayramov bildirib ki, müstəqil xarici siyasət hər bir dövlətin əsas atributlarından biridir. Bütün digər sahələrdə olduğu kimi, ölkəmizin xarici siyasət kursunun əsasının qoyulması da ulu öndərin adı ilə bağlıdır.

Nazir, həmçinin qeyd edib ki, ümummilli lider hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq, müxtəlif ölkələrin Qafqaz və xüsusilə Azərbaycan ilə bağlı maraqlarını, bu bölgədə ambisiyalarını nəzərə alaraq çevik manevrlər və xüsusi taktiki gedişlər etdi. Ulu öndərin uğurlu xarici siyasət kursu nəticəsində xüsusilə keçmiş Ermənistan–Azərbaycan münaqişəsi ilə bağlı işğalçı tərəfə beynəlxalq təzyiqin gücləndirilməsi kimi məsələ həllini tapmışdı.

“Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin beynəlxalq nüfuzu daha da artmaqdadır. Azərbaycanın postmünaqişə dövründə regionda sülh səyləri xarici siyasət xəttimizdə yeni dövrün başlanğıcının göstəricisidir. İşğaldan azad edilmiş torpaqlarımız bu gün dövlətimizin başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın fəal iştirakı ilə yenidən dirçəlir. Üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarımızda qürurla dalğalanır”, – deyə nazir diqqətə çatdırıb.

Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev ulu öndər Heydər Əliyevin xarici siyasət sahəsindəki böyük xidmətlərindən bəhs edib.

Hikmət Hacıyev bildirib ki, 1987-1990-cı illərdə ulu öndərə qarşı repressiyalar dövrü idi. Həmin dövrü təhlil etdikdə məlum olur ki, nəinki ümummilli ideri siyasi məkandan silmək, hətta onun fiziki cəhətdən məhv edilməsi istiqamətində məqsədli siyasət aparılırdı.

“Tarixçilər öz araşdırmalarında diqqət etməlidirlər ki, biz bəzən ermənilərin Azərbaycana qarşı ərazi iddiaları kontekstində yalnız Qarabağ mövzusuna baxırıq. Amma sənədlərə nəzər yetirdikdə tam aydın olur ki, təkcə Qarabağ yox, Naxçıvan Muxtar Respublikasının da Ermənistana birləşdirilməsi, həmin zonanın Şərqi Ermənistan kimi təsvir edilməsi prosesi var idi. Ulu öndərin Naxçıvana gəlməsi ilə onların bu istəyi də baş tutmadı. Ulu öndər Naxçıvanı Qarabağın aqibətini yaşamaqdan xilas etdi. 1993-cü ilə qədər Azərbaycanı tam şəkildə müstəqil hesab etmək olmazdı. Yalnız 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkəmiz tam müstəqil oldu”, – deyə Hikmət Hacıyev vurğulayıb.

Konfrans işini panel müzakirələri ilə davam etdirib.

***“Xalq qəzeti”***

**“Ulu öndər Heydər Əliyevin irsinə həsr olunmuş kitabların nəşri” beynəlxalq layihəsi çərçivəsində işıq üzü görmüş “Heydər Əliyevin həyatının 100 anı” kitabı (100 moments of Heydar Aliyevs life) iyulun 12-də İstanbulda, sonra isə Paris və Cenevrə şəhərlərində geniş ictimaiyyətə təqdim olunacaq.**

# “Heydər Əliyevin həyatının 100 anı”




Qeyd edək ki, ümumilikdə, 553 səhifədən ibarət olan “Heydər Əliyevin həyatının 100 anı” kitabı Azərbaycanın xilaskar oğlunu ümummilli lider zirvəsinə ucaldan real işlərini, gərgin əməyini, yüksək insani keyfiyyətlərini, Vətəninə və xalqına bağlılığını özündə ehtiva edir.

Azərbaycan və ingilis dillərində hazırlanaraq nadir üslubda nəfis tərtib olunan rəngli nəşrin əvvəlində Azərbaycanda 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Prezident Sərəncamının mətni iki dildə yerləşdirilib. Mündəricat, ön söz, giriş və ədəbiyyat bölmələrindən ibarət nəşrdəki məqalələr və nadir fotolar ümummilli liderin xalq, Vətən, ölkə və dövlət qarşısındakı misilsiz xidmətlərini tərənnüm edir. Nəşrdəki materiallar ulu öndərin bəşəri prinsipləri barədə oxucuda real fikir formalaşdırır.

***“Xalq qəzeti”***

# “Sahar TV”nin teoloji-ideoloji zəhəri

## Yaxud Azərbaycan–İran münasibətlərinə vurulan namərd zərbəsi

**İranda dini-ideoloji dəyərlərin “alovlu təbliğatçısı” rolunda çıxış edən “Sahar” telekanalı öz efirindən pozuculuq fəaliyyəti üçün gen-bol istifadə edir. Azərbaycan cəmiyyətində inanca və dövlətçiliyə qarşı yad təmayülləri yaymağı və formalaşdırmağı hədəfləyən bu “şər mikrofonu” iki qonşu xalq və dövlət arasında nifaq salmaq istəyir. Hər zaman olduğu kimi, vətəndaşlarımızı mövcud quruluşa qarşı qaldırmaq “niyyəti” güdür.**

Bəli, 1992-ci ildə fəaliyyətə başlamış “Sahar TV” son vaxtlar bütün hədləri aşaraq, ölkəmizə münasibətdə aşağılayıcı ritorika ilə müşayiət olunan təxribatlarını daha da genişləndirib. Onun verilişlərini izləyəndə tamaşaçıda elə təsəvvür yaranır ki, bu televiziya kanalı Azərbaycanın müstəqilliyinə düşmən kəsilib. Telekanal Vətənimizdə baş verən müsbət dəyişiklikləri həzm edə bilmir. Ölkəmizin dönməz inkişaf və tərəqqi yoluna qədəm qoyması, beynəlxalq müstəvidə söz sahibinə çevrilməsi, sanki, kal armud kimi ilişib qalıb boğazında. “Sahar”in Azərbaycana münasibətdə mənşəyi və səbəbi bəlli qısqanclıqları, xüsusən, 44 günlük müharibədəki Zəfərimizdən sonra daha da çoxalıb. Dövlətimizin ünvanına saxta ittihamları, yalanları, şər-böhtan dolu hədyanları sıralamaqdadır.

Müstəqillik illərində Tehranla Bakı arasında münasibətlərin normal məcrada getdiyi, nisbətən soyuduğu və bəzi səbəblərdən diplomatik münaqişə həddinə çatdığı zamanlar olub. Amma bütün bu trayektoriyanın media orqanına, böyük ölçüdə aidiyyatı yoxmuş kimi görünür. Telekanal ənənəvi “ampluasındadır”. Yəni, “Sahar TV” ideoloji zəhər saçmağındadır. Bununla bağlı misallar yetərincədir.

### Barışığa pəl vuran mikrofon

Çox uzağa getmədən bir faktın üzərində dayanaq. Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının iclasında iştirak etmək üçün Bakıya gəlmiş İranın Xarici işlər naziri Hüseyn Əmir Abdullahianı qəbul edərək, onunla bir saatdan artıq söhbət apardı. İki ölkə arasındakı gərginlik doğurmuş mövzuların səmimi şəkildə müzakirə olunduğu görüşdə, Azərbaycanın Tehrandakı səfirliyinə qarşı törədilmiş terror aktının İranın məhkəmə və hüquq-mühafizə orqanları tərəfindən çox ciddi şəkildə araşdırıldığını deyən nazir ali diplomatik missiyamızın fəaliyyətinin tezliklə bərpa olunacağına ümid bəslədiyini bildirdi.

Dövlətimizin başçısı da, öz növbəsində, terror aktında müqəssir şəxslərin layiqli cəza alacaqlarına inandığını vurğuladı. Jurnalistlərə açıqlamasında məmnunluğunu ifadə edən cənab Abdullahian iki ölkənin aidiyyəti nümayəndə heyətlərinin yaxın vaxtlara planlaşdırılan təmasını da müsbət hal kimi qiymətləndirdi.

“İranın iki ölkə arasında fikir ayrılıqlarını aradan qaldırmaq üçün ciddi addım atmaq niyyətini görürük və hiss edirik. Belə olan təqdirdə, Azərbaycan tərəfi də adekvat addımlar atacaq”. Bunu isə Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov deyib. Ümumən, xoş mərama söykənmiş, qarşılıqlı etimadın, eləcə də iki ölkə arasında soyumuş diplomatik münasibətlərin bərpasının müjdələndiyi bu mənzərəni Azərbaycanın aparıcı media qurumları səxavətlə tirajladılar. Bəs, “Sahar TV” nə etdi?

Təsəvvür edin ki, yüksək səviyyəli görüşdən cəmi üç gün sonra – iyulun 8-də “Axşam rubrikaları”nın efirindən oxuduğu xəbəri “Nazim Bəydəmirlinin həbsi vicdan üzərinə növbəti hücumdur” başlığı ilə anonslayan aparıcı şərhçi qonaqla canlı əlaqə qurur. Özünü siyasi ekspert sayan neobolşevik xislətli Qəhrəman Nurani adlı biri mövzuya dair açıqlamasında Azərbaycan hakimiyyətinin, Qafqaz Müsəlmanları İdarəsinin ünvanına şər-böhtan yağdırır. Heç bir məntiqə və əndazəyə sığmayan ibarələrdən istifadə edən psevdo-ekspert çıxışında faktlara deyil, şəxsi mülahizələrinə, təxəyyülünə “istinad” edir, Azərbaycanı təhlükə mənbəyi kimi göstərməyə çalışır.

Bəli, “Sahar”çıların təfəkkürlərininin mücərrəd güşəsini ölkəmizə qarşı qəzəb və hiddət zəbt edib. Onlar üçün müstəqil Azərbaycan “təxribatçı” ölkədir. Dünyanın dörd tərəfində yaşayan 50 milyonluq xalqımız bu psevdomedia qurumunun gözünə qorxunc qüvvə kimi görünür. Bəsit və “kustar” studiyasından Azərbaycan tamaşaçısına ünvanladığı böhtan və həqarət dolu xəbərləri, ölkəmizlə bağlı açıq düşmənçilik təbliğatı məhz həmin “potensial təhlükənin” yaratdığı xofdan qaynaqlanır.

İctimai şüurda şübhə toxumları səpməyi hədəfləyən “Sahar TV”nin “Səhər sabahları”, “Axşam rubrikaları” xəbər buraxılışlarında, “KOMPAS” “dəyirmi masa” söhbətlərində ölkəmizə və xalqımıza qarşı səslənən tezislərin, milli kimliyimizi aşağılayan hədyanların haradan qaynaqlandığını güman etmək çətin deyil. Təlimatlarını ağalarından alan telekanalın zombiləşmiş aparıcılarının, proqrama dəvət olunan, onlayn qoşulan ekspertlərin suveren Azərbaycanın ünvanına üfürdükləri bəzi “teoloji-ideoloji nümunələri” diqqətə çatdıraq.

### Ekspert hansı bağlardan danışdığının fərqində deyil

“Axşam rubrikaları” (4 iyul 2023-cü il. Xəbər proqramının adı belə savadsızlığın, efir dilinə diletant yanaşmanın göstəricisidir - İ.B.) buraxılışının aparıcısı Azərbaycan mətbuatından bir xəbəri iqtibas edir: “Bakıda İrana casusluq edən şəxs saxlanılıb”. Onun səsinə studiyaya canlı bağlanan həmin Qəhrəman Nurani bu cür hay verir: “Azərbaycanda müsəlman birliyi hərəkatı kimi sağlam qüvvələr hədəfə alınıb. Məqsəd cəmiyyətdə İran İslam Respublikasına olan rəğbəti söndürmək və şiəlik amilinə son qoymaqdır. Halbuki, bu məzhəb Azərbaycan xalqının qanındadır. İrana, sağlam düşüncəli insanlara qarşı böhtan xarakterli kampaniyaya rəvac verilərsə, bu, bir o qədər əks-effektə səbəb olacaqdır. Yəni, insanların dinə, əhli-beytə olan eşqi və rəğbəti artacaqdır. Eyni zamanda, İranla dərin tarixi, dini, mədəni bağlar da güclənəcəkdir. Bu bağları qırmaq, sadəcə olaraq, mümkün deyil...”

İslamın dünyəvi və ülvi dəyərlərini, saf əxlaqi mahiyyətini deyil, ayrı-seçkiliyi, məzhəbçiliyi təbliğ edən telekanal bununla bir milyarddan çox müsəlmanın, o cümlədən Azərbaycan türklərinin dini heysiyyatı ilə oynamağı qarşısına məqsəd qoyub. Müsəlmanlar arasında təfriqəçilik, bölücülük toxumları səpməyə xidmət edən “Sahar”ın başabəla eksperti çıxışında suveren Azərbaycan vətəndaşlarının İrana rəğbətindən dəm vurur. Əlbəttə, o bu rəğbətin ünvanının güneyli soydaşlarımız olduğunu çox gözəl bilir.

Bəli, onun dediyi dərin tarixi, dini, mədəni bağlar bizi hansısa rejimlə yox, məhz Arazın o tayındakı qan qardaşlarımızla bir-birimizə bağlayır. İrana casusluq ittihamı ilə həbs edilən şəxslərə gəldikdə isə onların kamera qarşısında acı və miskin etiraflarını, yəqin, ağayi Nuraninin özü də izləyib. Heç şübhəsiz, təlimatlandırılmış ekspertin məlum casus şəbəkəsinin dini-siyasi pozuculuq fəaliyyəti barədə müvafiq dövlət qurumlarımızın fakt və sübutlara söykənmiş rəsmi açıqlamalarından da xəbəri var.

### Qucaqlaşmaq üçün səmimiyyət

“İshaq Hersoqun Bakıya səfərindən sonra sionistlərlə bazarlığın fəsadları hər gün bir şəkildə üzə çıxır. İsrail Prezidenti Bakıdan gedəndən sonra bir sıra tapşırıqlar verib. Azərbaycan XİN iranofobiya ruhlu bəyanat səsləndirib”. Bu hədyanı “Sahar TV”nin “Kompas” verilişinin (26 iyun 2023-cü il tarixli yayım) qonağı olan İranın Azərbaycandakı sabiq səfiri Möhsün Pakayin deyib. Rəsmi Bakının təkcə bölgədə deyil, Qərblə, dünya ölkələri ilə münasibətlərdə tam müstəqil siyasət yeritdiyini, beynəlxalq qurumlarda söz sahibi olduğunu kim bilməsə də, sabiq səfir yaxşı bilməlidir.

Suveren respublikamızın İsraillə qarşılıqlı əməkdaşlığına, Təl-Əvivdə səfirliyimizin açılmasına, eləcə də Prezident İshaq Hersoqun ölkəmizə rəsmi səfərinə aşkar qıcıq nümayiş etdirən telekanalın aparıcısı isə Bakını hədələməkdən belə çəkinmir: “Azərbaycanı İslam Əməkdaşlıq Təşkilatından çıxarmaq, ya da üzvlüyünü dayandırmaq lazımdır”.

Bəli, Azərbaycan hökuməti vətəndaşlarımızı zərurət olmadığı təqdirdə İrana getməkdən çəkinməyə çağırıb. Deməli, ortada vətəndaşlarımızın təhlükəsizliyi ilə bağlı narahatlıq doğuran məqamlar var və bunu iranofobiya kimi qələmə vermək sağlam məntiqlə bir araya sığmır. Məgər hər bir dövlətin vəzifəsi – istər daxildə olsun, istərsə də xaricdə – vətəndaşının təhlükəsizliyini təmin etmək deyilmi?

Amma sabiq səfir Pakayinin son vaxtlar İran–Azərbaycan münasibətlərində yaranmış soyuqluğu isitməkdən ötrü “Sahar TV”nin efirindən irəli sürdüyü “diplomatik” təklif maraqlıdır: “Son otuz ildə yolumuz bəzən yumşaq, bəzən sərt olsa da, sonda qucaqlaşmışıq. Düşünürəm ki, indi də belə olacaq”.

Gözəl arzudur, yaxşı təklifdir. Amma qucaq açıb bağrına basmaq üçün ortada həqiqətə sədaqət və səmimiyyət olmalıdır. Biz bu məqamı hər zaman düşünmüşük, buna can atmışıq, ərazi bütövlüyünü təmin etmişik, vətəndaşlarımızın qayğısına qalmışıq. Eyni zamanda, ummuşuq. Amma...

### Səbr çox müşküllərin açarıdır

Məzhəbindən asılı olmayaraq, müsəlmanların məsciddə bir yerdə vəhdət namazını qıldıqları Azərbaycan Respublikası tolerantlığın nümunə göstərildiyi ölkə adını əbəs yerə qazanmayıb. Möhkəm tarixi köklərə, milli ənənəyə söykənən bu ilahi həmrəyliyi “Sahar TV” kimi dini-ekstremist media “feyk-mikrofonu” heç vaxt poza bilməz. Onun dövlətçiliyimizə və milli kimliyimizə qarşı apardığı təbliğatın heç bir təsiri olmayacaq, eləcə də təkcə biz azərbaycanlıların deyil, dünya müsəlmanlarının inancına vurmaq istədiyi məzhəbçilik yamağı qəti yapışmayacaq. İslami dəyərlərdən danışan bu telekanalın cəmiyyət daxilində dini nifaq salmaq, məzhəb qarşıdurması yaratmaq cəhdləri də fiaskoya uğrayacaq. O səbəbdən ki, biz halallıq məbədi sandığımız ədalətə sığınan, səmimi qəlbdən sitayiş etdiyimiz Haqqa tapınan millətik. Bizim daim qoruduğumuz və riayət etdiyimiz bu sakral dəyərlər nəinki yamaq, heç cüzi ləkə də götürməz.

Məram və məqsədi bir çox hallarda rəsmi Tehranın mövqeyi ilə tərs-mütənasib gələn telekanalın Azərbaycana qarşı kin-küdurəti heç bir sərhəd tanımır, püsgürdüyü yalanlar, hədyanlar, yersiz və məqamsız siyasi təşbihlər, ironiyalı bənzətmə və müqayisələr sadəcə ürək bulandırır. Onun efirdən ictimai rəyə sırımağa çalışdığı bəd niyyətlərin heç bir nəticəsi olmayacaq. Çünki Azərbaycan Respublikasının xarici siyasətində İran İslam Respublikası ilə münasibətlər hər zaman prioritet istiqamətlərdən olub.

Əvvəldə vurğuladığımız kimi, zaman-zaman Bakı-Tehran əlaqələrində anlaşılmazlıq və fikir ayrılıqları baş versə də, tərəflər müvafiq fəaliyyətlə qarşılıqlı əməkdaşlığı kifayət qədər yüksək səviyyədə saxlamağı bacarıblar. Bu gün də növbəti sınaq dövrünü yaşayan Azərbaycan – İran münasibətlərinin tezliklə arzuedilən səviyyəyə çatacağına da münbit zəmin və inam var. “Sahar”ın məqsədi bu inamı sarsıtmaqdırsa, güman edirik ki, məsələyə İran hakimiyyəti də reaksiya verməlidir...

### Bu ideologiyanın Azərbaycanda zəmini yoxdur

İki qonşu ölkə və xalq arasında “Sahar TV”nin həqiqi İslamdan uzaq, təxribatçı təbliğatının fəsadlarının, bu elektron tribunadan ictimai şüura səpilən ədavət toxumlarının təmizlənməsi üçün, şübhəsiz, müəyyən vaxt tələb olunacaq. Qənaətimiz budur ki, bu “qılaflı mikrofon” özünün ictimai rəyi manipulyasiyaya yönəlik, orta əsrlər dini düşüncəli teoloji-ideoloji küfr informasiya siyasəti ilə Azərbaycana qarşı planlı təxribatlarını həyata keçirməkdən ötrü bundan sonra da fürsət axtarışında olacaq. Fəqət, onun “lümpen proletariata”, sıravi möminlərə hesablanmış ideoloji pozuculuq info-ritorikası Azərbaycan cəmiyyətində, heç bir halda, öz inikasını tapmayacaq, yalnız əks-təsirə səbəb olacaq. Ona görə ki, siyasi avantüristlərin, “ura-patriotların” son sığınacaq yeri demokratiya olduğu kimi, reallığı deformasiyaya uğratmağa çalışanların arsenala aldığı vasitə də dezinformasiya, şər-böhtandır, primitiv söz oyunudur.

“Sahar TV”nin, əslində, “vicdansızlıq üzərindən hücum” xarakteri daşıyan xəbərçilik “siyasətini” iki qonşu ölkənin yumşalmağa doğru yön alan münasibətlərinə arxadan vurulan namərd zərbəsi kimi dəyərləndirmək lazımdır. Azərbaycanın xüsusi xidmət və hüquq-mühafizə orqanlarının ayıq-sayıqlığı sayəsində casus şəbəkəsi üzvlərinin, narkoticarətlə məşğul olan cinayətkarların ifşasına və həbsinə dini rəng qatmağa çalışan telekanalın efirdən çilədiyi zəhər sonda özlərinin tuluğuna düşəcək. Dinimizdə qınanılan yalanın, bəd niyyətin aqibəti məhz bu cür olmalıdır.

Müqəddəs kitabımız “Qurani-Kərim”in ayələrində insanlar Yer üzündə mərhəmətin, şəfqətin, səmimi münasibətin və sülhün yarana və yaşaya biləcəyi model olaraq məhz İslam əxlaqına çağırılır. “Əl-Bəqərə” surəsinin 208-ci ayəsində Allah-taala belə buyurmuşdur: “Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (İslama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq düşməninizdir!”

Azərbaycan öz yolunu seçib. Bu yol Rəbbimizin buyurduğu düzgün və halal yoldur. Bu yolda bizimlə yanaşı addımlayan hər kəslə dost və qardaşıq!

*İmran BƏDİRXANLI,*
*“Xalq qəzeti”*

# Prezidentin köməkçisi Türkiyə səfiri ilə regional məsələləri müzakirə edib

**Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ilə görüşüb.**

Bu barədə Cahit Bağçı özünün “Twitter“ hesabında paylaşım edib.

Səfir görüş zamanı Şuşa Bəyannaməsinin hədəfləri çərçivəsində əlaqələrin inkişafından və regional məsələlərdən danışdıqlarını qeyd edib.

# Naxçıvan xəbərləri

## Sahibkarlara güzəştli kreditlər veriləcək

**Naxçıvanda fəaliyyət göstərən sahibkarlar üçün “Biznesin inkişafı üçün yeni fürsətlər” mövzusunda konfrans keçirilib. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu və “Bank Respublika”nın təşkilatçılığı ilə keçirilən toplantıda muxtar respublikada fəaliyyət göstərən 100-dən çox sahibkar iştirak edib.**



Biznes Mərkəzində keçirilən konfransda Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev iştirakçılara Naxçıvanda iqtisadi sahədə mövcud vəziyyət, bölgənin iqtisadi potensialı, iqtisadi fəaliyyət sahələri üzrə həyata keçirilən tədbirlər və biznes mühiti barədə məlumat verib. O bildirib ki, Naxçıvanda fəaliyyət göstərən bütün sahibkarlıq subyektlərinə və yeni yaradılacaq bizneslərə çox böyük güzəştlər veriləcək. Ölkədə fəaliyyət göstərən bankların Naxçıvanda filiallarının açılması ilə sahibkarların bank xidmətlərinə çıxışı daha da asanlaşacaq. Sahibkarlığın inkişafı üçün güzəştli kreditlərin verilməsi, təşviqat işlərinin aparılması və digər maliyyə dəstəyi tədbirləri həyata keçiriləcək.

Sahibkarlığın İnkişafı Fondu idarə heyətinin sədri Osman Xaliyev Naxçıvanda sahibkarlar və investorlar üçün yaradılan yeni imkanlardan, eləcə də əlçatan və effektiv maliyyələşmə mexanizmlərindən söhbət açıb. “Bank Respublika”nın idarə heyətinin sədri Tariyel İsmayılov bildirib ki, “Bank Respublika” Naxçıvanda real sektorun maliyyələşdirilməsində iştirak edən ən aktiv banklardan biridir və artıq Naxçıvanda güzəştli kreditlərin verilməsi prosesinə başlayıb.

Sonda kreditin əldə edilməsi ilə bağlı sahibkarları maraqlandıran məsələlər müzakirə edilib, onların mövcud mexanizmlə bağlı təklifləri öyrənilib.

## Dağ-mədən sənayesinə “Yaşıl işıq!”

**Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyi və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) birgə təşkilatçılığı ilə “Dağ-Mədən Sahəsində Mövcud İmkanlar və Perspektivlər” mövzusunda Biznes Forum keçirilib.**

Müzakirələrdə ölkə ərazisində fəaliyyət göstərən iri və orta sahibkarlıq subyektlərinin və bir sıra dövlət qurumlarının nümayəndələri iştirak edib. Forumun gündəliyində regionda yerləşən faydalı qazıntı yataqları, yer təkinin hüquqi tənzimlənməsi qaydaları və sözügedən sahəyə investisiyanın təşviqi ətrafında mövzular yer alıb.

Toplantıda Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli Naxçıvanın faydalı qazıntı yataqları barədə ətraflı məlumat verib. Bildirib ki, “2023–2027-ci illər üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı” 11 vacib prioritet istiqamət üzrə müəyyənləşib. Bunlardan biri də ətraf mühitin mühafizəsinin gücləndirilməsi, təbii ehtiyatlardan səmərəli istifadə olunmasıdır. Təbii sərvətlərdən düzgün mexanizmin tətbiq olunması isə əsas məsələdir.

Forumda Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Xanlar Mustafayev Naxçıvanın faydalı yataqları və tədbirin keçirilməsinin mühüm əhəmiyyətindən danışıb. Geoloji Kəşfiyyat agentliyinin əməkdaşı Şahin Ataşov və Dövlət Mineral Xammal Ehtiyatlarından İstifadə Agentliyinin əməkdaşı Elnur Həsənli müxtəlif mövzularda çıxış ediblər.

Tədbirdə sahibkarları maraqlandıran suallar cavablandırılıb.

*Səbuhi HƏSƏNOV,*
*“Xalq qəzeti”nin bölgə müxbiri*

# MN: Ordumuzun mövqeləri bir neçə istiqamətdən atəşə tutulub

**İyulun 8-də saat 23:40-dan iyulun 9-u saat 06:05-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca və Zərkənd, Aqaraq rayonunun Karçevan yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Bəzirxana və Dəmirçidam, Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Kilit yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, iyulun 8-də saat 22:35-dən 23:10-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən ordumuzun Şuşa və Kəlbəcər rayonları istiqamətlərində yerləşən mövqeləri də atəşə tutulub.

Bölmələrimiz tərəfindən bu istiqamətlərdə cavab tədbirləri görülüb.

Bundan əlavə, Ermənistan silahlı qüvvələrinə məxsus kvadrokopterlər ordumuzun Naxçıvan Muxtar Respublikası və Laçın rayonu ərazilərində yerləşən mövqeləri, qeyri-qanuni erməni silahlı dəstələrinə məxsus kvadrokopter isə Xocavənd rayonu Tağaverd kəndi istiqamətində yerləşən bölmələrimizin mövqeləri üzərində kəşfiyyat xarakterli uçuşlar aparmağa cəhd göstərib.

Görülən təxirəsalınmaz tədbirlər nəticəsində mövqelərimiz üzərində uçuşlar həyata keçirməyə cəhd göstərən kvadrokopterlərin fəaliyyətinin qarşısı alınıb.

Eyni zamanda, mühəndis texnikasının cəlb olunması ilə müxtəlif istiqamətlərdə təminat yollarının genişləndirilməsi, səngərlərin qazılması, sığınacaqların hazırlanması, eləcə də döyüş mövqelərinə müşahidə kameralarının quraşdırılmasına cəhd edən qeyri-qanuni erməni silahlı dəstələrinin fəaliyyəti bölmələrimiz tərəfindən görülən tədbirlər nəticəsində dayandırılıb.

*“Xalq qəzeti”*

**Neft-qaz sənayesində hadisə**

# “Abşeron” yatağında qaz hasilatına başlanıldı

## *Gündəlik hasilat 4 milyon kubmetr qaz, 12 min barel kondensatdır*

**Azərbaycanın energetika sektorunda daha bir mühüm hadisə baş verdi. “TotalEnergies” şirkəti və onun tərəfdaşı SOCAR (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) Xəzər dənizində, Bakıdan, təxminən, 100 kilometr cənub-şərqdə yerləşən “Abşeron” qaz-kondensat yatağının işlənməsinin birinci mərhələsi üzrə hasilata başlandığını elan etdi.**

Xatırladaq ki, adıçəkilən yatağın ilk işlənmə mərhələsi sualtı hasilat quyusunu SOCAR-ın Neft Daşlarındakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirir. Onun hasilat gücü gündəlik 4 milyon kubmetr qaz və 12 min barel kondensat təşkil edir. “Abşeron” qazının Azərbaycanın daxili bazarına satılacağı nəzərdə tutulur.

“Yataqların kəşfiyyatı üzrə mütəxəssislərimizin uğurunun nəticəsi olan “Abşeron” qaz yatağından hasilatın başlanmasını elan etməkdən məmnunuq. Bu layihə şirkətin artan qaz tələbatının ödənilməsi strategiyasına uyğundur və SOCAR şirkəti ilə tərəfdaşlığımızı gücləndirir”, – deyə “TotalEnergies”in kəşfiyyat və hasilat üzrə prezidenti Nikolas Terraz bildirib.

JOCAP (Absheron Petroleum Birgə Əməliyyat Şirkəti) tərəfindən idarə olunan layihədə TotalEnergies və SOCAR hər biri 50 faiz paya malikdir. Yeri gəlmişkən, SOCAR-ın tərəfdaşlarından sayılan “TotalEnergies” şirkəti Azərbaycanda 1996-cı ildən fəaliyyət göstərir. Şirkət “Abşeron” qaz-kondensat yatağında 50 faiz, Bakı–Tbilisi–Ceyhan əsas ixrac boru kəməri layihəsində isə 5 faiz paya sahibdir.

Məlumat üçün bildiririk ki, “Abşeron” yatağı ötən əsrin 60-cı illərində Azərbaycan geoloqları tərəfindən kəşf edilib. O zaman mövcud texnika və texnologiyalar Xəzər dənizinin dərinliklərində qazma işlərinə imkan vermədiyindən yatağın istismarı mümkün olmayıb. Nəhayət, 1997-ci ildə “Abşeron” yatağı üzrə hasilatın pay bölgüsünə dair birinci beynəlxalq müqavilə imzalanıb. Layihə çərçivəsində görülən işlər uğursuz nəticələndiyindən 2005-ci ildə müqaviləyə xitam verilib. Bununla belə, Azərbaycan geoloqları, Azərbaycan Dövlət Neft Şirkətinin mütəxəssisləri “Abşeron” yatağında məhsuldar layların olması ilə bağlı fikirlərində israrlı idilər. Eyni zamanda, xarici tərəfdaşlar da burada kifayət qədər karbohidrogen ehtiyatlarının olmasına inanırdılar.

Məhz bu inamın nəticəsi olaraq 2009-cu il fevralın 27-də Azərbaycan Dövlət Neft Şirkəti ilə “Total” şirkəti arasında “Abşeron” yatağı üzrə yeni müqavilə imzalanıb. 2015-ci ildə isə “SOCAR” və “Total” birgə “JOCAP” (Joined Operating Company Absheron Petroleum) əməliyyat şirkətini yaradıblar. Beləliklə, “SOCAR Absheron” və “Total E&P Absheron” törəmə şirkətlərinin bərabər paylarla iştirak etdiyi JOCAP (Joined Operating Company Absheron Petroleum) birgə müəssisəsi “Abşeron” yatağının operatoru elan olunub.

Müqavilənin 30 il müddətinə həyata keçirilməsi nəzərdə tutulur. 747 kvadratkilometr ərazini əhatə edən müqavilə sahəsində aparılan ilkin kəşfiyyat işləri uğurla nəticələnib. 2011-ci ilin sentyabr ayında “Abşeron”da çox böyük qaz ehtiyatlarının aşkar olunması rəsmən elan edilib.

2020-ci il sentyabrın 19-da isə “Abşeron” qaz-kondensat layihəsinin reallaşdırılması istiqamətində mühüm hadisə baş verib. Həmin gün Prezident İlham Əliyev Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda “Abşeron” yatağının dəniz əməliyyatlarının təməlqoyma mərasimində iştirak edib. Xatırladaq ki, “Abşeron” yatağında quraşdırılacaq dörd əsas dayaq bloku və digər sualtı qurğular SOCAR-ın “BOS Şelf” şirkəti tərəfindən tikilib. Tikinti işlərinə ümumi çəkisi 10 min tona yaxın olan əsas və köməkçi dayaq bloklarının, körpülərin, estakadaların, məşəl sisteminin, sualtı qurğuların, boru xəttinin, modulların inşası və quraşdırılması daxildir.

Xəzər dənizində, “Azəri–Çıraq–Günəşli” yataqlar blokundan cənub-qərbdə, dənizin 500 metr dərinliyində yerləşən “Abşeron” yatağının ehtiyatları 350 milyard kubmetr qaz və 100 milyon tona yaxın kondensat həcmində qiymətləndirilir. Elə bu zənginliyinə görə də “Abşeron” yatağının bir neçə mərhələdə işlənməsi nəzərdə tutulur. Yatağın işlənməsinin birinci mərhələsində ildə 1,5 milyard kubmetr qaz və 750 min ton kondensat hasilatı nəzərdə tutulur. Növbəti illərdə isə burada illik hasilatın ən azı 4 milyard kubmetrə qədər artırılacağı gözlənilir. Bütövlükdə isə, yatağın istismarı Azərbaycanın təbii qaza artmaqda olan daxili tələbatının təmin edilməsinə əhəmiyyətli töhfə verəcək.

Yeri gəlmişkən, Neft İxrac Edən Ölkələr Təşkilatının (OPEC) bir qədər əvvəl açıqladığı hesabatında bildirilirdi ki, “Şahdəniz” və “Abşeron” yataqları 2023-cü ildə Azərbaycanda maye karbohidrogen hasilatının artımının təkanverici qüvvələri olacaq. Hesabatda o da qeyd olunurdu ki, Azərbaycanın köhnə yataqlarında hasilatın əsas azalmasının digər yataqlar hesabına kompensasiya olunacağı gözlənilir. Bu artımın isə, əsasən, “Şahdəniz” və “Abşeron” yataqları hesabına baş verəcəyi proqnozlaşdırılır. Göründüyü kimi, “Abşeron” yatağının karbohidrogenlərlə zənginliyi artıq beynəlxalq səviyyədə də qəbul olunur.

***Mirbağır YAQUBZADƏ,***
***“Xalq qəzeti”***



### Ekspert rəyi

**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**



“Abşeron” yatağından ilk qazın əldə edilməsi Azərbaycan üçün son dərəcə əhəmiyyətli bir hadisədir. Özü də bunun dünya enerji bazarı üçün heç də yaxşı olmayan dövrə təsadüf etməsi ikiqat əlamətdardır. Düzdür, ötən illə müqayisədə müəyyən irəliləyişlər müşahidə olunsa da, ancaq bu gərginlik, hələlik, qalmaqdadır. Belə olan təqdirdə Azərbaycan dünyanın enerji bazarında davam edən gərginliyin aradan qaldırılması üçün yeni bir şans qazanır.

“Abşeron” yatağının ilkin işlənmə mərhələsi çərçivəsində çıxarılacaq qaz bütünlüklə Azərbaycan bazarına daxil olacaq. Bu da ildə 1,5 milyard kubmetr “mavi yanacaq” deməkdir. Bununla da, ölkəmiz özünün qaza olan tələbatının ödənilməsi üçün “Şahdəniz” yatağından aldığı, eləcə də qısa müddətli sazişlər əsasında Rusiyadan idxal etdiyi qazı dayandıracaq. Əvəzində isə, bu həcmdə qaz Avropa və Türkiyədəki istehlakçıların tələbatının ödənilməsinə yönəldiləcək. Yəni, əgər biz bu il üçün cari proqnozlara baxsaq, görərik ki, Azərbaycan qaz satışını Avropaya təqribən 500 milyon kubmetr, Türkiyəyə isə 1 milyard kubmetr artırmağı planlaşdırır. “Abşeron” yatağının ilkin işlənmə mərhələsi çərçivəsində də elə bu qədər– ildə 1,5 milyard kubmetr qaz hasil olunacaq. Bu resursların isə bir-birini tamamlamağı özlüyündə maraqlı görünməyə bilməz.

Digər tərəfdən isə, növbəti 1-2 ildə Azərbaycan “Azəri-Çıraq-Günəşli” yataqlar blokunun dərin qatlarından qaz hasilatına başlayacaq. Bununla da, “Abşeron” yatağının birinci mərhələsindən daha çox qaz çıxarmağa nail olunacaq. Çünki ilkin araşdırmalar ona dəlalət edir ki, orada qazılacaq 2 istismar quyusunun hər biri, ən azı, 1 milyard kubmetr qaz çıxarmağa imkan yaradacaq. Beləliklə də, Cənub Qaz Dəhlizi öz resurslarını Azərbaycan qazının ixracı hesabına mərhələli şəkildə tam təmin edə bilər.

**Bu ilin aprel ayında Avropanın Azərbaycan qazının idxalına xərcləri 490 milyon avroya çatıb. Həmin vaxt Azərbaycan Avropaya 1 milyard 47 milyon kubmetr təbii qaz ötürüb, ixracdan 488 milyon 241 min 329 avro gəlir əldə edib.**

# Avropa Azərbaycan qazının idxalına 490 milyon avro xərcləyib

Azərbaycanın Energetika Nazirliyi bildirir ki, 2023-cü ilin yanvar-aprel ayları ərzində ölkəmiz Avropaya ümumilikdə 3,9 milyard kubmetr təbii qaz ixrac edib ki, bu da qaz ixracının illik müqayisədə 10,5 faiz artdığını göstərir.



Bu dövrdə Azərbaycan Türkiyəyə 3,4 milyard kubmetr, Gürcüstana isə 1,1 milyard kubmetr qaz ixrac edib. Cənub Qaz Dəhlizinin bir hissəsi olan TANAP ilə Türkiyəyə 1,9 milyard kubmetr qaz nəql edilib.

Qeyd edək ki, Azərbaycan TAP vasitəsilə Avropaya qaz tədarükünü 2020-ci il dekabr ayının 31-dən başlayıb. Boru kəmərinin ilkin buraxılış gücü ildə 10 milyard kubmetr təşkil edir.

***“Xalq qəzeti”***

# Ağdam Sənaye Parkına 160 milyon manatdan çox vəsait yatırılacaq

## *İstehsal sahələrində 1400-dən artıq işçi çalışacaq*

**Ağdam Sənaye Parkında qeydə alınan rezidentlər tərəfindən inşa edilmiş ilk müəssisənin bu il fəaliyyətə başlaması gözlənilir. Bununla da Azərbaycanın işğaldan azad olunmuş ərazilərində böyük sənaye istehsalı bərpa ediləcək. Ağdam Sənaye Parkında qeydə alınmış rezidentlərin çoxu artıq tikinti işlərinə başlayıb.**



İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatında bildirilir ki, ümumi ərazisi 190 hektar olacaq sənaye parkının qurulması iki mərhələdə nəzərdə tutulub. Artıq birinci mərhələdə əsas işlər tamamlanmaq üzrədir. Ağdam Sənaye Parkında 17 rezident və 5 qeyri-rezident qeydiyyatdan keçib. Burada istehsal olunan məhsullar azad edilmiş rayonların əksəriyyətində aparılacaq tikinti-quraşdırma işlərində istifadə ediləcək, eyni zamanda, digər rayonlara göndəriləcək, həm də ixrac olunacaq.

Parkın prioritet sahələri tikinti materiallarının istehsalı, qida sənayesi, kənd təsərrüfatı məhsullarının emalı, gübrə istehsalıdır. Bir sıra layihələr dəyərləndirmə mərhələsindədir, qiymətləndirmə komissiyası tərəfindən nəzərdən keçirilir. Bu müəssisələr həm də bərpadan sonra şəhərə qayıdacaq sakinlərin işlə təmin olunmasında böyük rol oynayacaq.

Qeydiyyatdan keçmiş rezident və qeyri-rezidentlər tərəfindən sənaye parkına 160 milyon manatdan çox vəsaitin yatırılması nəzərdə tutulur. Bu investisiyalar nəticəsində 1400-dən çox yeni iş yeri açılacaq. Parkda digər sənaye parklarında olan güzəştlər mövcuddur. Belə ki, bütün sənaye parklarında qeydiyyatdan keçmiş rezidentlər ilkin mərhələdə bütün infrastrukturla təmin olunur.

***“Xalq qəzeti”***



# İnşaat sektoru respublikada 3-cü böyük məşğulluq sahəsidir

## *Bu ilin 5 ayında layihələrin icrasına 6 milyard manatadək vəsait sərf olunub*

**Azərbaycan iqtisadiyyatına son 20 ildə ayrılan əsaslı vəsait qoyuluşunun həcmi 100 milyard manatdan çox olub. Nəticə etibarilə ölkə iqtisadiyyatının quruluşunda əhəmiyyətli dəyişikliklər əldə edilib, geniş miqyasda sosial-mədəni obyektlər istifadəyə verilib, irimiqyaslı infrastruktur layihələri həyata keçirilib.**

Naxçıvan Muxtar Respublikasında, həmçinin Sumqayıt, Gəncə, Mingəçevir, Neftçala, Masallı və digər şəhər və rayonlarda sənaye məhəllələri, texnoparklar yaradılıb, iri kimya, maşınqayırma, yüngül sənaye obyektlərinin istifadəyə verilməsi ilə bağlı intensiv işlər görülüb, innovasiya xarakterli texnologiyaların tətbiqinə xüsusi diqqət yetirilib.

Son illərdə tranzit potensialının daha da artırılması istiqamətində, o cümlədən Avropa–Qafqaz–Asiya nəqliyyat dəhlizinin fəaliyyəti, Bakı–Tbilisi–Qars dəmir yolunun, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının, Şimal–Cənub, Şərq–Qərb nəqliyyat dəhlizləri üzrə magistral yolların tikinti layihələri uğurla davam etdirilib ki, bütün bunlar Azərbaycanın beynəlxalq aləmdə siyasi mövqeyinin, iqtisadi qüdrətinin artması üçün mühüm önəm daşıyır.

Respublikada tikinti-quruculuq işlərinin sürətləndirilməsinə müsbət təsir göstərən qanunvericilik dəyişikləri icra olunub. Ölkə Prezidenti İlham Əliyevin 2018-ci il 28 dekabr tarixli fərmanı ilə təsdiqlənən “Bəzi tikinti obyektlərinə tikintiyə icazə və tikinti obyektinin istismarına icazə verilməsi Qaydası”nda dəyişiklik edilib. Bununla da bu cür sənədlərin Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə alınması reallaşmadığı halda, onların verilməsi ərizəçinin razılığı ilə sorğu əsasında müvafiq dövlət orqanından (qurumundan) tələb olunur və ya ərizəçi tərəfindən təmin edilir.

Ümumiyyətlə, son illərdə islahat tədbirləri tikinti obyektinin inşasına və istismarına icazələrin alınması, elektrik təchizatı şəbəkələrinə qoşulma, əmlakın qeydiyyatı, dövlət satınalmaları sahəsində bütün prosedurların elektron qaydada aparılması ilə rəqəmsal iqtisadiyyata keçid istiqamətində mühüm önəm daşıyır.

Tikinti üçün icazələrin alınması ilə bağlı, elektrik təchizatı şəbəkələrinə qoşulma, əmlakın qeydiyyatı üzrə “Bir Pəncərə” prinsipi əsasında proaktiv rejimdə bütün müraciət və qeydiyyat prosedurları onlayn olaraq vahid sistemdə həyata keçirilməsinə başlanılıb. Elektron müraciət sistemlərinin istifadəyə verilməsi nəticəsində artıq sahibkar–məmur təması minimuma endirilib, daha operativ və şəffaf şəkildə icazə sənədlərinin əldə olunması üçün imkan yaradılıb.

Dövlət Statistika Komitəsinin müvafiq məlumatlarına əsaslanıb qeyd edə bilərik ki, həyata keçirilən layihələrin icrası nəticəsində ötən il ərzində əsas kapitala yönəldilən 10 milyard manatdan çox vəsaitin 9 milyard manatı bilavasitə tikinti-quraşdırma işlərinin görülməsinə sərf olunub. Əsas kapitala yönəldilən vəsaitin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 48,4 faiz, büdcə vəsaitləri 37,3 faiz, əhalinin şəxsi vəsaitləri 7,8 faiz, bank kreditləri 2,7 faiz, digər vəsaitlər isə 3,8 faiz təşkil edib.

Bu ilin yanvar-may aylarında isə əsas kapitala yönəldilən 5 milyard 858 milyon manat vəsaitin 327,9 milyon manatı (5,6 faizi) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Həmin vəsaitin 4 milyard 314 milyon manatını və ya 73,6 faizini daxili vəsaitlər təşkil edib və bunun 4 milyard 124,3 milyon manatı və ya 70,4 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Respublikada tikinti layihələrinin uğurlu icrasından bəhs edərkən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa-quruculuq tədbirlərinin davamlı şəkildə genişmiqyaslı xarakter almasını deyə bilərik. Bununla əlaqədar son iki il ərzində işğaldan azad olunan ərazilərdə təkcə yol infrastrukturunun qurulması ilə bağlı görülən işləri xatırlatmaq istərdik. Əvvələ onu bildirək ki, “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrasına dair Tədbirlər Planına əsasən, 2026-cı ilədək ümumi uzunluğu 2264,5 kilometr təşkil edən 20 avtomobil yolu layihəsinin və Laçın rayonunda Beynəlxalq Hava Limanının tikintisi ilə əlaqədar qazma və torpaq işlərinin yerinə yetirilməsi nəzərdə tutulub. Bu layihələrdən uzunluğu 28,5 kilometr olan Tərtər–Çaylı–Suqovuşan–Talış avtomobil yolu 2020-ci ildə, uzunluğu 101,5 kilometr təşkil edən “Zəfər yolu” 2021-ci ildə inşa edilib. 2022-ci ildə Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolunun (uzunluğu 22 kilometr, 2-3 hərəkət zolaqlı) tikintisi başa çatdırılıb.

Ümumilikdə isə ötən il ərzində Azərbaycanda 803,5 kilometr uzunluğunda avtomobil yolları, prospekt və küçələr tikilib, yenidən qurulub və təmir olunub. Buraya respublika əhəmiyyətli 234,3 kilometr, yerli əhəmiyyətli 398 kilometr, Bakı şəhər yolları 171,2 kilometr təşkil edir.

Tədbirlər Planına uyğun olaraq, layihələrdən 12-sinin icrasının 2023-cü, 2 layihənin 2024-cü, 3 layihənin 2025-ci və 1 layihənin isə 2026-cı ildə başa çatdırılması nəzərdə tutulub.

Yeri gəlmişkən, son illər ərzində respublikada mənzil tikintisi də geniş vüsət alıb. Sosial Tədqiqatlar Mərkəzində iyunun 7-də tikinti sektoru sahəsində aktual məsələlərin müzakirəsinə həsr olunan konfransda bu barədə ətraflı danışılıb.

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin və Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxışında sovetlər birliyinin süqutundan sonra təkcə sosial-iqtisadi tənəzzül deyil, eləcə də mənzillə təminat sahəsində mənfi tendensiyalar yalnız Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, 1995-1996-cı illərdə səngiməyə başladığını və ölkə üzrə mənzil şəraitinin inkişafında 2000-ci illərdən etibarən yüksələn dinamika müşahidə olunduğunu bildirib: “Belə ki, 2000-ci illərdə istifadəyə verilən yaşayış sahəsi cəmi 487 min kvadratmetr təşkil etdiyi halda, bu göstərici 2005-ci ildə 1583 min kvadratmetr 2015-ci ildə 1932 min kvadratmetr, 2020-ci ildə isə 5224 min kvadratmetr təşkil edib”.

Deputat daha sonra qeyd edib ki, sovet dövründə istifadəyə verilən yaşayış yerlərində kəndlərin əhəmiyyətli həcminə baxmayaraq, hazırda bu tendensiya əksinə çevrilib və bu sahədə artım daha çox şəhərlərin hesabınadır. 1990-cı ildə istifadəyə verilən yaşayış sahələrinin 45,5 faizi şəhərlərdə, 54,5 faizi kənd yerində olduğu halda, 2020-ci ildə 90,3 faizi şəhər yerində, 9,7 faizi isə kənd ərazilərində olub. Ölkə üzrə bütün mənzil fondunun ümumi sahəsi son 20 il ərzində 1,6 dəfə artıb. 2003-cü 125 milyon kvadratmetr təşkil edən bütün mənzil fondu, 2022-ci ildə isə 200,7 milyon kvadratmetrə bərabər olub. Əhalinin hər nəfərinə düşən mənzil sahəsindəki dinamikanı nəzərdən keçirdikdə, artım 1,4 dəfə olub.

Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri, həmçinin bildirib ki, son 10 il ərzində orta hesabla əhalinin hər nəfərinə düşən mənzil və ev sahəsi 17,6 kvadratmetrdən 20 kvadratmetrə çatıb. İqtisadi rayonlar üzrə bu istiqamətdə ən yüksək artım Abşeron–Xızı, ən az Mil–Muğan iqtisadi rayonları üzrə qeydə alınıb.

Konfransda o da diqqətə çatdırılıb ki, hazırda tikinti sektoru ölkədə məşğulluq yaradan 3-cü sahə kimi xarakterizə olunur. İqtisadiyyatın həcminə baxdıqda isə ÜDM-də tikinti sektorunun payında xeyli artım müşahidə edilir. Kiçik və orta biznesin də bu sahədə xüsusi çəkisi ötən ilin göstəricilərinə görə, 15 minə çatır.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

# Ölkəmizdə istehlak bazarı genişlənib

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar–may aylarında respublikamızda istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılan malların və göstərilmiş xidmətlərin dəyəri 25,9 milyard manat təşkil edib.**



Qeyd edək ki, bu, ötən ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 5,2 faiz artım deməkdir.

Qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılan malların və göstərilən xidmətlərin dəyəri illik müqayisədə 4,9 faiz artaraq 24,9 milyard manata bərabər olub, onun 45,2 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

***“Xalq qəzeti”***

# DİN: 6 ayın hesabatı və vəzifələr





**Daxili İşlər Nazirliyində bu ilin 6 ayında əməliyyat-xidməti fəaliyyətin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib.**

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov ilin birinci yarısının da növbəti uğurlu hesabat dövrlərindən olduğunu, daxili işlər orqanları və Daxili Qoşunların cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində gündəlik vəzifələrin öhdəsindən layiqincə gəldiyini vurğulayıb.

Nazir məmnunluqla qeyd edib ki, daxili işlər orqanlarının fəaliyyətini həmişə yüksək qiymətləndirən Prezident İlham Əliyevin sərəncamları ilə ictimai təhlükəsizliyin və asayişin təmin edilməsində, cinayətkarlığa qarşı mübarizədə xüsusi xidmətlərinə, qarşıya qoyulmuş tapşırıqların icrasında fərqləndiklərinə görə 38 əməkdaş və hərbi qulluqçu dövlət mükafatlarına layiq görülüb, habelə rəhbər vəzifəli 4 əməkdaşa ali xüsusi rütbə verilib.

Hesabat məruzəsi ilə çıxış edən nazirin birinci müavini polis general-leytenantı Seyfulla Əzimov ötən 6 ayda əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 19 min 533 cinayət qeydə alındığını və bu cinayətlərin 95,5 faizinin (18.661-i) daxili işlər və prokurorluq orqanları tərəfindən prosessual qaydada araşdırılan hüquqazidd əməllər olduğunu bildirib. Eləcə də 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə qəsdən adam öldürmələrin 15,4, qəsdən sağlamlığa ağır zərər vurmaların 12,3, əzab vermələrin 22,2, odlu silahın tətbiqi ilə törədilən cinayətlərin 21,7, adam oğurluqları və quldurluqların hər birinin 25, soyğunçuluqların 8,4, xuliqanlıqların 16,6, oğurluqların 1,7, onlardan mənzillərdən edilənlər 21,7, ailə münaqişəsi zəminində baş vermiş cinayətlərin 1,4, ictimai yerlərdə qeydə alınmış cinayətlərin 13,6 faiz azaldığını qeyd edib.

Kriminal qəsdlərin qurbanlarının pozulmuş hüquqlarının bərpası istiqamətində həyata keçirilmiş istintaq hərəkətləri və əməliyyat tədbirləri ilə ümumi cinayətlərin 90 faizinin, o cümlədən "isti izlər"lə 1605 cinayətin açıldığını, 4587 hüquqazidd əməlin qarşısının alındığını, axtarışda olan 3291 şəxsin tutulduğunu, dövlətə, hüquqi və fiziki şəxslərə dəymiş maddi ziyanın 79,4 faizinin ödətdirildiyini vurğulayıb.

Mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə həyata keçirilən tədbirlərlə 395 kriminal qrupun zərərsizləşdirilib, qanunsuz olaraq odlu silah saxlayan və daşıyan 275 nəfərin cinayət məsuliyyətinə cəlb edilib, ötən ilin 6 ayı ilə müqayisədə qeyri-leqal dövriyyədən 946 kiloqram çox – 2 ton 921 kiloqram narkotik vasitə çıxarılıb, qanunsuz kultivasiya olunan 143 ton narkotik xassəli bitkinin aşkarlanıb məhv edilib.

Seyfulla Əzimov vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində mühüm vəzifələrin icrası çərçivəsində mediada qabaqcadan məlumat verilməklə 2 min 318 vətəndaşın qəbulunun həyata keçirildiyini, qaldırılan məsələlərin əksəriyyətinin öz qanuni həllini tapdığını bildirib.

Sonra nazirliyin bir sıra baş idarələrinin, Polis Akademiyasının və ərazi polis orqanlarının rəhbərləri görülən işlər, əldə olunan nəticələr, eyni zamanda, fəaliyyətdə olan nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə planlaşdırılan tədbirlər barədə məlumat veriblər.

İclasa yekun vuran nazir Vilayət Eyvazov cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində müsbət nəticələrin inkişaf etdirildiyini vurğulayaraq xidməti fəaliyyətin səmərəliliyinin daha da artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Eyni zamanda, vətəndaş məmnunluğunun təmin edilməsinin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müəyyənləşdirdiyi əsas vəzifələrdən olduğunu xatırladan nazir cinayətlərin qarşısının alınması, açılması, hüquqazidd əməllər nəticəsində vurulan maddi ziyanın ödətdirilməsi, müraciətlərə baxılması və qəbul işinə daha böyük həssaslıqla yanaşılmasını tələb edib.

Narkotiklərlə mübarizənin vəziyyətinə toxunan Vilayət Eyvazov son illər müvafiq sahədə görülən işləri müsbət qiymətləndirib. Yeniyetmələr və gənclər arasında aparılan antinarkotik təbliğatın əhəmiyyətini nəzərə çatdıraraq bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olması, fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulması ilə bağlı göstərişlər verib.

Nazir cinayətkarlığa, o cümlədən narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə vətəndaşların və medianın fəal iştirakına da toxunaraq onlara, habelə respublikada ağır və xüsusilə ağır cinayətlərin qarşısının alınması, istintaqı, keçmiş illərdən bağlı qalmış 258 cinayətin açılmasında birgə səmərəli fəaliyyətlərinə görə Baş Prokurorluğun və ərazi prokurorluqlarının əməkdaşlarına təşəkkürlərini ifadə edib.

Müasir texnologiyaların tətbiqinin və idarəetmədə elektronlaşdırmanın genişləndirilməsinin zəruriliyini, hüquqi və fiziki şəxslərə məxsus obyektlərin, mənzillərin mühafizə-siqnalizasiya vasitələri ilə təmin edilməsinin, hər bir şəxsin hüquq və azadlığının, qanuni mənafeyinin etibarlı müdafiəsinin, bütövlükdə polisin xalqa xidmət işini peşəkarlıqla yerinə yetirməsinin vacibliyini nəzərə çatdırıb.

Kollegiyada müzakirə olunan məsələ üzrə qarşıda duran vəzifələrlə bağlı qərar qəbul edilib və növbəti iclasda onun icra vəziyyətinə dair hesabatların dinləniləcəyi qeyd olunub.

Nazir Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi diqqətə, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Prezident İlham Əliyevə bütün şəxsi heyət adından minnətdarlığını bildirib və əmin edib ki, respublikada ictimai asayişin mühafizəsi, qanunçuluğun və hüquq qaydasının qorunması sahəsində vəzifələr bundan sonra da layiqincə və tam yerinə yetiriləcək.

# Kardinal erməni vandalizmi ilə bağlı məlumatlandırıldı

**Xarici işlər naziri Ceyhun Bayramov Müqəddəs Taxt-Tacın ölkəmizdə səfərdə olan dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.**



Söhbət zamanı Azərbaycan-Vatikan münasibətlərinin cari vəziyyəti və perspektivləri, Azərbaycanla Ermənistan arasında sülh prosesi və bölgədəki hazırkı vəziyyət müzakirə edilib.

Nazir Ceyhun Bayramov dövlətlərimiz arasında olan münasibətlərə böyük əhəmiyyət verdiyini və bu xüsusda Azərbaycanın Vatikanda yeni fəaliyyətə başlayan səfirliyinin əməkdaşlığın daha da inkişafına xidmət göstərəcəyinə əminliyini ifadə edib.

Nazir, həmçinin qarşı tərəfə 44 günlük Vətən müharibəsindən sonrakı vəziyyət, eləcə də işğaldan azad edilmiş ərazilərimizdə törədilmiş cinayətlər, vandalizm və dağıdılmış mədəni və dini irs barədə ətraflı məlumat verib. Bununla yanaşı, Ermənistanın törətdiyi və davam edən mina təhdidləri və digər təxribatları barədə müfəssəl məlumat verilib.

Görüşdə, həmçinin Azərbaycanın Vatikanın tarixi və dini məkanlarının bərpasında iştirakı məmnunluqla qeyd edilib və bunun mədəniyyətlərarası dialoqa bir töhfə kimi qiymətləndirildiyi diqqətə çatdırılıb.

Tərəflər, həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında da fikir mübadiləsi aparıblar.

# Müqəddəs Taxt-Tacın dövlət katibi: Azərbaycana daim sülh arzu edirəm

**Dünən Qafqaz Müsəlmanları İdarəsinin sədri, Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ilə görüşüb.**



Əvvəlcə təkbətək görüş keçirilib.

Sonra görüş nümayəndə heyətlərinin iştirakı ilə davam edib.

Görüşdə çıxış edən şeyxülislam Allahşükür Paşazadə diqqətə çatdırıb ki, Müqəddəs Taxt-Tacla Azərbaycan arasında, habelə Roma Katolik Kilsəsi ilə QMİ arasında münasibətlər yüksək səviyyədədir. Ulu Öndər Heydər Əliyevin dəvəti ilə 2002-ci ildə Papa II İohann Pavel Azərbaycana səfər edib, ölkəmizdə azsaylı katolik icması üçün kilsə inşa olunub.

Diqqətə çatdırılıb ki, Müqəddəs Taxt-Tacla Azərbaycan arasında əlaqələrin möhkəmlənməsində Prezident İlham Əliyevin Vatikana səfərləri xüsusi rol oynayıb. Dövlətimizin başçısının və birinci xanım Mehriban Əliyevanın Vatikanda və ölkəmizdə Müqəddəs Taxt-Tacın rəsmiləri ilə görüşləri, Heydər Əliyev Fondunun xətti ilə Vatikanda reallaşdırılan layihələr misilsiz tarixi əhəmiyyətə malikdir.

Şeyxülislam etnik və dini müxtəliflik multikultural Azərbaycanın milli sərvəti olduğunu deyib. Bildirilib ki, Azərbaycan bu monolitliyi, dini-mənəvi harmoniyanı, xalq-dövlət birliyini 44 günlük Vətən müharibəsində əyani şəkildə nümayiş etdirib.

Sonra çıxış edən Müqəddəs Taxt-Tacın dövlət katibi kardinal Pietro Parolin ölkələrimiz arasında çox gözəl əlaqələrin mövcud olduğunu deyib. Humanitar məsələlərdə hər iki ölkə eyni məqsədinin olduğunu qeyd edən kardinal bildirib: "Ötən il əlaqələrimizin qurulmasının 30 illiyini qeyd etdik. Azərbaycan multikultural ölkə kimi parlayır. Azərbaycana daim sülh arzu edirəm".

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# İsraildəki səfirimiz diaspor üzvləri ilə görüşüb

**Azərbaycan Respublikasının İsrail dövlətindəki səfiri Muxtar Məmmədov İsrailin Akko şəhərindəki "Azərbaycan evi"ndə bu ölkədə yaşayan diaspor üzvləri ilə görüşüb.**



Səfir əvvəlcə qədim "Atika" qalasında Akko şəhərinin meri Şimon Lankri ilə görüşüb, ölkələrimiz arasında dostluq və sıx əməkdaşlıq əlaqələrini inkişaf etdirmək yolları barədə söhbət edib. Görüşdə meriya nümayəndələri ilə birgə mərhum həmyerlimiz Arye Qutun oglu Aviel Qut və bacısı da iştirak ediblər.

"Azərbaycan evi"ndə Azərbaycan diasporunun üzvləri ilə keçirilən görüşdə Yerusəlimdən yazıçı Sara Raxmani, Rişon le Sion şəhərindən yazıçı Frida Yusufova, yazıçı Miryam Xeyli, Akko şəhərindən yazıçı və tərcüməci Şoşana Abramova və başga tanınmış ziyalılar da iştirak edibər. Or Akiva şəhərindən Ümumi İsrail Dağ Yəhudilərinin sədri Pavel Elizarov, Dağ Yahudilərinin baş ravvini Yaniv Naftali, İsraildə Qafqaz Yəhudilərinin Mədəniyyət Mərkəzinin direktoru Ben Sion Şmaelov, eləcə də Təl Əviv, Natanya, Kiryat Yam, Kiryat Bialik şəhərlərindən diaspor nümayəndələrinin qatıldığı görüşdə Azərbaycan xalqının və Prezidet İlham Əliyevin ünvanına dua səsləndi, ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi arzulanıb.

Çıxış edənlər qeyd ediblər ki, Azərbaycan və İsrail arasındakı dostluq və qardaşlıq münasibətlərininin, ictimai, siyasi, iqtisadi, hərbi və mədəni sahələri əhatə edən əlaqələrin daha da möhkəmləndirilməsi üçün ölkəmi təmsil edən diaspor fəalları ilə İsrail ziyalıarı və din xadimləri əlbir səyləri bundan sonra da davam etdirəcələr.

*"Xalq qəzeti"*

# İslam İnkişaf Bankı azad edilmiş ərazilərin reinteqrasiyasına töhfə verməyə hazırdır



**İqtisadiyyat naziri Mikayıl Cabbarov İslam İnkişaf Bankı Qrupunun Türkiyə Regional Ofisinin direktoru Valid Məhəmməd Abdelvahab ilə görüşüb.**

İqtisadiyyat naziri Azərbaycanın İslam İnkişaf Bankı Qrupu ilə münasibətlərin inkişafında maraqlı olduğunu, Bankın ölkəmizdə iqtisadi inkişaf, o cümlədən özəl sektorun fəaliyyətinin genişlənməsi istiqamətində göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini vurğulayıb. Qeyd edilib ki, İslam İnkişaf Bankı Qrupunun Azərbaycan iqtisadiyyatının inkişaf prioritetlərini dəstəkləmək üçün Ölkə üzrə Əməkdaşlıq Çərçivəsini hazırlamaq təşəbbüsü də bu baxımdan xüsusi qeyd olunmalıdır. Həmin sənəddə ölkəmizin sosial-iqtisadi inkişafına dair Milli Prioritetlərinə müvafiq olaraq, bərpa olunan enerji, işğaldan azad edilmiş ərazilərimizin yenidən qurulması, həmçinin rəqəmsal transformasiya və digər istiqamətlərdə dəstək nəzərdə tutulur.

Valid Məhəmməd Abdelvahab Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, Bankın Azərbaycanın sosial-iqtisadi inkişafına, o cümlədən azad edilmiş ərazilərimizin reinteqrasiyasına töhfə verməyə hazır olduğunu vurğulayıb, tərəfdaşlığın inkişaf istiqamətləri barədə fikirlərini bölüşüb.

Tərəflər ölkəmizin sosial-iqtisadi inkişaf hədəfləri, prioritet sahələr, o cümlədən, azad edilmiş ərazilərimizdə reallaşdırılan layihələr üzrə əməkdaşlığın gücləndirilməsi barədə müzakirə aparıblar.

*"Xalq qəzeti"*

# Prokurorluq: DSX-nin hərbi qulluqçusunun ölümü ilə bağlı cinayət işi açılıb



**Dövlət Sərhəd Xidmətinin N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Bəkiyev Kənan Seymur oğlunun odlu silahdan atəş açmaqla özünü öldürməsi barədə Naxçıvan hərbi prokurorluğuna məlumat daxil olub.**

Hərbi Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, daxil olmuş məlumat əsasında Naxçıvan hərbi prokurorluğunun əməkdaşları tərəfindən hadisə yerinə və meyitə baxış keçirilib, eləcə də digər hərəkətlər icra edilib.

Fakt üzrə Naxçıvan hərbi prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanılaraq şahidlər dindirilib, müvafiq ekspertizalar təyin edilib və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilib.

Hazırda istintaq davam etdirilir və qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi təmin olunacaq.

*"Xalq qəzeti"*

# Sosial siyasətin hədəfi imkansız və ehtiyacı olan insanlardır

## *Müharibə əlillərinə 13,8 min mənzil, 7,5 min avtomobil verilib*

**Azərbaycan dövlətinin sosial-iqtisadi siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır. Aparılan islahatlar, güzəranın yaxşılaşdırılması üçün atılan addımlar da bunu təsdiq edir. Ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlər, həyata keçirilən layihələr, icra edilən proqramlar nəticə etibarı ilə uğurlu olub.**



Dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıqları əsasında il ərzində islahatlar proqramı davam etdirilib, sosial müdafiə və aktiv məşğulluq proqramlarının icrası və xidmətlərin genişləndirilməsi təmin edilib. Hazırda ölkəmizdə bütün şəhid ailələrinin, müharibə əlillərinin problemləri həll edilir, onların mənzil-məişət şəraiti yaxşılaşdırılır, həssas qrupların sosial təminatı və sosial ödənişləri artırılır. Ötən dövrdə, eyni zamanda, beynəlxalq əməkdaşlıq artıb, sosial sahədə xidmətlərin vahid mərkəzdən şəffaf, operativ və əlçatan şəkildə təşkili həyata keçirilib və digər müvafiq fəaliyyət sahələrində ardıcıl və məqsədəuyğun işlər görülüb.

### Özbəkistanla təcrübə mübadiləsi

Özbəkistan Prezidenti yanında Sosial Müdafiə üzrə Milli Agentliyin və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nümayəndələri arasında onlayn görüş keçirilib. Bağlantı 2 qurum arasında əməkdaşlıq müstəvisində təcrübə mübadiləsi məqsədi daşıyıb.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev son illər ölkəmizdə həyata keçirilən sosial islahatlar, eləcə də rəqəmsal texnologiyaların tətbiqi istiqamətində əldə olunan nailiyyətləri diqqətə çatdırıb. O, 2019-cu ilin əvvəlindən Azərbaycanda sosial ödənişlərin e-sistem üzərindən, proaktiv qaydada təyinatına başlandığı diqqətə çatdırıb.

Görüşdə qurumlar arasında əməkdaşlıq müstəvisində görüləcək birgə iş və fəaliyyətin əlaqələndirilməsi mexanizmləri müzakirə olunub.

Qeyd edək ki, Azərbaycanda sosial sahədə xidmətlərin elektronlaşdırılması üzrə son illərdə əldə olunan uğurlu təcrübənin öyrənilərək tətbiqinə maraq göstərən ölkələrdən biri də Özbəkistandır. Görüşdə bu istiqamətdə təcrübə mübadilələrinin davam etdiriləcəyi də vurğulanıb.

### İmtiyazlı şəxslərə sosial xidmət genişlənir...

Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən, şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi icra olunur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin icra etdiyi bu paket çərçivəsində postmüharibə dövründə şəhidlərin ailə üzvləri və müharibə veteranlarından ibarət 103 min şəxsə 115 min aylıq sosial ödəniş təyin olunub, 3 min 696 şəxsə sığorta ödənişi edilib.

– 1997-ci il avqustun 2-dək hərbi xidmətdə aldığı xəsarətlə bağlı əlilliyi olan 17 min 234 şəxsə birdəfəlik ödəmə verilib;

– şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlər hər il artırılıb, müharibə veteranlarına aylıq təqaüd təyin edilib;

– mənzillə təminat proqramı 5 dəfə genişlənib, müharibə əlilərinə 5 min mənzil və fərdi ev, 324 avtomobil təqdim edilib (ümumiyyətlə 13 min 800 əlilə mənzil və fərdi ev, 7 min 500-dən çox avtomobil verilib);

– şəhid ailələri üzvlərinə və 11 min müharibə iştirakçısına 46 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib;

– müharibə ilə əlaqədar əlilliyi olan 1 941 şəxs 39 min 713 reabilitasiya vasitəsi, o cümlədən 432 şəxs 451 yüksək texnologiyalı müasir protezlə təmin olunub;

– 18,7 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10 min şəxs özünüməşğulluq proqramına cəlb olunub;

– vahid əlaqələndirmə mərkəzlərində həmin kateqoriyalara aid 88 min 300 şəxsə xidmətlər göstərilib və s.

Postmüharibə dövründə qeyd olunan sosial dəstək paketi, ümumilikdə, 124 min şəxsi əhatə edib, onlara 294 min xidmət göstərilib.

### Ağalı və Talış kəndlərində məşğulluğa dəstək

Böyük Qayıdış proqramı çərçivəsində Zəngilan rayonunun Ağalı və Tərtər rayonunun Talış kəndlərinin sakinlərinin məşğulluğuna dəstək tədbirləri davam edir. Dövlət Məşğulluq Agentliyi həmin kəndlərdə artıq 190 şəxsi fəal məşğulluq proqramları ilə əhatə edib.

Məşğulluq proqramına cəlb olunanlardan 19 sakin Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) ilə birgə təşkil olunan biznes təlimlərə cəlb edilib və onlar üçün kiçik təsərrüfatlar yaradılıb.

Doğma yurda qayıdan digər sakinlərin ərazi üzrə iş yerlərində məşğulluqlarının təmin edilməsi üçün işlər aparılıb. Onlardan 21 nəfəri peşə hazırlığı kursuna cəlb ediliblər. Kursu bitirdikdən sonra 13 nəfər "İşəgötürənlə birgə işçilərin əməkhaqqının maliyyələşdirilməsi" proqramı üzrə işlərlə təmin olunub.

### "İşsizin dostu" Qarabağda...

İşğaldan azad edilmiş ərazilərimizdə fəal məşğulluğa dəstək göstərən digər proqramlarla yanaşı, "İşsizin dostu" layihəsi də gerçəkləşdirilir.

DOST İş Mərkəzi Zəngilanın Ağalı və Tərtərin Talış kəndlərində artıq 26 sakini bu proqram çərçivəsində haqqıödənilən ictimai işlərlə təmin edib. Onlar bərpa, tikinti, sosial, abadlıq və s. sahələrdə çalışırlar. Həmin şəxslərin hər biri ilə əmək müqaviləsi bağlanıb ki, bu da onların gələcək sosial təminat hüquqlarına xidmət edir.

Qeyd olunan kəndlər üzrə daha 20-dən çox sakin proqrama cəlb edilir. 2 kənd üzrə "İşsizin dostu" proqramı çərçivəsində işlə təmin edilənlərin sayı 50-yə çatdırılacaq.

### Hərbçilər müasir protezlərlə təmin ediliblər

Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin tapşırığına əsasən, müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin yüksək texnologiyalı müasir protezlərlə təminatı işləri davam edir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bugünlərdə 432 hərbçini 451 yüksək texnologiyalı protezlə təmin edib. Onlar I və II Qarabağ müharibəsində yaralanaraq əzalarını itirmiş döyüşçülərdir.

Yüksək texnologiyalı son nəsil protezlər rahatlıq və çevikliyi ilə seçilir və xüsusi proqramla təmin edilib. Onlar istifadəçinin köməkçi vasitələr olmadan sərbəst, sabit və inamlı hərəkətinə, sosial həyata daha tez və rahat inteqrasiyasına imkan verir.

Müharibə veteranlarımız son nəsil protezlər vasitəsilə fəal həyata dönüş imkanı qazanaraq öz idman bacarıqlarını da nümayiş etdirə bilir, hətta yarışlarda iştirak edirlər.

### Bölgələrdə ictimai dinləmə

Dövlət Sosial Müdafiə Fondu davamlı olaraq təşkil etdiyi ictimai dinləməni bu dəfə Ağdaş rayonunda keçirib. Tədbirdə Ağdaş, Göyçay və Ucar rayonlarının ictimaiyyət nümayəndələri, eləcə də qeyri-hökümət təşkilatları təmsilçiləri iştirak ediblər.

Görüş zamanı fondun fəaliyyət istiqamətləri, xüsusilə, ünvanlı dövlət sosial yardımının təyin olunmasında tətbiq edilən yeniliklər, operativliyin, əlçatanlığın və şəffaflığın təmin olunması istiqamətində görülən işlər barədə məlumat verilib.

Fondun nümayəndələri ünvanlı dövlət sosial yardımı ilə bağlı təqdimatlarla çıxış ediblər. Dinləmədə ünvanlı sosial yardımın mahiyyətindən, hansı ailələrə təyin olunmasından, fonda müraciət qaydasından da bəhs edilib.

Görüşün sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və ictimai dinləmələrin keçirilməsinin əhəmiyyəti vurğulanıb.

**Zərifə BƏŞİRQIZI,**
**"Xalq qəzeti"**

---

**Vətən qurbanları**

**Ölkəmizdə "Qanlı yanvar" hadisələrinin baş verdiyi 1990-cı ilə, yəni, Mehmanın 10 yaşına qədər hər fevral ayında onların evində dalbadal iki gün şənlik olardı: 23-də kişilər bayramı sayılan ordu günü, 24-də isə Mehmanın doğum günü. Qaniçən sovet ordusu Bakıda, Netçalada və Lənkəranda faciələr törədəndən sonra bütün azərbaycanlılar kimi, Mehmangilin də bayramlar təqvimindən 23 fevral tarixi silindi. Mehmanın ad günləri isə onun 40 yaşına qədər şad gün kimi qeyd olundu. Çünki həmin ilin payızında başlanan Vətən müharibəsinin elə ilk günündəcə o, Murovdağda şəhidlik zirvəsinə ucaldı.**

# Lənkəranın şəhid zabiti



Mehman Mirəziz oğlu Şirvanov doğma Ürgə kəndindəki məktəbdə orta təhsilini başa vurandan sonra Bakı Ali Birləşmiş Komandanlıq Məktəbində oxuyub. Zabitlik sənətini seçməsinə səbəb bəlkə də Sovet Ordusunun cəza dəstələrinin Bakıda qanlı hadisələri törətdikdən beş gün sonra Lənkərana hücum çəkərək Haftoni meşəsində 6 yerli sakini qanına qəltan etməsinə qarşı onda yaranan nifrət hissi olub və o, milli ruhlu bir zabit kimi Vətəni və onun övladlarını qorumaq arzusuna düşüb.

Mehman 1998-ci ildə ilk dəfə əyninə kursant libası geyinəndən ta 44 günlük Vətən müharibəsi başlanana qədər Naxçıvan, Yevlax, Tərtər və Goranboy rayonlarında nümunəvi və qüsursuz xidmət edib. Qulluq dövründə bir sıra xarici ölkələrdə, o cümlədən Rumınıyada, Türkiyədə və NATO tərəfindən təşkil olunan ixtisasartırma kurslarına qatılıb. O, 2016-cı ildə Aprel döyüşlərində böyük igidlik göstərib.

Silahlı Qüvvələrimiz Qarabağda "Zəfər yürüşü"nə başlayıb qəhrəmanlıq dastanı yazanda o, artıq hünərvər zabit kimi ad çıxarmışdı, polkovnik-leytenant idi. Döyüşlərdə bircə gün iştirak etdi, amma adını al qanı ilə şöhrət tariximizə yaza bildi. Ərazi bütövlüyümüzün təmin edilməsi uğrunda həyata keçirilən döyüş əməliyyatlarında öndə getdi, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdi...

Prezident İlham Əliyevin sərəncamı ilə polkovnik-leytenant Mehman Şirvanov ölümündən sonra "Qarabağ" ordeni ilə təltif edilib. O, həmçinin "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "İgidliyə görə" medalları ilə təltif edilib.

Mehmanın həyat yoldaşı Arzu xanım onunla bağlı xatirələrindən, yaddaşlarda işıqlı obrazının qalmasından danışdıqca kövrəlsə də, qürur hissi keçirdiyi aşkar görünür: "Əsl vətənpərvər zabit idi. Gecə-gündüz Vətən naminə canını fəda etməyə hazır idi. Çətinlikdən qorxmayan Mehman sanki şəhid olacağından xəbərdar imiş. Buna görə də döyüşlər başlananda hətta sevinmişdi ki, nəhayət, qisasımızı alacağıq. Müharibə Böyük Qələbə ilə sona yetdi, amma, heyf ki, Mehman o günü görmədi..."

Şəhidin atası Mirəziz Şirvanov oğlu ilə qürur duyduğunu bildirir: "Mehmanın "Qarabağ" ordeni ilə təltif olunmasını televiziyadan öyrəndim. Qəhrəman oğlumla bir daha qürur duydum. Vətən uğrunda canından keçən oğlumun fədakarlığını qiymətləndirdiyinə görə Ali Baş Komandanımıza minnətdaram. Oğlum cəsur zabit idi. Vətən müharibəsində Lənkəran rayonunun ilk şəhididir. Mənim ən böyük təsəllim Vətən müharibəsində Zəfər qazanmağımızdır. Mehman kimi yüzlərlə şəhidimizin, qazimizin qanı yerdə qalmadı, Qarabağı azad etdik".

Qəhrəmanın qardaşı Nəriman Şirvanov da Mehmanın uşaq vaxtından hərbçi peşəsinə maraq göstərdiyini deyir: "Qardaşım qətiyyətli və cəsarətli insan idi. O, orduda 22 il nümunəvi xidmət etdi. Ən böyük arzusu Qarabağın işğaldan azad olunması idi. Mehman arzusuna çatdı, Qarabağımız azaddır. İndi onun ruhu şaddır".



Artıq 3 ildir ki, fevralın 24-də şəhid polkovnik-leytenant Mehman Şirvanovun doğum günü münasibətilə Lənkəran Şəhər İcra Hakimiyyətinin rəsmiləri, yerli ictimaiyyətin nümayəndələri şəhid ailəsinə baş çəkir, qəhrəman Vətən övladının məzarını ziyarət edib, önünə gül dəstələri düzür və ruhuna dualar oxuyurlar.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki DOST İş Mərkəzinin direktoru Firudin Cəbrayılov isə Ramazan bayramı ərəfəsində Mehman Şirvanovun ailəsini ziyarət edərək nazirlik tərəfindən yeni 2 otaqlı mənzilin sənədlərini təqdim edib. Həmçinin ailəyə sığorta ödənişi, maddi yardım edilib və sosial ödənişlər təyin olunub. Özü də Vətən müharibəsinin qazisi olan Firudin Cəbrayılov görüş zamanı bütün ölkə miqyasında şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi üçün aparılan işləri qeyd edib. Bunun gələcəkdə də davam edəcəyini vurğulayıb.

Qeyd edək ki, Birinci və İkinci Qarabağ müharibələrində Ürgə kəndi beş şəhid verib. Orada yaradılmış bulaq-abidə kompleksini ziyarət edənlər Mehmanı, eləcə də Teymuru, Arazı, Zabili və Natiqi ehtiramla yad edir, bulağın sərin suyundan içərək ruhlarına dua oxuyurlar. Balaca Nuray da tez-tez həmin bulağa getməyi sevir. O, 40 yaşında şəhadət şərbəti içmiş Mehmanın əziz yadigarıdır.

**Əli NƏCƏFXANLI, "Xalq qəzeti"**

---

# "Oğlum torpağı canından da, məndən də çox sevirmiş"

**Röyal Elzar oğlu Aslanov 2001-ci il mayın 17-də Tovuz rayonunun Abulbəyli kəndində anadan olub. 2008–2013-cü illərdə N.Tusi adına Tovuz şəhər tam orta məktəbində təhsil alıb. 2013-cü ildə atasının işi ilə əlaqədar ailələri ölkə xaricinə köçüb. Orta təhsilini Rusiya Federasiyasının Tümen vilayətində, Nadım şəhərinin Panqodı qəsəbəsindəki 1 saylı məktəbdə davam etdirib.**

Röyal hələ üçüncü sinifdə oxuyandan güləş və boksla məşğul olub. Tümendə oxuyarkən də idmanla sıx bağlı olub. Boks üzrə şəhər və vilayət yarışlarına qatılıb, fəxri yerlər tutub. 2017-cı ildə boks üzrə 16–17 yaşlı gənclər arasında ikinci yerə, 2018-ci ilin may ayında isə birinci yerə çıxıb. Röyal Aslanov 2019-cu ildə müddətli həqiqi hərbi xidmətə çağırıldığına görə Tümendən doğma yurda dönüb.

Vətən müharibəsinə qədər Azərbaycan Silahlı Qüvvələrinin Goranboy rayonunun Tapqaraqoyunlu kəndində yerləşən "N" saylı hərbi hissəsində xidmət edib. Azərbaycan Ordusunun əsgəri olan Röyal Aslanov 2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsi zamanı Füzulinin azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. İşğal altında olan rayonlardakı kəndlər bir-bir azad edildikcə, Röyal Aslanov daha da cəsarətlənir, çox irəli gedirmiş. Yoldaşlarının dediklərinə görə, o, bəzən də, komandirlərin "geri dön!" – əmri olmasa, düşmənin lap içərisinə qədər getməyə özündə güc tapırmış. Röyal sentyabrın 29-da Füzulidə gedən ağır, aramsız döyüşlər zamanı şəhid olub. Bir gün sonra, sentyabrın 30-da doğulduğu Tovuz rayonunda torpağa tapşırılıb.

Qohum-qonşunun dediyinə görə, çox saf, tərbiyəli, vətənpərvər övlad olub Röyal. Dostları onu qorxmaz, mərd, vətənpərvər insan kimi tanıdıqlarını deyir və onun yoxluğuna yanıb yaxılırlar.

Hərbi xidmətdə olan zaman, fürsət düşdükcə atası, anası və bacısı ilə telefonla danışırmış. Böyük ruh yüksəkliyi ilə deyirmiş: "Hər şey yaxşıdır. Qələbə




bizimdir! Hər gün xoş xəbərlər gözləyin. Bilin ki, Qarabağ Azərbaycandır!"

**Anası İlhamə xanım özünü ovudaraq deyir:**

– Mənim dərdim elin dərdidir. Tək mənim başıma gəlməyib ki... Oğlum Vətənə qurban gedib. Bu, mənə təsəllidir. Yeganə oğul balamı əllərimlə torpağa vermişəm. Dözmək çətin olsa da, xatirəsi ilə yaşayıram. Mən nə arzularla, nə əziyyətlə onu böyütmüşəm. Şəhərlər, ellər keçib iki dəfə köç həyatı yaşamışam. Əsgərlik yaşı çatan kimi, Vətənə dönmüşük. Oğlum Vətən borcunu verməyə gülə-gülə gedib. "Məndən nigaran qalmayın. Zəng etməsəm, narahat olmayın, bilin ki, imkan yoxdur."– deyə bizi sakitləşdirməyə çalışıb. Mən elə bilirdim ki, Röyal məni hamıdan çox istəyir. Sən demə, o, torpağı məndən də, canından da çox sevirmiş.

Bacısı Tehranı tək, atasını boynu bükük qoydu. Biz dünyanı tutub durmayacağıq ki... Röyal ölümüylə kəndimizin, nəslimizin, ailəmizin adını şərəfləndirsə də, bizə çalın-çarpaz dağ çəkdi. Hələ də hər səhər onun yatdığı çarpayıya baxıram. Elə bilirəm ki, axşam qayıdıb gəlib, yatağına girib...

İlhamə xanım hər gün həyətdə dalğalanan Azərbaycan Bayrağına baxıb xəyala dalır. Ürəyində onunla söhbət edir: "Siz – Röyallar, Mehmanlar, poladlar, İlqarlar, Anarlar, daha kimlər... kimlər... mərtəbələrin ən yüksəyindəsiniz: Şəhidlik mərtəbəsində! Məkanların ən ülvisindəsiniz: Cənnətdə! Siz bizdən narahat olmayın – bu dünyanın cənnəti Şuşa bizdədir – cənnət şəhərimiz də, milli ruhumuz da azaddır artıq!"

...Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Röyal Aslanov ölümündən sonra "İgidliyə görə", "Laçının azad olunmasına görə", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.

Ruhun şad, məkanın cənnət olsun, açılmadan solan soydaşımız, igid şəhidimiz. Siz canınız bahasına Vətənin yarasına məlhəm oldunuz, xalqımıza şanlı qələbə qazandırdınız. Ellər daim sizi xatırlayacaq.

**Z.HÜSEYNOVA,**
**"Xalq qəzeti"**

11 iyul 2023-cü il, çərşənbə axşamı Xalq qəzeti

# Şavkat Mirziyoyev yenidən Özbəkistan prezidenti seçildi



**Özbəkistanda iyulun 9-da ölkə konstitusiyanın yeni redaksiyasının qüvvəyə minməsindən sonra hazırkı dövlət başçısı Şavkat Mirziyoyev tərəfindən təyin edilmiş növbədənkənar prezident seçkiləri keçirilib. İkinci səlahiyyət müddəti yalnız 2026-cı ildə başa çatan prezident növbədənkənar seçkilərin zəruriliyini konstitusiya islahatından sonra hakimiyyətin bütün qollarının qarşısında duran yeni vəzifələrlə izah edib.**

Xatırladaq ki, 2016-cı ildən Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistanda "Yeni Özbəkistan" konsepsiyası çərçivəsində islahatlar aparılır. Bu istiqamətdə ilk addım olan 2017-ci ildə qəbul edilmiş Fəaliyyət Strategiyası parlamentin və siyasi partiyaların, vətəndaş cəmiyyəti institutlarının rolunun gücləndirilməsini, qanunun aliliyini, məhkəmə-hüquq sistemində islahatlarını, iqtisadiyyatın liberallaşdırılmasını özündə əks etdirdi.

Konstitusiya islahatı isə Mirziyoyevin islahat proqramında son addım oldu. Əsas Qanunun müddəalarının 60 faizdən çoxu yeniləndi, dövlətin sosial funksiyası gücləndirildi, Özbəkistan dünyəvi dövlət elan edildi, prezidentlik müddəti artırıldı: 5 ildən 7 ilədək. Bundan başqa, konstitusiyaya dəyişikliyə görə, Mirziyoyev daha 2 dəfə prezidentliyə namizəd olmaq hüququ qazandı. O, islahatların davam etdirilməsinə dəstək məqsədilə növbədənkənar prezident seçkilərinin keçirilməsində maraqlı idi.

Ölkə qanunvericiliyinə görə, səsvermə gününə azı 6 ay qalmış yerli Ədliyyə Nazirliyində qeydiyyatdan keçmiş siyasi partiya prezidentliyə namizəd irəli sürə bilər. Bu partiyalardan Liberal Demokrat və Milli Dirçəliş partiyaları Şavkat Mirziyoyevin namizədliyini dəstəkləyib.

Xalq Demokratiya Partiyasından Uluqbek İnoyatovun, Ekologiya partiyasından Abduşükür Həmzəyevin, "Adolat" Sosial Demokrat Partiyasından ("Ədalət") respublika Ali Məhkəməsi sədrinin birinci müavini Robahon Mahmudovanın namizədliyi irəli sürülüb.

Prezident seçkilərini isə MDB və digər beynəlxalq qurum və təşkilatların nümayəndələri müşahidə ediblər. Bildirilib ki, 47 ölkə və 15 beynəlxalq təşkilatdan 797 nəfər seçki müşahidəçisi kimi qeydiyyatdan keçib. Müşahidəçilərin arasında azərbaycanlılar da var. Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahovun rəhbərlik etdiyi nümayəndə heyəti beynəlxalq müşahidəçi qismində seçkilərdə iştirak edib. Bundan başqa, bir qrup deputat da Özbəkistandadır. Onlara Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli rəhbərlik edir.

## Ciddi pozuntular yoxdur

Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədri Zayniddin Nizamxocayev deyib: "Səsvermə aşkarlıq, şəffaflıq prinsiplərinə və demokratik normalara riayət olunmaqla keçirilib. Heç kim bizim işimizə qarışmayıb və əngəl törətməyib. Mərkəzi Seçki Komissiyasının müstəqil olmaması ilə bağlı hansısa nəticə çıxarmaq mümkün deyil".

MDB Parlamentlərarası Assambleyasının nümayəndələri də səsvermənin təşkili səviyyəsini yüksək qiymətləndiriblər. MDB müşahidəçilər qrupunun koordinatoru, Qazaxıstan Parlamenti Senatının sədr müavini Jakip Asanov jurnalistlərə bildirib: "Əlbəttə, biz Özbəkistandakı seçki təcrübəsini təhlil edəcəyik. Parlamentlərarası Assambleyanın (MDB) tərkibində Sankt-Peterburqda demokratiyanın, parlamentarizmin inkişafı, vətəndaşların seçki hüquqlarına riayət olunması məsələlərini öyrənən beynəlxalq institut fəaliyyət göstərir. Düşünürəm ki, Özbəkistanın bəzi təcrübəsi MDB ölkələri üçün maraqlı olacaq".

Azərbaycan MSK-nın müşahidəçiləri seçkilərin keçirilməsi ilə bağlı heç bir irad bildirməyiblər. Qeyd ediblər ki, səsvermə zamanı elektron nəzarət sistemindən istifadə edilib. Bu, seçicinin ikinci dəfə səs verməsinin qarşısını alır.

Prezident seçkisi zamanı hüquq-mühafizə orqanlarına da ciddi qanun pozuntuları ilə bağlı şikayətlər daxil olmayıb. Məsələn, Özbəkistan prokurorluğuna pozuntularla bağlı daxil olan şikayətlərin əksəriyyəti səsvermə prosedurunun aydınlaşdırılması ilə bağlı olub.

## Seçki baş tutub

Xarici mətbuat Özbəkistanda keçirilən prezident seçkilərinin səsvermə tarixinin seçilməsi ilə bağlı irad bildirmişdi. Qeyd edilmişdi ki, iyul ayında Mərkəzi Asiya respublikasında hava kifayət qədər istidir və bu da seçicilərin fəallığına təsir edəcək. Adətən, Özbəkistanda seçkilər ilin sonuna doğru, hava daha mülayim olanda keçirilir. Lakin bu narahatlıq özünü doğrultmadı. Seçkilərin etibarlı sayılması üçün tələb olunan fəallıq həddi (33 faiz) seçki məntəqələrinin açılmasından 3 saat sonra artıq keçilib. İnsanlar seçki məntəqələrinə toy-bayram kimi gəliblər. Ümumilikdə, səsvermədə 15 milyon 651 min 405 nəfər və ya qeydə alınmış seçicilərin 79,8 faizi iştirak edib.

Özbəkistan Mərkəzi Seçki Komissiyasının sədrinin verdiyi məlumata görə, ölkənin hazırkı dövlət başçısı Şavkat Mirziyoyev prezident seçkilərində 87,05 faiz səslə qalib gəlib. O, ən azı, növbəti 7 il ərzində öz səlahiyyətlərinə yeni dəstək qazanıb. Əgər o, gələcək seçkilərdə qalib gəlsə, 2037-ci ilə qədər ölkəyə rəhbərlik edəcək və islahatları davam etdirəcək.

***Qulu KƏNGƏRLİ,***
***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

# Azərbaycan nümayəndə heyəti Özbəkistanda prezident seçkilərini müşahidə edib

**Özbəkistanda keçirilmiş növbədənkənar prezident seçkilərində Azərbaycan Mərkəzi Seçki Komisiyasının nümayəndələri müşahidəçi qismində iştirak ediblər. Komisiyasının sədri Məzahir Pənahov Özbəkistan MSK-nın sədri Zayniddin Nizamxocayevlə görüşüb. Bu barədə qəzetimizə Azərbaycan MSK-dan məlumat verilib.**




Məlumata görə, görüş zamanı Məzahir Pənahova prezident seçkilərinə hazırlıqlar, bu məqsədlə atılan addımlar, prosesə qatılan beynəlxalq və yerli müşahidəçilər, eləcə də səsvermə prosesi haqqında ətraflı məlumat verilib.

Azərbaycan Mərkəzi Seçki Komisiyasının nümayəndələri 3 xətt üzrə – Mərkəzi Seçki Komissiyasının, Türk Dövlətləri Təşkilatının və Müstəqil Dövlətlər Birliyinin dəvəti ilə seçkilərdə müşahidəçi kimi iştirak ediblər. Daşkənd ərazisində 30-dan çox məntəqədə müşahidə aparan nümayəndə heyətimiz seçkilərin nəticəsinə kölgə sala biləcək hər hansı bir neqativ halla rastlaşmayıb. Müşahidəçilərin rəylərinə əsasən, bütün səviyyələrdə seçkilərin hazırlanması və keçirilməsində seçki komissiyalarının peşəkarlığı hiss olunurdu və sakit atmosferdə keçən səsvermə prosesində seçicilər azad və sərbəst şəkildə öz seçki hüququnu gerçəkləşdirirdilər. Səsvermə huququ olan 19 445 258 vətəndaşdan, təxminən, 70 faizinın aktiv iştirak etdiyi seçkilər şəffaf keçirilib.

Özbəkistan MSK-nın verdiyi ilkin məlumata görə, hazırkı Prezident Şavkat Mirziyoyev 4 namizəd arasında 87,05 faiz səs toplayaraq, yenidən dövlət başçısı seçilib.

**Rüfət MƏHƏRRƏMOV**

# Kasetli bombalar Rusiya–Ukrayna müharibəsinin axarına necə təsir göstərəcək?

**ABŞ Prezidenti Co Bayden uzun tərəddüddən sonra Ukraynaya kasetli bombaların verilməsini təsdiqlədi. Ağ evin sahibi belə növ silahların verilməsini onunla izah etdi ki, ukraynalıların döyüş sursatı tükənir, Birləşmiş Ştatların da hazırda Kiyevə təqdim edəcəyi silah növü də məhz kasetli bombalardır. Bəs bu bombalar Rusiya–Ukrayna müharibəsinin gedişinə necə təsir göstərə bilər?**



Belə bir qərarın verildiyi barədə daha əvvəl bir çox KİV-də məlumat yayılmışdı. Ötən həftənin cümə günü axşam isə məlumatı ABŞ-ın milli təhlükəsizlik müşaviri Ceyk Sallivan da açıq şəkildə təsdiqlədi. Onun sözlərinə görə, kasetli bombaların Ukraynaya təhvil verilməsi ilə bağlı qərar asan qəbul edilmədi. Lakin son nəticədə bu, düzgün qərar hesab olundu. Cənab Sallivanın sözlərinə görə, bu, prezidentin bütün müşavirlərinin yekdil tövsiyəsi idi. O, həmçinin vurğulamışdı ki, belə bir qərarın qəbul edilməsinə səbəb ABŞ-ın Ukraynanın artilleriya mərmilərinə olan tələbatını tam ödəyə bilməməsidir.

Bundan başqa, Ceyk Sallivan bildirmişdi ki, Birləşmiş Ştatlar kasetli bombaların mülki şəxslərə zərər vurma riski yaratdığını qəbul edir və buna görə də qərarı mümkün qədər təxirə salırdı. "Ancaq Rusiya qoşunları və tankları Ukraynanın mövqelərini yarsa, daha çox Ukrayna ərazisini ələ keçirsə, habelə daha çox ukraynalı mülki vətəndaşı ram edərsə, mülki əhaliyə də böyük ziyan vurma riski var. Çünki Ukraynanın kifayət qədər artilleriyası yoxdur. Bu da bizim üçün qəbuledilməzdir", – deyə cənab Sallivan ölkəsinin mövqeyini açıqlamışdı.

Ancaq ABŞ-ın məlum qərarı ölkədə, eləcə də NATO ölkələrində birmənalı qarşılanmadı. Amerikalı bəzi qanunvericilər Ağ evin Kiyevə bu növ silah tədarük etmək qərarından narahat olduqlarını bildirdilər. Belə ki, 19 demokrat konqresmen Ağ evin kasetli bombaların Ukraynaya verilməsi qərarına qarşı çıxdı. Konqresmenlər xüsusi yazılı bəyanatda xatırladırlar ki, kasetli bombalar BMT Konvensiyasına uyğun olaraq, təxminən, 125 ölkə tərəfindən qadağan edilmişdir. Bundan başqa, konqresmenlər öz bəyanatlarında ekspertlərin rəyinə istinad edərək bildirirlər ki, kassetli sursatların istifadəsi zamanı təhlükəli partlamamış materialların qalma ehtimalı bir neçə amildən asılıdır və Pentaqonun təxminlərindən xeyli yüksəkdir.

Xatırladaq ki, kasetli bombalar "bomba içindəki bomba" olaraq bilinən silah növüdür. Kasetli bombalar havada açılır və içindəki kiçik bombalar dağılaraq partlayır və bu səbəbdən təsir sahəsi çox genişdir. Bu bombalar adətən çox kiçik bombaları böyük əraziyə, bəzən futbol meydançası boyda əraziyə səpələyir və bütün canlıları məhv edir. Partlamayanlar münaqişə bitdikdən sonra onilliklər ərzində mülki insanları, xüsusən də uşaqları təhdid edir. Buna görə də Böyük Britaniya, Almaniya və Fransa da daxil olmaqla, ABŞ-ın əksər müttəfiqləri 2008-ci ildə BMT-nin Kasetli Silahlar haqqında Konvensiyasını imzalamışdılar. Müqaviləni imzalayan dövlətlər "heç bir halda kasetli sursatlardan birbaşa və ya dolayı yolla istifadə etməməyi, istehsal etməməyi, başqa yolla əldə etməməyi, onun ehtiyatını saxlamamağı və ya heç kimə ötürməməyi" öhdəliyini üzərinə götürürlər. Ancaq ABŞ, Rusiya, Çin və Ukrayna sözügedən konvensiyanı imzalamaqdan imtina edirlər.

Ekspertlərin fikrincə, kasetli sursatlar əks-hücum zamanı Ukraynaya əhəmiyyətli dərəcədə kömək edə bilər. London Kral Kollecinin baş elmi işçisi Mayk Martinin sözlərinə görə, kasetli bombalar Ukrayna üçün çox faydalıdır. M.Martin düşünür ki, Ukrayna hərbi texnika üçün istifadə olunan yanacaqla təchizat marşrutlarını və Rusiya anbarlarını vurmağa çalışır və kasetli sursatlar bu tapşırıqlar üçün çox təsirlidir.

"Defense Express"in baş redaktoru Oleq Katkov da deyir ki, ABŞ-ın təqdim etdiyi kasetli sursatlarının növü Ukraynanın əks-hücumunun gedişatını müəyyən edəcək. "Əgər bunlar kasetli artilleriya mərmiləridirsə, o zaman bu, ukraynalı artilleriyaçılara daha az atəş açmağa və Ukraynada döyüş sursatı çatışmazlığı problemini həll etməyə imkan verəcək. O.Katkov hesab edir ki, ABŞ-a zərbə endirmə təyyarələri və uzaqmənzilli raketlər üçün istifadə oluna bilən kaset sursatlarının elementlərini ixrac etməyə icazə verilməsi Ukrayna ordusunu gücləndirəcək və Ukrayna Silahlı Qüvvələrinin əks-hücumunu sürətləndirəcək.

Pentaqonun nümayəndəsi, briqada generalı Pat Rayderin isə düşünür ki, düşmənin canlı qüvvəsini məhv etmək üçün nəzərdə tutulmuş bu bombalar istənilən hücum əməliyyatlarında faydalı olacaq.

**Səbuhi MƏMMƏDOV,**
**"Xalq qəzeti"**

## Yaddaşlarda yaşayanlar

# Türkiyə Vilnüsə hansı tələblərlə gedir?

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan NATO sammitində iştirak etmək üçün Vilnüsə yola düşməzdən əvvəl Atatürk Hava Limanında keçirdiyi mətbuat konfransında öz ölkəsinin Qərblə münasibətlərinə dair bir sıra mühüm bəyanatlar verib.**



Türkiyə KİV-ləri xəbər verir ki, Avropa İttifaqına müraciətlə "əvvəlcə bizim Aİ-yə önümüzü açın, biz də İsveçin önünü açaq, 50 ildir qapıda gözləyən Türkiyə var" deyən Rəcəb Tayyib Ərdoğan, Ankaranın NATO-nun "açıq qapı" siyasətini hər zaman dəstəklədiyini bildirib. O əlavə edib ki, sammitdə Türkiyəyə sanksiya və məhdudiyyətlər tətbiq edən müttəfiqlərə bu yanlış yoldan dönmələri üçün təkrarən müraciət edəcək. Türkiyə Prezidenti vurğulayıb ki, İsveçin NATO-ya üzv olması ilə bağlı son qərarı Türkiyə Böyük Millət Məclisi verəcək.

Türkiyənin dövlət başçısı qeyd edib ki, sammitdə Ukraynada müharibənin ən qısa müddətdə və ədalətli şəkildə başa çatması yolları müzakirə ediləcək. Onun sözlərinə görə, sülh Kiyevin NATO-ya üzvlüyünü daha da asanlaşdıracaq.

Taxıl sazişindən də bəhs edən Rəcəb Tayyib Ərdoğan bildirib ki, gələn ay Rusiya Prezidenti Putinin Ankaraya səfərinin baş tutacağı təqdirdə bu məsələ ətrafında geniş müzakirə aparılacaq.

ABŞ-dan F-16 qırıcı təyyarələrinin tədarükü məsələsinə toxunan Türkiyə Prezidenti deyib: "Bayden deyib ki, əlimdən gələn hər şeyi edirəm. O, bizdən də eyni şeyi tələb edir. Lakin NATO müttəfiqi kimi bizim sizə etdiyimiz ödəmələr var və hələ ki, onların heç birinin qarşılığını ala bilmədik. Vilnüsdə bizim dar çərçivədə bir görüşümüz olacaq və onunla bu məsələni müzakirə edəcəyik. Bunun İsveçlə əlaqələndirilməsi bizi narahat edir. Ümidvaram ki, bu məsələnin sonu xeyirlə nəticələnəcək".

**"Xalq qəzeti"**

# Paris Paralimpiadasına ilk lisenziya

**“Paris-2024” Yay Paralimpiya Oyunlarına komandamız ilk lisenziyasını qazanıb. İlk lisenziyaya Azərbaycan Milli Paralimpiya Komitəsinin atletika idman növü üzrə milli komandasının üzvü Oloxan Musayev sahib olub.**



İdmançımız Fransanın paytaxtı Parisdə keçirilən dünya çempionatında nüvə itələmə növündə 11.74 m nəticə göstərərək 4-cü yerə çıxıb. O, bu nəticə ilə Paris Paralimpiadasına vəsiqə əldə edib.

Hazırda Parisdə olan Oloxan Musayev “Xalq qəzeti”nə açıqlamasında növbəti paralimpiadaya ilk lisenziya əldə etdiyi üçün sevincinin həddi-hüdudu olmadığını deyib. Qeyd edib ki, mükafatçılar sırasında yer almaq üçün potensialı olsa da, bir qədər aşağı nəticə göstərib:

– Yarışa yaxşı hazırlaşmışdım. Ən azı, üçüncü yeri tuta bilərdim. Amma əvvəlkilərlə müqayisədə 30-40 santimetr daha az göstərici qeydə alındı. Nəticəmi 15 santimetr yaxşılaşdıra bilsəydim, üçüncü yerə sahib olardım. Buna baxmayaraq, çox məmnunam. Paris Paralimpiadasında iştirak bizim üçün böyük önəm daşıyır. İndi əsas hədəf Parisdə keçiriləcək Yay Paralimpiya Oyunlarında yüksək səviyyədə çıxış etməkdir”.

Qeyd edək ki, dünya çempionatında ilk 4 yerə sahib çıxan atletlər XVII Yay Paralimpiya Oyunlarına birbaşa lisenziya qazanırlar.

Xatırladaq ki, Tokio Paralimpiadasında 19 medal – 14 qızıl, 1 gümüş və 4 bürünc qazanan Azərbaycan komandası ümumi sıralamada onuncu pillədə qərarlaşıb.

**Leyla SABİRQIZI,**
**“Xalq qəzeti”**

# Ağırlıqqaldıranlarımızın Avropa uğuru

*Yeniyetmə və gənc atletlərimizin timsalında sabahın olimpiyaçıları yetişir*

**Son iki ayı Azərbaycan idmanında rekordlar dövrü hesab etmək olar. Təqdiredici haldır ki, beynəlxalq arenalarda keçirilən nüfuzlu yarışlarda yüksək nəticələr göstərən atletlərimizin əksəriyyəti yeniyetmə və gənc idmançılarımızdır.**




Bundan bir neçə gün qabaq İspaniyada 20 yaşadək idmançılar arasında keçirilən sərbəst güləş üzrə Avropa çempionatında 2 qızıl, 1 gümüş və 3 bürünc medal qazanan komandamız yekunda 143 xal toplayaraq ümumi hesabda Avropa çempionu olub. Ondan əvvəl isə yunan-Roma güləşçilərimiz 2 qızıl, 2 gümüş və 2 bürünc medalla 144 xal əldə edərək Avropa çempionatında bütün komandaları qabaqlayıb.

Bugünlərdə Macarıstanda 15 yaşadək güləşçilərin Avropa birinciliyində 2 qızıl, 2 gümüş və 3 bürünc medalla yekun hesabda (139 xal) Gürcüstandan cəmi 2 xal geri qalan komandamız ikinci oldu. İyunun son həftəsində cüdo millimizin Avropa çempionatındakı uğurunu da xüsusi qeyd etməliyik. Yeniyetmələrdən ibarət komandamız 6 qızıl və 3 bürünc medalla oğlanlar arasında birinci yerə layiq görülüb. Millimiz qarışıq komanda yarışlarında da qızıl medal qazanıb.

Bu günlər gənc gimnastlarımız da tarixi nəticə qazanıblar. Azərbaycan gimnastika tarixində ilk dəfə gənclər arasında qrup komandamız Rumıniyanın Kluj-Napoka şəhərində bədii gimnastika üzrə gənclər arasında keçirilən 2-ci dünya çempionatında çoxnövçülük proqramında bürünc medala sahib olub. Gimnastlarımız, həmçinin ayrı-ayrı alətlər üzrə finallarda ( 5 ip və 5 top) bürünc medallar qazanıb.




Dünən başa çatmış 15 və 17 yaşadək idmançıların Avropa birinciliyində ağırlıqqaldıranlarımızın qazandıqları parlaq nailiyyətləri də fəxrlə vurğulaya bilərik. Moldovanın paytaxtı Kişineuda 17 yaşlı yeniyetmə oğlanlar arasında Ravin Alməmmədovun (73 kq) çıxış etdiyi bütün hərəkətlərdə qızıl medal qazanması qürurvericidir. Birdən qaldırma hərəkətində və təkanla qaldırma hərəkətlərində qızıl medal qazanan idmançımız toplam 299 kq (137+162) nəticə göstərərək yekun sıralamada da birinci yeri tutub.

Komandamızın daha bir üzvü – 15 yaşadək idmançılar arasında mübarizə aparan Hüseyn Heydərov (81 kq) da 3 qızıl medal idman ictimaiyyətini sevindirib. Atletimiz komanda yoldaşı kimi, həm birdən qaldırma, həm də təkanla qaldırma hərəkətləri üzrə fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb. Toplam 257 kq (118+139) nəticə göstərən H.Heydərov yekun sıralamada da qızıl medal qazanıb. Ümumilikdə, komandamız qitə birinciliyində 8-i qızıl, 4-ü gümüş, 2-si bürünc olmaqla 14 medal qazanıblar. Onu da qeyd etmək yerinə düşər ki, sadaladığımız idman növlərinin hamısı Olimpiya idman növləridir.

Prezident İlham Əliyev son Olimpiya Oyunlarında – Tokio Olimpiadasında komandamızın nəticəsi ilə bağlı danışarkən qeyd etmişdir ki, Olimpiya Oyunlarında təcrübəli idmançılarımız, demək olar ki, veteran idmançılarımız medal qazanıblar. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Ölkəmizin başçısı son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisinin geniş vüsət aldığını, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksinin fəaliyyət göstərdiyini qeyd edib.

Bu gün yüksək nailiyyət əldə etmiş hər bir yeniyetmə və gənc idmançıya böyük ümidlər bəsləyirik. Onların timsalında gələcəyin olimpiyaçıları yetişir. Yüksək nəticə qazanan idmançılar arasında bölgə təmsilçilərimizin də böyük payı var. Moldovadakı Avropa birinciliyində Ravin Alməmmədov Qazax, Hüseyn Heydərov Lənkəran ağır atletika məktəbinin yetirmələridirlər. Eləcə də, komandanın yüksək nəticəyə imza atmış digər üzvləri arasında bölgə idmançıları var.

**Azərbaycan millisinin məşqçisi Kamran İsmayılov da yığmamızın qitə birinciliyində əldə etdikləri nəticələri təhlil edərkən bildirdi ki,** bu idmançıların hər biri gələcək üçün böyük ümidlər verir. Avropa birinciliyində qazanılmış nailiyyət son illər ərzində rekord nəticədir. Avropa birinciliyinə qatılan 8 oğlandan 6-nın mükafatçılar sırasında yer alması onu göstərir ki, yığmamız yaxşı formadadır: “Komandanın hazırlığı yüksək nəticələr üçün geniş imkanlar yaradırdı. Sevinirik ki, uğurla çıxış etdik. Əminəm ki, yeniyetmə idmançılarımız gənclər və böyüklər arasında da mötəbər yarışlarda sözlərini deyəcəklər”.

**İdmançımız Hüseyn Heydərov dünya və Olimpiya çempionluğunu hədəflədiyini dedi: “**Əsas hədəf dünya və Olimpiya çempionu olmaqdır. Qarşıdakı yarışlara yaxşı hazırlaşmaq üçün bütün potensialımdan maksimum istifadə etməyə çalışacağam”.

**Ravin Alməmmədov isə Moldovaya rekord üçün getdiyini bildirdi:** “Moldovaya ən yüksək nəticə üçün getmişdim. Rekord qazandığım üçün xoşbəxtəm. Bu nəticə məni arxayınlaşdırmır. 20 yaşlıların dünya çempionatında da yüksək nəticə göstərmək istəyirəm”.

**Yarışda 17 yaşadək idmançılar arasında 1 qızıl və 2 gümüş medal qazanan Amin Osmanov (99 kq) gələcəyə böyük ümidlə baxdığını vurğuladı:** “Bu nəticəni gənclər və böyüklər arasında da qazanmaq istəyirəm. Düşünürəm ki, bunun üçün potensialım var. Hədəfə çatmaq üçün bütün səylərimi toplayacağam”.

Avropanın ən güclü atletlərinin yarışında parlaq nəticə qazanmış idmançılarımız hər cür tərifə layiqdirlər. Onlar beynəlxalq arenalarda dövlət bayrağımızı yüksəklərdə dalğalandırıb, himnimizi səsləndirirlər. Ən əsası isə bu idmançılarımız gələcəyimiz olan gənc nəslin nümayəndələridir. Bu da idmanımızın bu günü kimi sabahının da uğurlu olacağına əminlik yaradır.

**Leyla QURBANOVA,**
**“Xalq qəzeti”**

# Qarabağ Cəbəllütariqdə yeni yola çıxır

**Azərbaycan futbolunun fəxri və iftixarı Ağdamın "Qarabağ" komandası yeni mövsümdə beynəlxalq meydanda ilk sınaq ərəfəsindədir. Ölkə çempionumuz bu axşam Cəbəllütariqdə qitənin ən nüfuzlu klub turniri Çempionlar Liqasının qrup mərhələsinə aparan yolda yeni tarix yazmağa başlayacaq. UEFA Bakı vaxtı ilə saat 19:30-da starta çıxacaq " Linkoln" – "Qarabağ" görüşünün hakimliyini Latviya Futbol Federasiyasının nümayəndələrinə həvalə etmişdir. Baş hakim rolunda ədaləti Vitalijs Spasyonnikovs qoruyacaqdır.**



Birinci təsnifat mərhələsinin cavab görüşü isə iyulun 19-da Bakı Olimpiya Stadionunda oynanılacaq. Bu dəfə topa ilk zərbə saat 20-də endiriləcək. Əgər Ağdam klubu Cəbəllütariqdə "Viktoriya" stadionunu sərfəli nəticə, yaxşı əhval-ruhiyyə ilə tərk etsə, şəhərimizin və ölkəmizin ən böyük idman arenasında on minlərlə azarkeş qarşısında daha rahat şəkildə oynayacaq və ümid edək ki, ikinci təsnifat mərhələsinin qapısını üzümüzə taybatay açacaq.

Siz yay transfer pəncərəsi zamanı çempion komandamızın heyətində baş vermiş dəyişikliklərdən xəbərdarsınız. Kollektivin əsas zərbə qüvvəsi – sonuncu milli çempionatda birlikdə 43 qolun müəllifi olmuş Şeydayev – Qurbanlı tandemi artıq "Qarabağ"ın sıralarında deyil. Ramil Tailand çempionatında oynayacaq, Musa isə İsveçin "Yurqorden" klubu tərkibində qollarının hesabını açmağa hazırlaşır. Təbii ki, futbol pərəstişkarlarımız indi onların çıxışlarını əvvəlkindən də böyük maraqla izləyəcəklər. "Qarabağ"ın yeni hücumçuları bu yay "Zirə"-dən Ağdam klubuna keçmiş Hamidu Keyta və Braziliya futbolunun yetirməsi Juninyo isə Azərbaycan çempionuna layiq oyunçular olduqlarını dəqiq zərbələri ilə sübuta yetirməyə çalışacaqlar.

***Oqtay BAYRAMOV***

# Gürcüstanda Azərbaycan dünyası

**Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı Mədəniyyət Nazirliyinin dəstəyi ilə Gürcüstanda Nodar Dumbadze adına IV Beynəlxalq Teatr Festivalında ölkəmizi təmsil edir.**

Teatrın mətbuat xidmətindən verilən məlumata görə, Ozurgeti şəhərində iyulun 15-dək davam edəcək festivalda Azərbaycan və Gürcüstanla yanaşı, İspaniya, Qazaxıstan, Ukrayna, Portuqaliya və Özbəkistandan olan teatrlar da iştirak edirlər.

Festivalın proqramına tamaşalar, kitab təqdimatları, Avrasiya Teatr Assosiasiyası təsisçilərinin görüşü daxil edilib. Tədbirlərə iyulun 15-də Ozurgetidə Aleksandr Tsutsunava adına Peşəkar Dövlət Dram Teatrının 155 illik yubileyinə həsr olunmuş bayram gecəsi və mükafatlandırma mərasimi ilə yekun vurulacaq.



Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı məşhur gürcü yazıçısı Qoderzi Çoxelinin eyniadlı hekayəsi əsasında səhnələşdirilən “Küknarlara məktub” tamaşası ilə çıxış edib. Boris Şukin adına Teatr İnstitutunun məzunu Nigar Güləhmədovanın quruluşçu rejissoru olduğu səhnə əsəri müharibədən qayıdan, kürəyində küknar ağacı bitən yaralı əsgərin cəmiyyətə uyğunlaşa bilməməsi, hamı kimi normal həyatı yaşamağı bacarmaması haqqındadır. Ətrafında olan insanlar onu cəmiyyətə uyğunlaşdırmaq istəsələr də, bütün cəhdlər boşa çıxır. Yaralı əsgər cəmiyyəti yox, təbiəti seçir, ağaca və torpağa çevrilir. Müəllifin mövqeyinə görə, ən ciddi qayıdış təbiətə olmalıdır.

Tamaşanın quruluşçu rəssamı Samirə Həsənova, işıq üzrə rəssamı Rafael Həsənov, musiqi tərtibatçısı Kamil İsmayılov, rejissor assistenti Dilbər İsmayılovadır. Əməkdar artistlər Elşən Rüstəmov, Almaz Amanova, Ayşad Məmmədov, aktyorlar Rüstəm Rüstəmov, Ramin Şıxəliyev, Dilarə Nəzərova, Elçin Əfəndi, Firuzə Balayeva, Lalə Süleymanova rollarının öhdəsindən bacarıqla gəliblər. Səhnə əsəri festivalın münsiflər heyəti, eləcə də tamaşaçılar tərəfindən böyük maraqla və alqışlarla qarşılanıb.

***

Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində Şuşa şəhərinin 2023-cü il üçün “Türk dünyasının mədəniyyət paytaxtı” seçilməsi ilə əlaqədar fotosərgi açılıb.

Ekspozisiyada Şuşanın füsunkar gözəlliyini, Azərbaycan və dünya mədəniyyətinə, incəsənətinə maraqlı və unudulmaz incilər bəxş etmiş tarixi şəxsiyyətlərin fotoları nümayiş etdirilib. Sərgini ziyarət edənlərə Şuşa açıqcaları paylanılıb.

Layihə rəhbəri Fərhad Abdulov sərgini ziyarət edənlərə layihənin məqsədi barədə məlumat verib. Bildirib ki, sərgi Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə "Uşaq və Yeniyetmələrə Dəstək” (UYD) İctimai Birliyi tərəfindən icra olunan “Shusha, the cultural capital of Azerbaijan, in photos” (Azərbaycanın mədəniyyət paytaxtı Şuşa fotolarda) adlı beynəlxalq fotoqrafiya layihəsi çərçivəsində gerçəkləşib.



Geniş maraq doğuran layihənin məqsədi Şuşanın tarixinin və mədəni irsinin yerli, türk və gürcü gəncləri arasında təbliğ edilməsindən ibarətdir.

**Hazırladı: Əli ƏLİYEV,**
**“Xalq qəzeti”**

## “Qazanbulaq Mədəni Məişət” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağının çağırılması haqqında

**BİLDİRİŞ**

**Hörmətli səhmdar!**

20 avqust 2023-cü il saat 11.00-da “Qazanbulaq Mədəni Məişət” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Goranboy rayonu, Qazanbulaq Şəhər Tipli Qəsəbədə, cəmiyyətin hüquqi ünvanında (Goranboy rayonu, Qazanbulaq ŞTQ) keçiriləcəkdir.

Yığıncağın gündəliyi:

1. 2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarına aid hesabatın müzakirəsi və təsdiqi.
2. “Qazanbulaq Mədəni Məişət” ASC-nin ləğv edilməsi.
3. “Qazanbulaq Mədəni Məişət” ASC-nin idarə heyəti sədrinin və üzvlərinin vəzifədən azad olunması və ləğvetmə komissiyasının (təsviyyəçinin) təyin edilməsi.
4. “Qazanbulaq Mədəni Məişət” ASC-nin ləğv edilməsi ilə əlaqədar qanuna müvafiq tədbirlərin həyata keçirilməsi haqqında qərarın qəbul olunması.

Telefon-051-513-52-90.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi ünvanda tanış olmaq mümkündür. Yığıncaqda bütün səhmdarlar şəxsiyyəti təsdiq edən sənədlə (vəkil olunmuş nümayəndələr notarial təsdiqlənmiş etibarnamə və şəxsiyyəti təsdiq edən sənədlə) iştirak edə bilərlər.

**“Qazanbulaq Mədəni Məişət” ASC-nin idarə heyətinin sədri Mehtiyev Samir Müzəffər oğlu.**

# Son sutkada bir nəfər yoluxub

**Azərbaycanda son sutkada koronavirus infeksiyasına 1 yeni yoluxma faktı qeydə alınıb.**

Bu barədə Nazirlər Kabineti yanında operativ qərargah məlumat yayıb.

Son sutkada COVID-19-dan vəfat edən olmayıb.

**“Xalq qəzeti”**

## “Ticarət Mərkəzi – 6” ASC səhmdarlarının nəzərinə!

25 avqust 2023-cü il saat 10.00-da “Ticarət Mərkəzi – 6” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2022-ci ilin maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və illik hesabatın təsdiqi.

**2.** Digər məsələlər.

Ünvan – Bakı, 3-cü mikrorayon, Alı Mustafayev küçəsi 23/24.

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 142 (30258) 11 iyul 2023-cü il, çərşənbə axşamı
veb-sayt: www.xalqqazeti.az

İdman xəbərləri

## Boksçularımız Gürcüstanda 7 medal qazanıblar



**Gənc boksçular arasında Gürcüstanın Qori şəhərində keçirilən beynəlxalq turnirdə Azərbaycan idmançıları 7 medal qazanıblar.**

Azərbaycan Boks Federasiyasından “Xalq qəzeti”nə bildiriblər ki, Azərbaycan millisinin 8 idmançısından 7-si yarışı medalla başa vurub.

Komandamızın aktivinə gümüş medalları Ramal Yolçuyev (48 kq) və Nadir Məlikov (60 kq) yazdırıblar. Sabir Dadaşov (51 kq), Ənəs Ağayev (54 kq), Əli Alıyev (57 kq), Ayxan Əliyev (67 kq) və İlfan Xəlilli (80 kq) isə üçüncü yeri tutublar.

## Millimiz Avropa ikincisi olub

**U-15 Avropa çempionatında yunan – Roma güləşçilərimiz uğurla çıxış ediblər. Macarıstanın Kaposvar şəhərində keçirilən birincilikdə komandamız 2 qızıl, 2 gümüş və 3 bürünc medala sahib olub.**




Yekunda 139 xal toplayan millimiz Avropa ikincisi olub. Yığmamız Gürcüstandan cəmi 2 xal geri qalıb. Macarıstan isə 105 xalla 3-cü yeri tutub.

Qeyd edək ki, məşqçilər Əbilfət Məmmədovla İlham Vezirovun rəhbərliyi altında Nicat Yeylaqaliyevlə (62 kq) Yusif Əhmədli (68 kq) qızıl, Əli Nəzərovla (48 kq) Marat Ağakərimov (52 kq) gümüş, Elşad Abbasov (48 kq), Nihad Məhərrəmov (52 kq) və Rüfət Əlizadə (85 kq) isə bürünc medal qazanıb.

## İtaliyada akrobatlarımız fəxri kürsüdə

**Akrobatika gimnastikası üzrə “Turin Acro Cup” turnirində Azərbaycan millisinin üzvləri iki medala layiq görülüblər.**




İtaliyanın Turin şəhərində keçirilən yarışda Ağasif Rəhimov və Raziyə Seyidlidən ibarət qarışıq cütlük qızıl medal qazanıb.

Nəzrin Fərmanova, Aynur Yusufova və Lalə Hüseynovadan ibarət qadın qrupu isə beynəlxalq turniri ikinci pillədə bitirərək gümüş medala sahib çıxıb.

*L.SABİRQIZI, “Xalq qəzeti”*

Texnologiya yenilikləri



## Sürücüsüz taksilər qorxu yaradır

**San-Fransisko əhalisi şəhər küçələrində getdikcə artan sürücüsüz taksilərdən narahat olmağa başlayıb. Vətəndaşlar “təhlükəsiz küçə üsyançıları” adlı qruplaşma altında birləşərək hərəkətə keçiblər.**

Qrup üzvləri robot taksiləri dayandırmağın yolunu tapıblar. Belə ki, pilotsuz avtomobillərin üzərinə yol xidmətləri tərəfindən tez-tez istifadə olunan zolaqlı plastik trafik konusunu yerləşdirirlər. Bu zaman avtonom idarəetmə sistemi avtomobili dayanma rejimində saxlayır. Bu üsulla şəhər ətrafında səyahət edən pilotsuz taksilər fəaliyyətsiz hala gətirilir.

Qeyd edək ki, şəhər sakinləri bu maşınları insanlar üçün təhlükəli hesab edirlər. Avtonom taksilərin şəhərdəki elektrik dirəklərini zədələməsi, ictimai avtobuslara çırpılması, paytaxt küçələrində sıxlığı artırması ilə bağlı şikayətlər də var. Robot taksi operatorları isə polisdən etirazçılara müdaxilə etməyi xahiş ediblər.

*Əfsanə ƏHƏDLİ, “Xalq qəzeti”*

## “WhatsApp”ın ünsiyyət yenilikləri

**“WhatsApp”ın Android Beta versiyası 2 yeni funksiyasını təqdim edir. Bunlardan birincisi tətbiqdən daha rahat istifadə etməyə imkan verəcək söhbət kateqoriyasıdır.**



“Oxunmamış”, “Şəxsi” və “İş” adlı 3 fərqli mövzuya bölünən söhbət filtrlərinə toxunduğunuz zaman yalnız həmin kateqoriyadakı mesajların siyahıya alındığını görəcəksiniz.

İkinci yenilik isə eyni emojilərdən istifadə etməkdən yorulanları sevindirəcək. Tezliklə “WhatsApp”da daha rəngarəng söhbət üçün stiker təklifləri təqdim olunacaq. Android Beta versiyasında bu imkanlardan istifadə zamanı emojiyə uyğun stiker təkliflərini görə biləcəksiniz.

*F. SALMANOVA, “Xalq qəzeti”*

## Ağalıda ilk nişan mərasimi

**İşğaldan azad edilən bölgələrimizdən, hər gün xoş xəbərlər gözləyirik. Hər köç xəbəri bizim də üreyimizi o yerlərin sakinləri kimi fərəhlə doldurur.**



Dünən Ağalıdan daha bir xoş xəbər aldıq! Belə xəbərlərin davamlı olması diləyilə, onu oxucularımızla da paylaşırıq:

Uzun illərdən sonra işğaldan azad olunan və qısa müddətdə yenidən qurulan Zəngilan rayonunun Ağalı kəndində nişan mərasimi keçirilib.

30 ildən sonra Sumqayıtdan yola düşən maşın karvanı Ağalıda Məmmədovlar ailəsinin evinin qarşısında dayanıb. Sevinc-sevincə, musiqi-musiqiyə qarışdı. Ağalının ilk nişan mərasiminin səsi də uzaqlara yayıldı. Bu yerlərdə ilk xeyir iş sevincini yaşamaq Məmmədovlar ailəsinə nəsib oldu.

Dünyamalıyevlər ailəsi Sumqayıt şəhərindən el adəti ilə Ağalıya, Məmmədovlar ailəsinə qızları Arzu üçün elçi gəliblər. Beləliklə, valideynlərin də xeyir-duasını alan Rüfət və Arzu üçün nişan mərasimi keçirilib və yeni bir ailənin təməli qoyulub.

Qeyd edək ki, Rüfətlə Arzu Məmmədovların ailəsi Ağalıya köçəndən sonra bir-birindən ayrı düşüblər. Telefon əlaqəsi, görüntülü söhbətlər isə ara verməyib. Nəhayət, valideynlərə növbə çatıb. Övladlarının xoş niyyətlərindən sevinən valideynlər bu məsələdə onların yanlarında olduqlarını bildiriblər. Və beləliklə... nişan mərasimi Ağalı kəndinin mərkəzində yerləşən şadlıq evində keçirilib. İki gəncin sevincli günündə ailələri ilə bərabər, Şərqi Zəngəzur İqtisadi rayonu üzrə xüsusi nümayəndəliyin əməkdaşları, kənd sakinləri də iştirak ediblər.

Xoşbəxt olun, gənclər! İnşallah, belə xoş xəbərləri bundan sonra daha çox eşidəcəyik.

*“Xalq qəzeti”*

Sağlamlıq guşəsi

## Treska – xolesterinin qənimi

**Dietoloq Yelena Solomatina treska balığının qara ciyərinin yaşlı insanlarda ürəyin işinə kömək edən ən yaxşı vasitə olduğunu bildirib.**



O, deyib ki, məhsulun tərkibində olan yağ turşuları – Omeqa-3 damarların divarlarında xolesterin yığılmasının və aterosklerozun qarşısını alır. Omeqa-3, həmçinin qanın yenilənməsinə kömək edir. Bundan başqa, balığın qara ciyərində olan digər minerallar damarlardakı birləşdirici toxumanı gücləndirir.

Məhsulda, həmçinin PP vitamini olduğunu söyləyən Solomatinanın fikrincə, həkimlər yaşlı insanlara damarlarının işlək vəziyyətdə qalması üçün bu vitamini iynə şəklində tövsiyə edirlər.

Treskanın qara ciyəri paştet formasında gündə 1 çay qaşığı qəbul edilməlidir.

## Sağlam qida – təmiz qan

**Qanda xolesterin səviyyəsini aşağı salan ayrıca məhsul yoxdursa, narahat olmağa dəyməz. Onun səviyyəsini sağlam və düzgün qidalanma ilə normada saxlamaq mümkündür.**



Rusiyalı dietoloq Natalya Qridinanın sözlərinə görə, qanda xolesterinin səviyyəsini aşağı salmaq üçün menyuda müxtəlif tərəvəzdən bol istifadə etmək lazımdır. Diqqət etmək lazımdır ki, minerallar az olmasın. Bundan başqa qida rasionuna balıq və qoz da əlavə edilməlidir. Heyvan yağları ilə birlikdə bitki yağlarından istifadəyə də diqqət edilməlidir. Bu, lipoproteinlərin aşağı və yuxarı həddini normada saxlamağa kömək edir.

Dietoloq yağlı, qızardılmış, hisə verilmiş qidaları və şirniyyatdan uzaq durmağı da tövsiyə edir. Bildirir ki, bu qidaların qəbulu qanda xolesterinin artmasına səbəb olur.

*Z.HÜSEYNLİ, “Xalq qəzeti”*

## Göz yaşartmayan soğanlar…

**Avstraliya supermarketlərində ilk göz yaşartmayan soğan satışa çıxarılacaq. Bu barədə ölkənin “Woolworths” marketlər şəbəkəsi məlumat yayıb.**



Soğanın tərkibində elə maddələr və fermentlər var ki, gözdə qıcıqlanmaya səbəb olur. Bu isə gözlərin yanmasına gətirib çıxarır. Müxtəlif soğan növlərinin çarpazlaşdırılması nəticəsində əldə edilən unikal soğan növü isə kəsilərkən göz yaşartmayacaq. Qəhvəyi rəng olan bu soğanlar adi soğanlardan daha az kəskin və şirindir.

Qeyd edək ki, ilk gözyaşartmayan soğanın sentyabr ayında satışa çıxarılması planlaşdırılır.

*Aytən NƏCƏFOVA, “Xalq qəzeti”*

Proqnoz

## Bakıda güclü külək, rayonlarda yağış yağacaq, dolu düşəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən iyulun 11-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 19-24°, gündüz 26-31° isti olacaq. Abşeron çimərliklərində dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 26-27° isti olacaq. Azərbaycanın rayonlarında əsasən dağlıq və dağətəyi rayonlarda arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26°, gündüz 30-35°, dağlarda gecə 10-15°, gündüz 15-20° isti olacaq.

*Q.QASIMOV, “Xalq qəzeti”*

## ALLAH RƏHMƏT ELƏSİN

“Xalq qəzeti”nin kollektivi Azərbaycan Milli Kulinariya Assosiasiyasının prezidenti Tahir Əmiraslanova anası

**GÜLZAR XANIMIN**

Tovuz rayonunun Qovlar şəhərində vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

“Xalq qəzeti”nin kollektivi iş yoldaşları Kamal Abbasova əzizi

**NAĞDALI BABAŞOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4314
SİFARİŞ 1727
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00